www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 25-26 oktyabr 2014-cü il Şənbə № 263 (5972) Qiyməti 40 qəpik

Xəbər

## Bakıda bir gündə üç nəfər intihar etdi

yazısı səh.2-də

Gündəm

### Bu gün Müsavatda seçkilərdir

Partiyanın Məclisinə, MNTK-ya və Divana yeni üzvlər müəyyənləşdiriləcək; bu seçkilər təşkilatdakı gərginliyi daha da artıracaq, yoxsa azaldacaq?

yazısı səh.2-də

*Arif Hacılı:*

### "İsa Qəmbər proseslərin içindədir, heç kəsin narahatçılığına əsas yoxdur"

yazısı səh.5-də

*Ekspertlər:*

### "Ermənistanın bütün gedişləri danışıqları nəticəsiz etməyə hesablanıb"

yazısı səh.11-də

### Kimsə jurnalistə "məndən yazma" göstərişi verirsə...

yazısı səh.3-də

### Bacısının öldürdüyü qızın məktəb yoldaşları "Yeni Müsvat"a danışdılar - inanılmaz təfərrüatlar

yazısı səh.15-də

### Yaxın tarixdəki parlament qətliamları - deputat mandatı qurğuşundan qorumur

yazısı səh.9-da

### Asilər yeni başqanın "təmizləmə aparmayacam" vədinə inanırmı?

yazısı səh.13-də

### Siyasi açılımlar üçün yaradılan təşkilatın üzvləri danışdı - məqsəd...

yazısı səh.4-də

### Üç yetimin haqqını üç yüksək çinli məmur vermək istəmir

yazısı səh.3-də

### Ölkənin kommunikasiya sistemləri qışa hazırdırmı?

yazısı səh.14-də

## Kremldən Bakıya qondarma qurumu tanıma hədəsi

# MOSKVADA QARABAĞ ERMƏNİLƏRİNƏ SAXTA PASPORTLAR PAYLANIR

Separatçı bölgə sakinləri Rusiyanın rəsmi qurumlarından "Dağlıq Qarabağ dövləti" adına asanca kimlik sənədi - sürücülük vəsiqəsi və s. ala bilirlər; ilginc olayın şok təfərrüatları bu yazıda; Bakı Moskvaya nota təqdim edəcəkmi?..




yazısı səh.9-da

## Göyçayda tüğyan edən korrupsiyanın şok təfərrüatları

Nazirin əmisi oğlu olan icra başçısı artıq rüşvəti natura şəklində də yığmağa başlayıb; Mansur Məmmədov Hüngütlüdə özünə dəbdəbəli malikanəni hansı pullarla tikdirib?

yazısı səh.15-də



### Osman Kazımovdan Əlövsət Talışxanlıya sərt cavab

yazısı səh.13-də



### Şeyxə qarşı gizli hücum - Paşazadəni bitirmək istəyirlər

yazısı səh.8-də



### Obama 15 yaşlı azərbaycanlı ilə görüşəcək

yazısı səh.2-də



## Prezident Avropa Məhkəməsinin sədrini qəbul edib

**Azərbaycan prezidenti İlham Əliyev İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin sədri Din Şpilmanı qəbul edib. APA-nın xəbərinə görə, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin sədri Din Şpilman Bakıda keçirilən "İnsan hüquqları və əsas azadlıqları haqqında Avropa Konvensiyasının ölkədaxili tətbiqində milli hakimlərin rolu" mövzusunda beynəlxalq konfransın Avropa ölkələri hakimləri arasında dialoqun inkişaf etdirilməsi və Azərbaycanda məhkəmə sisteminin daha da təkmilləşdirilməsi baxımından önəmini qeyd edib. O, müxtəlif ölkələrdən olan xeyli sayda hakimlərin konfransda iştirak etdiyini vurğulayaraq, tədbirin Avropa səviyyəsində əhəmiyyətini diqqətə çatdırıb.**

Strasburqa son səfərini məmnunluqla xatırlayan dövlət başçısı ölkəmizin xüsusilə Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyi dövründə Avropanın müvafiq qurumları ilə fəal əməkdaşlıq etdiyini deyib və Azərbaycanda keçirilən mühüm beynəlxalq tədbirlərin əhəmiyyətini qeyd edib. Prezident İlham Əliyev bu baxımdan "İnsan hüquqları və əsas azadlıqları haqqında Avropa Konvensiyasının ölkədaxili tətbiqində milli hakimlərin rolu" mövzusunda beynəlxalq konfransın əlaqələrin genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə edib.

Görüşdə Azərbaycan ilə İnsan Hüquqları üzrə Avropa Məhkəməsi arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



## DİN-in Polis Akademiyasında beynəlxalq konfrans keçirilib

**Qloballaşma şəraitində cinayətkarlığın beynəlxalq və regional problemlərini müəyyən etmək, onların təhlilini aparmaqla profilaktikası istiqamətlərini araşdırmaq və beynəlxalq təcrübəni öyrənmək məqsədi ilə Daxili İşlər Nazirliyinin Polis Akademiyasında "Regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual problemləri" mövzusunda II beynəlxalq elmi-praktik konfrans keçirilib.**

Qonaqlar əvvəlcə Heydər Əliyevin Polis Akademiyasının həyətindəki abidəsini ziyarət edərək önünə əklil qoyublar.

Konfransda bir çox xarici ölkələrin və Azərbaycanın tanınmış hüquqşünas alimlərinin, təhsil müəssisələrinin və hüquq-mühafizə orqanları əməkdaşlarının məzmunlu araşdırmaları və təklifləri ilə zəngin olan çıxışları dinlənilib.

Beynəlxalq tədbirdə Rusiya, Türkiyə, Ukrayna, Belarus, Moldova və Tacikistan Daxili İşlər Nazirliklərinin, eləcə də aidiyyəti təhsil müəssisələrinin nümayəndələri də iştirak edib.

Konfransa həmçinin ölkəmizin hüquqşünas alimləri, Azərbaycan Milli Elmlər Akademiyasının, Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin, Ədliyyə, Gömrük, Dövlət İdarəçilik, Milli Aviasiya Akademiyalarının, Qafqaz Universitetinin, Baş Prokurorluğun və daxili işlər orqanlarının nümayəndələri də qatılıblar.

Beynəlxalq elmi-praktik konfransda DİN Polis Akademiyasının rəisi, polis general-mayoru, Nazim Əliyev bildirib ki, ictimai münasibətlərin qloballaşma şəraitində sürətli inkişafı cinayətlərin yeni növlərinin yaranmasına, cinayətkarlığın kəmiyyət və keyfiyyət göstəricilərinin daha dinamik dəyişkənliyinə təkan verir.

Bu səbəbdən mürəkkəb və ziddiyyətli məzmuna malik qloballaşma prosesi cinayətkarlığın sistemli və detallaşdırılmış təhlilini, profilaktik tədbirlərin strateji əsaslarının yaradılması istiqamətlərinin araşdırılmasını, cinayətkarlığın beynəlxalq və regional problemlərinin öyrənilməsini zəruri edir.

Daha sonra xarici ölkələri təmsil edən qonaqlarla Azərbaycanın hüquqşünas alimləri arasında fikir mübadiləsi və diskussiyalar aparılıb.

MÜSAVAT

## Leyla Yunusla İntiqam Əliyevin həbs müddəti 3 ay uzadıldı

**Oktyabrın 24-də Nəsimi rayon Məhkəməsində həbsdə olan Sülh və Demokratiya İnstitutunun direktoru Leyla Yunus və vəkil İntiqam Əliyev barəsində seçilmiş həbs qətimkan tədbirinin müddətinin uzadılması barədə istintaq orqanı tərəfindən verilmiş təqdimata baxılıb.**

Vəkil Cavad Cavadovun APA-ya verdiyi məlumata görə, hər iki şəxslə bağlı ayrı-ayrılıqda məhkəmə prosesi keçirilib və təqsirləndirilən şəxslərin barələrində seçilmiş həbs qətimkan tədbirinin müddəti 3 ay uzadılıb. Proses zamanı təqsirləndirilən şəxslərin vəkilləri onların ev dustaqlığına buraxılmaları barədə vəsatət veriblər. Lakin məhkəmə vəsatətləri təmin etməyib.

Vəkil Cavad Cavadov proses zamanı İ. Əliyevin səhhətinin pisləşdiyini və xüsusi maşınla İstintaq təcridxanasına aparıldığını da bildirib.

Qeyd edək ki, L. Yunus Cinayət Məcəlləsinin 274-cü, 178.3.2-ci, 192.2.2-ci (qanunsuz sahibkarlıq), 213.2.2-ci (vergidən yayınma, 320.1-ci (rəsmi sənədləri saxtalaşdırma) və 320.2-ci , İ. Əliyev isə Cinayət Məcəlləsinin 213.1-ci (vergidən yayınma), 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) və 192.2-ci (qanunsuz sahibkarlıq) maddələri ilə təqsirli bilinir.

## Ermənistanda Sərkisyana qarşı ardıcıl aksiyalar başladı

**Ermənistanın "üç" partiya"dan ibarət ana müxalifəti prezident Serj Sərkisyana qarşı İrəvanın mərkəzində hər həftə kütləvi etiraz aksiyası keçirmək qərarına gəlib.**

Musavat.com erməni elektron KİV-ə istinadən xəbər verir ki, artıq İrəvan meriyası müxalifətçi Erməni Milli Konqresinin icraçı katibi Samvel Abramyanın bu barədə xəbərdarlıq müraciətini qeydə alıb.

Növbəti mitinqlər oktyabrın 31, noyabrın 7-i və 14-də saat 16:00-dan 23:00-dək keçiriləcək. Xəbərdarlıqda yürüşlərin keçiriləcəyi də qeyd olunub.

# Bu gün Müsavatda seçkilərdir

### Partiyanın Məclisinə, MNTK-ya və Divana yeni üzvlər seçiləcək

**Bu gün saat 10:00-da Müsavat Məclisinin növbəti toplantısı başlayacaq. Toplantıda partiya Məclisinin boş qalmış yerlərinə, MNTK-ya, həmçinin partiyanın idarəedici orqanı olan Divanına seçkilər keçiriləcək.**

Məclisdə 32 yer boşdur. Həmin yerlərdən 26-na seçkilər keçiriləcək. 32 yer uğrunda 40 namizəd mübarizə aparır. MNTK-da isə 7 yer boşdur və 8 nəfərin namizədliyi qeydə alınıb.

15 nəfərdən ibarət olan Divanda 10 yerə seçkilər keçiriləcək. Bu yerlərə 12 nəfər iddiaçıdır. Partiyanın başqanı və Məclis sədri avtomatik Divan üzvü sayılır. Qalan 3 Divan üzvünün adına isə növbəti Məclisdə aydınlıq gələcək.

Bundan öncə Divan istisna olmaqla, Məclisə və MNTK-ya iki dəfə seçkilər keçirilib. Lakin heç birində tam heyəti formalaşdırmaq mümkün olmayıb. Oktyabrın 11-də keçirilən Məclisdə MNTK-ya ümumiyyətlə keçən olmayıb, Məclisə isə 6 nəfər seçilib.

❑ **Cavanşir ABBASLI**



## Müsavat rəhbərliyi İmişlidə yas məclisində iştirak edib

**Müsavatın İmişli rayon təşkilatının rəhbəri, sabiq millət vəkili İltizam Ələkbərlinin bacısı dünyasını dəyişib. Musavat.com xəbər verir ki, yas məclisində iştirak etmək üçün Müsavatın rəhbərliyindən İsa Qəmbər, Arif Hacılı, AXP lideri Pənah Hüseyn, sabiq millət vəkilləri Arzu Səmədbəyli, İkram İsrafil, "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu, Müsavat funksionerləri Gülağa Aslanlı, Elman Fəttah, AXP sədrinin müavini Qiyas Sadıxbəyli dünən bu rayona olublar.**

Allah rəhmət eləsin.

## Bakıda bir gündə üç nəfər intihar etdi



**Bakıda bir gündə üç intihar hadisəsi baş verib. Nizami rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisələrdən biri Məmmədhüseyn Şərifli küçəsi-62, mənzil-3 ünvanında qeydə alınıb. Bakı şəhər sakini, 1972-ci il təvəllüdlü Bulud Çingiz oğlu Kəlbiyev özünü asaraq intihar edib.**

İkinci intihar hadisəsi isə Zabrat qəsəbəsində qeydə alınıb.

Qəsəbə sakini, 1967-ci il təvəllüdlü Səlim Qədir oğlu Əkbərov yaşadığı evdə özünü asıb. Onun özünə qəsd etməsinin səbəbləri hələlik məlum deyil.

Üçüncü intihar hadisəsi Suraxanı rayon Yeni Günəşli qəsəbəsində baş verib.

Qəsəbə sakini, 1954-cü il təvəllüdlü Sevil Ələkbər qızı Babayeva özünü yaşadığı binanın 8-ci mərtəbəsindən, yataq otağının pəncərəsindən ataraq intihar edib.

Onun özünə qəsd etməsinin səbəbləri hələlik məlum deyil.

Hər üç faktla bağlı cinayət işi başlanıb, araşdırma aparılır.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05



## Obama 15 yaşlı azərbaycanlı ilə görüşəcək

**"Broadcom Masters" elm və mühəndislik müsabiqəsinin qaliblərindən olan Amerikada yaşayan 15 yaşlı azərbaycanlı məktəbli Məhəmməd Uğur prezident Obama ilə görüşəcək.**

Təhsil Nazirliyinin mətbuat xidmətindən "Qafqazinfo"ya daxil olan xəbərə görə, bu yaxınlarda müsabiqənin qalibi olmuş 30 məktəblinin adları açıqlanıb. Yarışmanın final mərhələsi oktyabrın 24-29-da Vaşinqtonda keçiriləcək. Qalibi 75 min ABŞ dolları həcmində mükafat gözləyir. Məktəblilər Ağ evdə ABŞ prezidenti Barak Obama ilə görüşəcək və öz işləri barədə təqdimat edəcəklər.

Məhəmməd Uğur Florida ştatının Melburn şəhərində IX sinifdə oxuyur. Onun atası Uğur Abdulla Florida Texnologiya Universitetində riyaziyyat kafedrasının müdiri, professordur. O, Bakı Dövlət Universitetinin məzunudur. Məhəmmədin biotibb mühəndisliyi, deterministik və statistik analiz nominasiyası üzrə müsabiqəyə təqdim olunmuş tədqiqat işi riyaziyyatın tibdə tətbiqi ilə bağlıdır. O, riyazi metodlardan istifadə etməklə ürək-damar xəstəliklərinin dəqiq diaqnozunu hazırlayıb. Məhəmməd təhsillə yanaşı idmanda da böyük uğurlar qazanıb. O, Amerika futbolu ilə də maraqlanır. "Broadcom Masters" Amerikada orta məktəb şagirdləri üçün ən nüfuzlu elm müsabiqəsi hesab olunur. Orta məktəb şagirdlərinin elm, texnologiya, mühəndislik və riyaziyyat sahəsində təqdim etdikləri novator tədqiqat işləri ən nüfuzlu alimlər tərəfindən qiymətləndirilir.

"Broadcom Fond"u tərəfindən maliyyələşdirilən müsabiqə 2010-cu ildən keçirilir. Orta məktəb şagirdlərinin elm və mühəndislik sahəsində qabiliyyətlərinin stimullaşdırılması üçün fond 6 milyon dollar vəsait ayırıb. Finalçılar (12 qız, 18 oğlan) ölkənin 13 ştatından olan 29 məktəbi təmsil edirlər. Onlar 300 yarımfinalçı arasından seçiliblər. Müsabiqədə ümumilikdə 2054 şagird iştirak edib.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33

YENİ MÜSAVAT
N 263 (5972) 25 oktyabr 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Yazarlardan ANS-ə cavab gəldi

**Bu günlərdə gənc yazarların ANS-in efirində "Toylara yox!" kampaniyası ilə bağlı müzakirələrə qatılması birmənalı qarşılanmadı. Müğənnilərlə bu mövzunu müzakirə edən, zaman-zaman aparıcının laqeyd münasibəti ilə üzləşən yazarları o verilişə qatıldıqları üçün qınayanlar oldu. Daha çox yayılmış fikir isə o idi ki, yazarlar ümumən müğənnilərlə o verilişə çıxmamalı, milli efirdə hegemon olan bayağılığın tələsinə düşməməli idilər.**

Bu məsələ ilə bağlı "Yeni Müsavat"ın köşə yazarı Zamin Hacı sosial şəbəkədəki statusunda belə yazıb: "Kimdir günahkar? Yazarlarla manısların davasına baxdım. Manıslar daha haqlı göründü mənə. Yazarlarımızda manıslaşma getdikcə manıslarımız yazarlaşır".

**Gənc yazar Kəramət Böyükçöl isə kult.az-dakı köşə yazısı sözügedən verilişə həsr edib və fikirlərini belə ümumiləşdirib:** "Bir sözlə, mənə elə gəlir ki, Şərif Ağayar həmin verilişə getməli deyildi, getmişdisə, danışmaq üçün o qədər canfəşanlıq göstərməli deyildi, əgər mikrofon sevgisini ürəyində boğa bilmirdisə, yenə deyirəm, mikrofonu da götürüb danışa-danışa verilişi tərk eləməliydi. O veriliş tərk olunmaqdan ötrü ölürdü".

Yazarlar isə bu mövzuda fərqli düşünürlər. Onların da müzakirələrdə tutduqları mövqe, söylədikləri fikirlərlə bağlı öz mövqeləri var.

**Bizimlə söhbətində Şərif Ağayar bildirdi ki, ümumən yazarlar müğənnilərə bizim eradan xeyli əvvəl uduzub.**



**Şərif Ağayar:** "Son qərarım belədir: getməməli idim!"

Bu veriliş də onun bir göstərişi idi: "Fikir verdinizsə, 3 qələm adamına bir mikrafona qarşılıq, hər manısa ayrıca mikrafon verilmişdi. Bu görüntünün mistik semiotikası var".

**Konkret sözügedən verilişə getməsi, bununla bağlı hər hansı peşmançılıq yaşayıb-yaşamaması ilə bağlı sual gəlincə, müsahibimiz bu sual üzərində çox düşündüyünü vurğuladı:** "Çox variantlarım oldu. Amma son qərarım belədir: getməməli idim! ANS-in azad yazarlara yumşaq desək yaxşı olmayan tavrı var.

Bu dünənin hadisəsi deyil. 15 ildən çoxdur ki, belədir. Mən bunu bildiyim halda, getdim. Səbəblərim vardı özümə görə. Amma nəticə göstərdi ki, səhv etmişəm".



**Mirmehdi Ağaoğlu:** "Aparıcı Kamran Həsənli müğənnilərin, şadlıq evlərinin tərəfini tutdu"

Müsahibimizin sözlərinə görə, məsələyə ümumi baxanda isə müzakirələrin cəmiyyətə faydaları olub: "Bir az silkələndilər.

**Başa düşməyənlər vəziyyəti başa düşdü. Ən azı uzun zaman efirdə o qədər boşboğazlar danışıb ki, camaatın marağı ölüb.**

Şou proqramlar tamaşaçını əldə saxlamaq üçün ədəbiyyat adamlarından istifadə edirlər. Etsinlər. Amma həm də onları aşağılayaraq yeni tendensiyaları inkar yolunu tuturlar. Yəni, bunlar mənasız adamlardı. Beş-üç özünü yazar hesab edən orta istedadlı insanlardı. Ciddi heç nə deyil! Yaşasın yalnız Mir Şahinin Milli metr verilişi üçün seçdiyi adamlar!"

**Verilişdə iştirak etmiş gənc yazar Mirmehdi Ağaoğlu isə bu məsələdə fərqli düşünür.** Onun fikrincə, Azərbaycan efir məkanında şou olmayan veriliş tapmaq çətindir: "Neyləyək ki, Opri Uinfri kimi verilişində kitabdan danışan, kitabı təbliğ edən aparıcımız yoxdur. Buna görə də təklifi dəyərləndirmək məcburiyyətində idik. Bundan başqa biz o verilişdə diqqəti sırf apardığımız kampaniyaya qarşı yönəltmək istəyirdik. Aparıcı Kamran Həsənli isə tərəfsizlik nümayiş etdirmək yerinə müğənnilərin, şadlıq evlərinin tərəfini tutdu. Çünki bizim ittihamlarımız çox sərt idi. Aparıcılıqdan başqa tamadalıqla da məşğul olan Kamran Həsənli efir qaydalarını kənara qoyub üstümüzə hücuma keçdi".

**M.Ağaoğlu hesab edir ki, bu prosesdə yazarlar uduzmayıb:** "Sözümüzü dedik. Verilişin lap əvvəlindən yazıçıya, söz adamına qarşı o cür arzuolunmaz şəkildə davranan aparıcıya nə deyəsən ki? Bu barədə qəti qərarım yoxdu. Mən efirdə daha çox ədəbiyyat verilişlərinin müzakirə olunmasının tərəfdarıyam. Yəqin ki, belə veriliş olsa gedərəm".

❑ **Sevinc TELMANQIZI**

# Kimsə jurnalistə "məndən yazma" göstərişi verirsə...

## Xalid Ağalıyev: "Peşəkar media nəyi yazmalı, nəyi yazmamalı olduğuna özü qərar verməlidir"



Xalid Ağalıyev

**Son iki gündə saytların, elektron KİV-lərin əsas mövzularından biri heç şübhəsiz ki, şou bizneslə bağlı oldu. Meyxanaçı Namiq Qaraçuxurlunun keçmiş həyat yoldaşının verdiyi müsahibə bir anda saytların baş xəbərinə çevrildi. Sonuncu meyxanaçıdan necə ayrılmasının səbəbini, buna səbəbkar olan şəxsin adını açıqladı, saytlar bunu "şok" başlığı ilə oxucuya təqdim etdilər. Az keçmədən N.Qaraçuxurlu da bu müsahibə ilə bağlı mövqeyini açıqladı. Amma bir qədər fərqli formada... Açıqlamaya diqqət edək: "Mən uşaq deyiləm, keçmiş keçmişdə qalıb. Mənim 36 yaşım var. Mənim həyatım özümü maraqlandırır. Mediada bu haqda gedən söz -söhbətlər ürək bulandırır, mənim sənətimə və adıma xələl gətirmək üçündür. Bu haqda artıq heç bir açıqlama vermək istəmirəm. Vaxtımı mənasız məlumatlarla sərf etmək fikrim yoxdu. Bu məsələ vardısa da mənimdi, yoxdusa da mənimdi. Mediadan da xahişim və istəyim odur ki, bu movzuya birdəfəlik son qoysunlar. Bu dəfə də xoşxasiyyətli şəkildə yola verirəm. Bir daha bu cür məlumatlar yayımlasalar, başqa lazımi qaydada tədbirini görəcəyəm".**

Açıqlamada diqqəti ən çox çəkən məqam heç şübhəsiz ki, sonuncu cümlələrdir. Yəni lazımi tədbirlərin görüləcəyi ilə bağlı xəbərdarlıq. Media bu günə qədər zaman-zaman belə xəbərdarlıq və hədələrlə qarşılaşıb. "Məndən yazmayın, şəklimi çəkməyin", "Şəxsi həyatımı müzakirəyə çıxarmayın"... tipli sərt bəyanatları daha çox şou-biznes nümayəndələri və siyasətçilər səsləndirir. Əslində media bu məsələdə necə davranmalıdır? "Məndən yazma" sözü jurnalist üçün qanundurmu? Bu cür bəyanatlar hansısa halda nəzərə alınmalıdı?

**Media Hüququ İnstitunun eksperti Xalid Ağalıyev** hesab edir ki, heç kimin mediaya "bunu yaz, bunu yazma" göstərişi vermək haqqı yoxdur: "Medianın görəvi toplumu ictimai önəmi olan olaylarla, rəylər, ideyalarla bağlı bilgiləndirməkdir. Bu baxımdan, peşəkar media nəyi yazmalı, nəyi yazmamalı olduğuna özü qərar verməlidir. Ancaq təbii ki, media mətbuat və ifadə azadlığının çərçivələrinin olduğunu heç zaman unutmamalı, şəxsi bilgilərin yayılması olayına hüququn işığında yanaşmalıdır. Hüquq belə durumlarda mediaya hansı yolları göstərir? Ümumilikdə, hüquqda şəxsi bilgilər 3 növdə təsnifləndirilir. Bunlar ümumi həyat sahəsinə, özəl həyata və gizli həyat sahəsinə aid bilgilərdir. Gizli həyat sahəsinə daxil olan bilgilər demək olar ki, tamamilə toxunulmazdır, bu bilgiləri adətən "yataq otağı bilgiləri" də adlandırırlar".

**X.Ağalıyev bildirdi ki, ümumi həyat sahəsinə aid bilgilər topluma açıq sayılan bilgilərdir. İctimai önəmi varsa media belə bilgilərin yayılmasına məhdudiyyət qoymur:** "İnsanların ailələri, dost-tanışları ilə bölüşdükləri, özəl əlaqələrinə aid bilgilər, kimlə nişanlanmaları, ailə qurmaları özəl həyat bilgiləri sayılır. Adi insanların bu növdən olan bilgiləri toplum üçün önəmli olmadığından medianın həmin bilgiləri yayması da doğru deyil. Ancaq tanınmış şəxslərin, ictimai fiqurların özəl bilgiləri açıqlana bilər. Bir nümunə ilə söyləyək: bir ictimai fiqur topluma ailə tövsiyələri verirsə, toplumu yönləndirmə imkanlarına sahibdirsə medianın həmin şəxsin özəl bilgilərini çək-çevir eləmə haqqı var".

❑ **Sevinc TELMANQIZI**

# Üç yetimin haqqını üç yüksək çinli məmur vermək istəmir

## Vəkil İradə Cavadova Kərəm Həsənovdan, Hacıbala Abutalıbovdan və Əli Hüseynovdan prezidentə şikayət edir

**Vəkil İradə Cavadova üç yüksək çinli məmurun özbaşınalığından prezidentə müraciət edib. Redaksiyamıza yolladığı müraciətində vəkil yazır: "Hüquqlarını təmsil etdiyim Rüxsarə, Ülviyyə və Yüksəl Babayeva bacıları ataları Rasim Babayevdən vərəsəlik qaydasında Nərimanov rayonu, Nəvai küçəsi 24 ünvanında, ("Gənclik" metrostansiyası ətrafı) toplam sahəsi 136,7 kv.m olan restoranın mülkiyyətçisi olublar. Nəvai küçəsi 24 ünvanında yerləşən bu restoran 2000-ci ildən icarəyə verilirdi və 3 uşağın yeganə dolanışıq mənbəyi idi. İndiyədək adı çəkilən şəxslər təhsil alma yaşında olduqlarına görə bir yerdə işləmir, qohumlarının köməyi ilə yaşayıblar. Valideynləri 2000-ci ildə avtomobil qəzasında faciəvi şəkildə həlak olub.**

Babayevlər ailəsinə məxsus həmin restoran prezidentin iqamətgahı tikilən zaman, 2009-cu ilin mayında tamamilə sökülüb. Lakin mülkiyyətçilər indiyə qədər başqa yerlə təmin olunmayıblar. Dövlət məmurları ilə 5 il davam edilən müzakirələr heç bir nəticə vermir.

Son bir il müddətində 2013-cü ilin noyabr ayından davam edən müzakirələrin nəticəsi olaraq Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən Babayevlər ailəsinə nəhayət ki, Bakı şəhəri, Xətai rayonu, Salmani küçəsi 7 ünvanda 400 kv.m torpaq sahəsində yerləşən 120.3 kv.m köhnə yararsız vəziyyətdə tikili təklif edilib. Həmin təklifi nümayəndə kimi qəbul etsəm də, Əmlak Komitəsi təklif olunan obyekti sənədləşdirmir. Komitədən bunu onunla əsaslandırır ki, həmin yer "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinə məxsusdur, lakin uzun müddətdir ki, istifadə olunmur. Dövlət məmurları məsələnin həllini



İradə Cavadova

bir-birlərinin üstünə atmaqla süründürməçiliyə yol verirlər və ölkə başçısını aldadırlar. Çünki həmin ərazinin köçürülməsi üçün və müvafiq tədbirlərin görülməsi (kompensasiyanın verilməsi və başqa yerlə təmin olunması üçün) məhz 2009-cu ildə göstəriş verilib".

**Vəkil yazır ki, Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov, Bakı İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov, Prezident Administrasiyasının məsul işçisi Əli Hüseynov bu məsələdən məlumatlı olmalarına baxmayaraq problemin həllini bir-birlərinin üstünə ötürməklə vətəndaşın hüquqlarını pozurlar:** "Prezidentin göstərişini yerinə yetirmirlər. Bundan əlavə, Prezident Administrasiyasından cənab Əli Hüseynov "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin keçmiş rəhbərini tanıdığını, ona bu haqda məlumat verərək razılığın alınmasını, lakin indiki rəhbəri tanımadığını, ona söz deyə bilmədiyini vurğulayaraq məsələni həll edə bilmədiyini deyir. Məsələnin tez bir zamanda həll edilməsi və müvafiq tədbirlərin görülməsi üçün prezidentə də məktub göndərilib. Amma görünür hansısa qüvvələr ya yazdığım məktubların hər hansı bir ünvana çatmasını əngəlləyir, ya da məmurlar vəzifələrini yerinə yetirmək istəmir. Odur ki, şikayətimi açıq şəkildə kütləvi informasiya vasitələrinin köməyi ilə dərc olunmasını xahiş edirəm".

**İ.Cavadova qeyd edir ki, məsələ ilə bağlı Əmlak Məsələləri Dövlət Komitəsinin məsul işçisi Yusif müəllimlə, Bakı İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovla, Prezident Administrasiyasının məsul işçisi Əli Hüseynovla şəxsi görüşləri olub. Məmurlar Babayevlər ailəsinə tez bir zamanda yerin verilməsi və sənədləşmənin aparılmasına vəd ediblər. Mart ayında baş tutan bu görüşlər zamanı verilən vədlərini məmurlar tutmayıblar. Vəkilə hər dəfə "sabah əlaqə saxlayın" vədi verərək məsələnin həllini uzadırlar.**

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 263 (5972) 25 oktyabr 2014

# Siyasi açılımlar üçün yaradılan təşkilatın üzvləri danışdı - məqsəd...



## İnsan Hüquqları Problemləri üzrə Birgə Qrupun təsisçiləri qəzetimizə müsahibə verdilər

**Oktyabrın 22-də Azərbaycanda İnsan Hüquqları Problemləri üzrə Birgə Qrup yaradılıb. Rəsmilərin açıqlamalarından belə aydın olur ki, bu 2005-2008-ci illərdə siyasi məhbusların azad edilməsi üçün fəaliyyət göstərn İşçi Qrupun missiyasının bir qədər genişləndirilmiş formatıdır. Bir sıra ekspertlər iddia edirlər ki, bu qurum Qərblə Azərbaycan iqtidarı arasında böyük və prinsipial anlaşmanın təzahürüdür və ölkədəki böyük açılımların startı məhz bu qurum vasitəsi ilə həyata keçiriləcək. Qurumun vətəndaş cəmiyyətindən üzvləri, hüquq müdafiəçiləri Novella Cəfəroğlu, Səidə Qocamanlı və Səadət Bənənyarlı "Yeni Müsavat"ın qonağı olaraq bərpa prosesi və görüləcək işlərlə bağlı suallarımızı cavablandırıblar.**

**- İşçi Qrupun yenidən bərpa edilləndə missiyası xeyli genişləndirilib. Sizcə, yeni format siyasi məhbus problemini bir qədər arxa plana keçirməyəcək ki?**

Novella Cəfəroğlu:

- Xeyr. Mənim fikrimcə, bu qrupun əsas işi Azərbaycanda siyasi motivlərlə tutulan insanların azadlığa çıxması olacaq. Çünki dünya birliyinin Azərbaycandan əsas tələbi məhz bu insanların cəzadan azad edilməsidir. Ancaq beynəlxalq qurumlar Azərbaycandan həm də insan haqlarının durumu ilə bağlı digər məsələlərin çözümünü də istəyir. Bu gün məhkəmələrdə, digər rəsmi qurumlarda haqqı pozulan minlərlə insanlar var. Bizə ən müxtəlif məsələlərlə bağlı müraciətlər olunur. Ona görə də biz bu işi paralel aparmağı düşünürük.

**- Yəni sizin üçün prioritet siyasi məhbuslar olacaq?**

Novella Cəfəroğlu:

- Birmənalı. Ancaq cəmiyyət onu da bilsin ki, biz Azərbaycanda haqqı pozulan hər bir insanın yanında olacağıq.

Səidə Qocamanlı:

- Məncə, qrupun adına aydınlıq gətirməyə ehtiyac var. Mediada yanlış olaraq İnsan Haqları üzrə İşçi Qrup yazılır. Qurumun adı İnsan Hüquqları Problemləri üzrə Birgə Qrupdur. Çox təəssüflər olsun, bu gün kimlərsə bu adı təhrif edərək fərqli şəkildə yorumlamağa çalışır. İnsanların fikrini yanlış istiqamətlərə yönəltmək kimə, nəyə lazımdır? Biz bu adla ona görə razılaşdıq ki, bu, bizə geniş fəaliyyət üçün imkanlar yaradacaq. Bu format bizə imkan verəcək ki, bu gün həbsdə olan insanlarla yanaşı azadlıqda olub haqqı tapdananları da müdafiə edək. İndiyə qədər bizə edilən müraciətlərlə bağlı biz rəsmi qurumlara çıxa bilmirdik, imkan yaratmırdılar, imkan yaradılanda da məsələlərin həlli çox uzun zaman alırdı. Bu qurum bizə müraciətləri rəsmi qaydada birbaşa çözümü asılı olan qurumların nümayəndələrinə təqdim etmək imkanı verir. Üstəlik bizim şikayətləri Prezident Administrasiyasına çıxarmaq imkanlarımız da yaranıb. Əlimizdə Azərbaycan məhkəmələrinin biabırçı qərarları ilə bağlı çoxlu sayda şikayət var, mülkiyyət hüququ pozulanların, rəsmi orqanlarda süründürməçiliklə üzləşənlərin şikayətləri var. Ümid edirik ki, biz mərhələ-mərhələ bu problemlərin çözümünə nail olacağıq.

**- Qurumda Avropa Şurasını Aleksandr Gessel təmsil edir. Onun missiyası nədən ibarət olacaq? Cənab Gessel sizinlə bərabər Avropa Şurasının azad edilməsini istədiyi məhbusların müdafiəçisi kimi çıxış edəcək, yoxsa, qurumdaxili dialoqu passiv müşahidə edəcək?**



**Novella Cəfəroğlu:** "Hətta "içəridə" 1 nəfər siyasi məhbus varsa, demək, o ölkədə siyasi məhbus problemi var və o çözülməlidir"

**Səidə Qocamanlı:** "Azərbaycanda insan haqları ilə bağlı problemlərə görə səmimi narahatlıq keçirənlər qurumun bərpasına ancaq sevinə bilər"

**Səadət Bənənyarlı:** "AŞ-nın bu məsələdə bir marağı var - Azərbaycanda insan haqları ilə bağlı problemlər çözülsün"

Səadət Bənənyarlı:

- Bu qrup vətəndaş cəmiyyəti ilə hökumət strukturları arasında dialoq üçün yaradılıb. Aleksandr Gessel bildiyiniz kimi, birbaşa AŞ baş katibi Torbörn Yaqlandın nümayəndəsidir. AŞ-nın bu məsələdə bir marağı var - Azərbaycanda insan haqları ilə bağlı problemlər çözülsün. Həm də söhbət yalnız siyasi məhbuslardan yox, geniş kontekstdə insan haqlarından gedir. Təbii, Aleksandr Gessel olsa, mütləq onunla məşğul olacaq. Qarşıdan seçkilər gəlir. Ola bilər, seçki prosesində hansısa hüquq pozuntuları olsun, ya media, söz azadlığı ilə bağlı hər hansı problem ortaya çıxsın. Biz ölkə gündəmini məşğul edən bütün hüquq pozuntularının həllinə çalışacağıq. Əsas olan odur ki, bu gün Azərbaycanda iqtidar və vətəndaş cəmiyyəti institutları üz-üzə oturub bu məsələni müzakirə etməyə başlayıb. Deməк, problemlərin çözümü qrupda öz təşkilatının maraqlarını müdafiə edəcək.

Novella Cəfəroğlu:

- Məncə, Aleksandr Gesselin əsas missiyası siyasi məhbusların azad edilməsi ilə bağlı olacaq. Çünki bu qrupun bərpasını vacib edən məsələ məhz siyasi məhbus problemidir. Bu həm bizim, həm də dövlət strukturlarının məsuliyyətini daha da artırır. Aleksandr Gessel AŞ baş katibinin birbaşa nümayəndəsidir. Biz illərdi Avropa Şurasında Azərbaycandakı siyasi məhbusların azad edilməsi tələbləri ilə çıxış edirik. Dəfələrlə cənab Yaqlandla bu haqda müzakirələrimiz olub. Çox yaxşı ki, Avropa Şurasının təşəbbüsü, Azərbaycan tərəfin isə dəstəyi ilə belə bir dialoq başlayıb. Həm Avropa Şurasının, həm də bizim əsas tələbimiz siyasi məhbusların azad edilməsi prosesinin tezləşməsidir.

Səidə Qocamanlı:

- Birgə Qrup ümumiyyətlə Azərbaycan gündəmində insan haqları ilə bağlı hansı problem üçün ilk addım atılıb. Azərbaycanda insan haqları ilə bağlı problemlərə görə səmimi narahatlıq keçirənlər qurumun bərpasına ancaq sevinə bilər.

**- Qurumda təmsil olunan vətəndaş cəmiyyəti institutları təmsilçilərinin siyasi məhbuslarla bağlı siyahıları fərqlidir. Bu məsələ necə tənzimlənəcək? Yeni ortaq siyahı yaradılacaq?**

Səidə Qocamanlı:

- Siyahı bizim ən ağrılı məqamımızdır. Mən bunu deməyə bilmərəm. 2001-ci ildə Azərbaycan Avropa Şurasına daxil olanda ölkədən quruma çoxlu sayda siyasi məhbus siyahıları göndərilirdi. Hüquq müdafiəçiləri arasında parçalanma indi baş verməyib. O zaman da ciddi fikir ayrılıqları var idi. Mən ad çəkmək istəmirəm, çünki həmin adam əziyyətli bir durumdadır. Allah qapısını açsın. Ancaq insan haqları ilə bağlı Azərbaycanın ortaq siyahısı həmin şəxsin güdazına getdi. O zaman 716 nəfərlik siyahı hazırlanmışdı. Avropa Şurasının Azərbaycandakı nümayəndəliyi siyahılar arasında çaş-baş qalmışdı. Ölkədəki bütün diplomatik korpusun iştirakı ilə bizi toplayıb rəyimizi soruşdular. Biz dedik ki, 716 nəfərlik siyahı ilə razıyıq. Yalnız həmin şəxs o siyahıya etiraz etdi. Həmin vaxtdan da Azərbaycanda siyasi məhbus problemi ilə bağlı alternativ siyahı problemləri başladı, indiyə kimi də davam edir. Bu gün Rəsul Cəfərovun hazırladığı siyahıda 98 nəfərin adı var. Həmin siyahı Leyla Yunusla da razılaşdırılıb. Son əfv fərmanı ilə 4 nəfər azad edilib, 1 nəfər şərti azadlığa buraxılıb. Bundan sonra siyahıya daha 2 nəfər əlavə olunub. Bu siyahını müdafiə edənlər deyir ki, müraciətlər çoxdur, müzakirələrdən sonra bu siyahı genişləndiriləcək. Bu insanlar bilmirlər ki, Avropa Şurasının siyasi məhbus hesab ediləcək şəxslərlə bağlı kriteriləri var? 2001-ci ildən biz bu kriterilərlə işləyirik. Bizim siyahımızda 37 nəfər var idi. Onlardan 28 nəfərin işi bütün məhkəmə instansiyalarını keçib. 28 nəfərdən 4-ü sonuncu əfv fərmanı ilə cəzadan azad edildi. Qaldı 24 məhbus və 11 istintaq altında olan şəxs.

**- İntiqam Əliyev, Rauf Mirqədirov, Leyla və Arif Yunuslar, Rəsul Cəfərov bu siyahıda varmı?**

- Novella Cəfəroğlu: Əlbəttə var. Bu 24 nəfər içərisində elə şəxslər var ki, Avropa Məhkəməsi onların cəzadan azad edilməsi haqqında qərar çıxarıb. Söhbət İlqar Məmmədovdan və Əli İnsanovdan gedir. Bəziləri artıq cəzalarının çox hissəsini çəkib, bir neçəsi ağır xəstədir, bir neçəsi əfv üçün müraciət edib. Çox güman, biz yaxın 2 gündə siyahını dəqiqləşdirəcəyik. Biz çalışırıq ki, içəridə siyasi motivlərlə həbs edilən heç kim qalmasın. Hətta "içəridə" 1 nəfər siyasi məhbus varsa, demək, o ölkədə siyasi məhbus problemi var və o, çözülməlidir.

**- Siyahılar uzlaşdırılan zaman kimlərin qalmasını israr edəcəksiniz?**

- Səadət Bənənyarlı: 24 nəfərin 24-nün də.

**- Qurumun yaradılması zamanı tərkibə etirazlar da oldu. Konkret sizinlə bağlı Avropa Şurasına müraciət edilib. Bunu kim təşkil etmişdi?**



- Novella Cəfəroğlu: Bizim bu prosesdən xəbərimiz var. Təşkilatçılar təbii, siyasi məhbus məsələsinə özlərinin xırda, maddi maraqları çərçivəsindən baxanlardır. Məhbusların içəridə kompüterdə sənəd tərtib etmək imkanları yoxdur. Onlara hazır yazılı sənədlər göndərilib və onlar öz imzalarını atıblar. Bircə Tofiq Yaqublunun ərizəsi əl yazısı ilədir. O indi içəridədir, biz onun tezliklə azad edilməsi üçün çalışırıq. İnşallah, o azadlığa çıxar, biz onun bu addımı kimin təkidi ilə atdığını öyrənərik. İnanıram ki, Yaqublular ağır günlərində bizim onlara görə kimlərin qapısını döydüyümüzü unutmayıblar. Bir də biz insanları şəxsi münasibətlərə görə müdafiə etmirik. Siyahımızda şəxsən tanımadığımız, ancaq haqqı tapdandığına əmin olduğumuz insanlar var. Biz ayrı-seçkilik salmırıq. Bu işin təşkilatçılarına demək istəyirəm ki, nə mən, nə Səidə xanım, nə də Səadət xanım siyasi məhbuslarla bağlı heç vaxt, heç yerdən 1 manat da olsa qrant almamışıq. Ancaq bu gün cəmiyyətdə bizim dustaqxanadan azad edilməsinə nail olduğumuz, haqqını bərpa elədiyimiz minlərlə insan var. Xədicə İsmayılın iddiaları sadəcə gülüncdür. Qurumda təmsil olunmur deyə, qara yaxmaqda davam edir. Belə çıxır, özü təmsil olunsaydı qurum haqqında müsbət danışacaqdı. O bizim üçümüzə etiraz edir. Ancaq onun namizədliyinə hökumət təmsilçiləri etiraz edəndə qurumdan 1 nəfər də onun müdafiəsinə qalxmadı. Nə Arzu Abdullayeva, nə Mirvari Qəhrəmanlı, nə də digərləri. Çünki onun nə üçün çalışdığını hər kəs bilir. Avropa Şurasının təmsilçisi onun davranışlarından təəssüfləndiyini dedi. Ümumiyyətlə Azərbaycanı sevməyən insan mənim üçün azərbaycanlı deyil. Bu gün Avropa Birliyinin Bakı nümayəndəliyində görüşdük. Orada qurumun təmsilçisi çox gözəl bir söz dedi. Dedi ki, hər kəs ölkəsi üçün can yandırmalıdır. Ancaq bu can yandırmaq daim ölkənə qara yaxmaq olmamalıdır, can yandırmaq problemlərin çözümünə çalışmaqdır ki, ölkə irəliləsin.

**- Quruma həmsədr seçilənlərin ikisi də hökumət tərəfdarıdır. Sizə həmsədrlik təklif edilsə də bundan imtina etmisiz? Səbəb nədir?**

Səadət Bənənyarlı:

- Həmsədrin heç bir üstünlüyü yoxdur. O, sadəcə toplantını aparır.

Novella Cəfəroğlu:

- Səadət xanım katibliyə seçilib. Onlar da texniki məsələlərin çözümü ilə məşğul olacaq. Bizim işimiz haqqı pozulan insanlarla bağlı bütün sənədləri toplamaq, sistemləşdirmək və hökumətə onların pozulan haqqının bərpası üçün müraciətlər etməkdir. Bununla da məşğul olacağıq.

- Qarşıda Konstitusiya Günü, Dünya Azərbaycanlılarının Həmrəylik Günü gəlir. Bu tarixlərdə əfv fərmanları olacağını gözləyirsinizmi?

Səidə Qocamanlı:

- Açığı, 12 noyabr Konstitusiya Gününə qısa zaman qaldığı üçün yeni fərman imzalanacağı inandırıcı görünmür. Ancaq 31 dekabrla bağlı ümidlərimiz böyükdür. Biz bu ilin sonuna qədər Azərbaycanda siyasi məhbus probleminin çözüləcəyinə çox ümid edirik. Çox istərdik ki, Avropa Şurasının 2015-ci ilin qış sessiyasında Azərbaycan bu problemi birdəfəlik çözdüyü üçün digər ölkələrə nümunə göstərilsin.

**Aygün MURADXANLI**
**Foto: "YM"**

**Oktyabrın 25-i saat 10-da Müsavat Partiyası Məclisinin toplantısı olacaq. Toplantıda Məclisə boş qalan yerlərə, MNTK-ya və Divana seçkilər keçiriləcək. Müsavat Partiyasında qurultaydan sonrakı dövr ərzində gedən proseslər Məclisin toplantısının maraqlı keçəcəyini söyləməyə əsas verir. Oktyabrın 23-də Müsavat başqanı Arif Hacılı ilə onun kabinetində görüşüb, qurultaydan sonra partiyada gedən proseslər, irəli sürülən iddia və ittihamlar, gözləntilər barədə suallarımızı ünvanladıq.**

# "İsa Qəmbər proseslərin içindədir, heç kəsin narahatçılığına əsas yoxdur"

## Arif Hacılı: "Bu proses yekunlaşanda qurultayın qərarlarını şübhə altına alanların sayı bir neçə nəfərlə məhdudlaşacaq"

*(Əvvəli ötən sayımızda)*

***- Qubad İbadoğlu demişdi ki, ona Məclis sədri seçilməyə razı olmağı təklif ediblər, lakin qəbul eləməyib. Qubad bəyə bu cür təklifi siz vermisiniz, yoxsa başqa şəxs tərəfindən təklif olub?***

- Təklikdə, partiyanın ayrı-ayrı rəhbər şəxslərinin arasında gedən müzakirələr haqqında mətbuata açıqlamaları vermək istəmirəm. Eyni zamanda partiyanın hər hansı bir üzvünə partiyada hər hansı bir mövqeni tutmanın təklif olunmasında bir qəbahət də görmürəm.

***- Qurultaydan bir aya yaxın vaxt keçib. Bu müddətdə hər kəs mövqeyini ortaya qoydu. Xüsusən keçmiş opponentləriniz mövqelərini sərgilədilər. Onların sırasında hansının mövqeyini, davranışını düzgün, konstruktiv davranış sayırsınız?***

- Müsavat Partiyası üzvlərinin 90 faizindən çoxu partiyadakı bu təftişçilik əhval-ruhiyyəsini pisləyir. Açığı, məndən də, partiyanın digər strukturlarından da bu məsələlərlə bağlı sərt tədbirlər həyata keçirməyi tələb edirlər. Ancaq düşünürəm ki, bu gün Müsavat Partiyasının qurultayının nəticələrini şübhə altına alan adamların bir çoxu yanlış məlumatlar əsasında belə mövqedədirlər. Ona görə də biz hər bir partiya üzvü ilə təmasda olaraq onlara qurultay, qurultaydan əvvəl gedən proseslər haqqında həqiqətləri çatdırmağa çalışırıq. Düşünürəm ki, bu proses yekunlaşanda partiyanın qurultayının qərarlarını şübhə altına alanların sayı bir neçə nəfərlə məhdudlaşacaq.

***- Rayon təşkilatları ilə əlaqələr nə yerdədir. Xüsusən də Tovuz rayon təşkilatında məlum istefa hadisəsindən sonra rayon təşkilatları ilə iş aparılırmı?***

- Bizim həmişə Müsavat Partiyasının yerli strukturları ilə sıx təmaslarımız olub. Bu təmaslar indi də davam edir. Qurultaydan sonra bəlkə bir qədər də intensivləşib. Partiya strukturlarında partiyanın ümumi ideoloji-siyasi xəttini dəstəkləyən təşkilatların sayı yüz faizə yaxındır.

***- Belə mənzərə yaranıb ki, qurultaydan əvvəlki bir-iki ayda və qurultaydan sonrakı dövrdə Müsavatın başı daxili məsələlərə qarışıb. Ona görə də Müsavat həmişə üzdüyü böyük siyasət okeanından sanki kənarda qalıb. Kapitan kimi Müsavat gəmisini yenidən siyasət okeanına döndərmək nə vaxt baş verəcək?***

- Mən Müsavat Partiyasında indi gedən prosesləri bəzi fəsadlar istisna olmaqla normal proseslər hesab edirəm. Çünki iyirmi ildən artıq Müsavata rəhbərlik etmiş şəxslər yeni şəxslərlə əvəz olunur, partiya başqanı da daxil olmaqla, təşkilatın rəhbərliyinə yeni adamlar gəlir, idarəçilik üsullarında yeni metodların tətbiq olunacağı gözlənilir. Partiyanın strukturlarında təmsil olunmuş bir çox şəxslər indi partiya strukturlarında təmsil olunmur. Belə bir prosesin, belə bir keçidin ağrısız ötüşəcəyini düşünmək sadəlövhlük olardı. Həm də Müsavat Partiyasının başqanı vəzifəsi Azərbaycan siyasətində çox mühüm vəzifələrdən biridir. Hesab edirəm ki, Azərbaycan Respublikasının prezidenti vəzifəsindən sonra ən yüksək siyasi vəzifədir. Təbii ki, belə olan halda bu məsələ nə iqtidarın, nə müxalifətdə olan opponentlərimizin, eyni zamanda Müsavat Partiyasının içində partiyanın gələcək inkişafını fərqli görən insanların narazılığı, təsirləri olmadan ötüşə bilməzdi. Oktyabr ayı Müsavat Partiyası üçün strukturların formalaşması ayıdır. Oktyabrın sonunadək biz strukturların formalaşmasını başa çatdıracağıq. Noyabr ayından sizin təbirinizcə desək, siyasət okeanına qayıdacağıq.

***- İsa Qəmbərlə qonşu kabinetlərdə əyləşirsiniz. Baş verənlərlə, iddialarla, yaranmış vəziyyətlə bağlı İsa Qəmbərlə müzakirələr, məsləhətləşmələr aparırsınızmı, İsa bəyin tövsiyələrini dinləyib nəzərə alırsınızmı?***

- Mən ümumiyyətlə, məsləhətləşməyə meylli adamam. Hətta 3-5 yaşlı cocuqlarla belə, hansısa məsələləri məsləhətləşməyi özümə rəva bilirəm. Müsavat Partiyasında, onun qərargahında fəaliyyət göstərən insanlarla daim təmasdayam və bütün məsələləri müzakirə edirik. Təbii ki, İsa Qəmbər kimi təcrübəli bir siyasətçi ilə də demək olar ki, hər gün bir neçə saat ərzində məsləhətləşmələr aparıram.

***- Müsavatdan kənarda olan bir sıra siyasətçilər, yazarlar tərəfindən çağırışlar oldu ki, İsa Qəmbər təcili prosesə müdaxilə etməlidir, yoxsa partiya dağıla bilər. Bu cür çağırışlara münasibətiniz necədir?***

- İsa Qəmbər proseslərdən heç vaxt kənarlaşmayıb, proseslərin içindədir. Heç kəsin narahatçılığına əsas yoxdur. Müsavat Partiyasının qurultayı öz iradəsi ilə məni başqan seçib və Müsavat Partiyasının başqanına aid olan bütün görəvləri layiqincə yerinə yetirəcəyəm. Yaxın aylarda həm Müsavat Partiyası üzvləri, həm də bütün Azərbaycan cəmiyyəti bunun şahidi olacaq.

***- Bir neçə gün öncə AXCP sədrinin müşaviri Şakir Abbasov partiyadan istefa verdi. Şakir Abbasov "Yeni Müsavat"a müsahibəsində Müsavat Partiyası və şəxsən sizin barənizdə xoş sözlər ifadə edib. Həmçinin deyib ki, Müsavat Partiyasından üzvlük üçün dəvət olsa, müsbət dəyərləndirəcək. Hətta deyilənlərə görə, Şakir bəyə Müsavatda vəzifə də veriləcək. Şakir Abbasovun Müsavata dəvəti və gəlişi gözlənilirmi?***

- Şakir Abbasovu 1989-cu ildən tanıyıram. Həm Xalq Cəbhəsində, həm döyüş bölgələrində, həm hakimiyyətdə olduğumuz dövrdə, hətta Bayıl həbsxanasında olduğumuz vaxt onunla təmaslarım olub. Müsavat Partiyası üzvləri ilə də Şakir bəy yaxın münasibətlərə malikdir. Onunla yaxın vaxtlarda görüşməmişəm. Mətbuat açıqlamaları ilə tanışam və bu məsələlər Müsavat Partiyasının müvafiq strukturlarında müzakirə olunur. AXCP-nin Müsavat Partiyasına münasibətindən asılı olmayaraq, o təşkilat daxilində gedən bəzi proseslər məni narahat edir və hesab edirəm ki, müxalifət partiyalarından biri olaraq, AXCP-yə dəyən zərbələr bütövlükdə həm həmin partiyaya, həm də demokratik düşərgənin aparıcı qüvvələrindən biri olan Müsavat Partiyasına dəyən zərbələrdir.

***- Dediniz ki, Müsavatda sturukturlaşma prosesi oktyabrın sonunda başa çatacaq. Bu proses başa çatdıqdan sonra müxalifət partiyaları ilə əməkdaşlıq məsələləri ilə bağlı nə düşünürsünüz, əməkdaşlıq, müttəfiqlik istiqamətində hansısa addımlar atılacaq?***

- Seçki kampaniyası dövründə verdiyim bütün vədlərə sadiqəm. Azərbaycan demokratik qüvvələrinin bir arada olmasının tərəfdarıyam. Bizim müttəfiqliklə bağlı təkliflərimizin qəbul edilməməsinə baxmayaraq, Müsavat Partiyasında strukturlaşma prosesi başa çatdıqdan sonra Azərbaycan müxalifət qüvvələrinin birgə fəaliyyətinə nail olmaq üçün növbəti bir cəhd etmək niyyətindəyəm.

***- Siz başqan seçiləndən sonra neçə illər idi Müsavatla münasibətlərində soyuqluq hökm sürən Ümid Partiyasının Müsavatla bağlı mövqeyində bir istiləşmə hiss olunur. Partiyanın sədri sizə dərhal təbrik ünvanladı. Ümid Partiyası ilə də münasibətlər qurulacaqmı?***

- Hələ Müsavat Partiyasının qurultayından əvvəl Azərbaycanda siyasi məhbuslar və demokratiya mövzusunda bir dəyirmi masa yaradılıb, orada siyasi partiyalar iştirak edir. Orada KXCP, Ümid, Xalq və digər partiyalarla yanaşı Müsavat Partiyası da funksional əməkdaşlıq şəraitində fəaliyyət göstərir. Hazırda Müsavat Partiyasının Ümid və ya hər hansı digər partiya ilə müttəfiqlik münasibətlərinin qurulması barədə məsələ müzakirə olunmur.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

**"Müsavat Partiyasında strukturlaşma prosesi başa çatdıqdan sonra Azərbaycan müxalifət qüvvələrinin birgə fəaliyyətinə nail olmaq üçün növbəti bir cəhd etmək niyyətindəyəm"**



**"20 ildən artıq Müsavata rəhbərlik etmiş şəxslər yeni şəxslərlə əvəz olunur, partiya başqanı da daxil olmaqla, partiya rəhbərliyinə yeni adamlar gəlir, idarəçilik üsullarında yeni metodların tətbiq olunacağı gözlənilir"**

**"AXCP-nin Müsavat Partiyasına münasibətindən asılı olmayaraq, o təşkilat daxilində gedən bəzi proseslər məni narahat edir və hesab edirəm ki, müxalifət partiyalarından biri olaraq, AXCP-yə dəyən zərbələr bütövlükdə həm həmin partiyaya, həm də demokratik düşərgənin aparıcı qüvvələrindən biri olan Müsavat Partiyasına dəyən zərbələrdir"**

YENİ MÜSAVAT
N 263 (5972) 25 oktyabr 2014

**Putinin böyük Avrasiya imperiyasını yaratmaq və Rusiyanı qlobal təsirli həlledici faktora çevirmək kimi iddialı planları, belə görünür, uğursuzluğa düçar olacaq. Ayrı cür ola da bilməz, çünki zaman başqa, dünya başqa, Rusiya özü də başqadır. Ona görə ki, belə arxaik imperiya planları və bu planları pirat üsullarla həyata keçirmək müasir dünyanın ruhu, reallıqları və tələbləri ilə daban-dabana ziddiyyətdədir. Putin Çar və ya Sovet imperiyasını yeni formatda bərpa eləmək kimi özünün sayıqlama-ideyası ilə böyük “islam xilafəti” yaratmaq kimi irreal ideya ilə yaşayan İŞİD liderlərini xatırladır. Hər iki olay bu gün anaxronizm kimi fiaskoya məhkum olsa da, sivil bəşəriyyət üçün ciddi problemə çevrilib.**



**Zəfər QULİYEV, politoloq**

# Putin ən azı 50 il gecikib

## Kremlin indiki başçısı bir vaxt heydən düşmüş Xruşşovun yerində olsaydı, Allah bilir, dünyanın hazırkı düzəni və sonrakı taleyi necə olardı...






***

“Rus torpaqlarının toplanması” və Avrasiya imperiyasının qurulmasına Putin Ukraynadan başlamaq qərarına gəldi, çünki bu ölkə olmadan Moskvanın “velikoderjav” planları ciddi perspektivə malik ola bilməzdi. Ancaq Krımın ilhaqına və Ukraynanın cənub-şərqində separatçı yanğına rəğmən, Kremlin “hərbi-siyasi avantürası” cızdığı hədəfə çatmadı. Kiyevin üzünü Avrasiya Bitliyinə döndərmək Moskvaya müyəssər olmadı və artıq çətin ki, müyəssər olsun.

Üstəlik, Ukraynada özünün ekspansionist hərəkətləri ilə Moskva Avrasiya inteqrasiya layihələrinin cəlbediciliyini heçə endirib, dünyanı və postsovet ölkələrini əməllicə qorxutdu. İndi hətta Moskvanın müttəfiqləri Belarus və Qazaxıstan da həmin Avrasiya Birliyində özlərinin iştirakı ilə bağlı perspektiv barədə xeyli dərəcədə şübhə və ehtiyatla danışır, altdan-altdan geri çəkilmək yolları arayırlar.

Azərbaycana gəlincə, nə siyasi, nə də iqtisadi nöqteyi-nəzərdən o, qətiyyən Avrasiya Birliyinə üzvlükdə maraqlı deyil. Moskvanın israrlı təzyiqi və guya işğal altındakı 7 rayonun qaytarılacağı haqda vədləri Bakını sadəcə olaraq, imkanların zondajı və vaxt udmaq üçün ehtiyatlı danışıqlara, yayğın cavablara sövq edir. Ancaq strateji perspektivdə Kremlin heç bir aldadıcı vədi Azərbaycanı hər hansı ciddi formalaşma və inkişaf perspektivi olmayan Rusiya imperiyasının ağuşuna qayıtmağa yönəlik yanlış addıma məcbur edə bilməz, etməməlidir.

İş ondadır ki, Rusiyaya həmişə gücünün yetmədiyi dünya hökmranlığı ideyası hakim olub. Konstantinopolu (indiki İstanbul -red.) “qaytarmaq” və “Üçüncü Roma” statusuna əbədi iddialar, Dublindən başlayıb Vladivostokda bitən böyük Avrasiya imperiyası kimi cürbəcür layihələr, ümumdünya “qırmızı inqilablar”ın təşkilinə yönəlik israrlı və əbəs cəhdlər, “Amerikaya çatmaq və onu keçmək” kimi daimi və elə də əsaslandırılmayan çağırışlar - bütün bunlar çoxdan Rusiya siyasi mental şüurunun toxumasına hörülüb və vaxtaşırı Kreml liderlərini yeni imperiya avantüralarına ilhamlandırır.

Etiraf eləmək lazımdır ki, ötən əsrlərdə - nə vaxt ki, ölkələrin liderlik ambisiyaları bir elə intellektual, texnoloji, maliyyə və iqtisadi arqumentlərə yox, kobud hərbi gücdən qaynaqlanırdı - Rusiya bir sıra müharibələr və yürüşlər hesabına öz ərazisini qurunun 1/6-nədək böyüdə bildi. O zaman onun potensialı uğurlu işğalçılıq baxımından əlverişli idi də.

***

Ancaq Putin indi ən azı 50 il gecikib. Bəlkə də ötən əsrin 60-cı illərinin əvvəli və ya ortalarında heydən düşmüş Xruşşovun yerində olaydı, Allah bilir dünyanın sonrakı xəritəsi və bütün sonrakı taleyi necə olardı. Bəli, 20-ci əsrin 60-cı illəri onun üçün yeni Stalin rolunda, dünyada SSRİ-nin hegemonluğunu davam etdirmək kursunun enerjili və sadiq davamçısı rolunda özünütəsdiq üçün parlaq bir zaman, epoxa olardı. Bundan ötrü o zaman bütün obyektiv və subyektiv şərtlər var idi. Sadəcə, Putin kimi birisi çatmırdı...

O illər SRRİ özünün pik inkişaf dövrünü yaşayırdı. İkinci Dünya savaşından qalib çıxan və qısa müddətdə bərpa olan bu “Stalin superdövləti” öz ərazisini genişləndirmiş və öz ətrafında bütöv bir sosialist düşərgəsi yaratmış, nüvə və kosmos dövlətinə çevrilmişdi, dünyanın bütün guşələrinə öz ideologiyasını aktiv şəkildə yaymaqda idi. Sovet İttifaqına cahanda hörmət və qorxu ilə yanaşırdılar - SSRİ həm heyran edirdi, həm də qorxurdu.

O vaxt ABŞ və SSRİ-dən savayı dünya liderliyinə başqa namizədlər yox idi. Çin əsəsən aqrar ölkə idi və təzə-təzə atom silahının yaradılmasını mənimsəyirdi. Üstəlik, Xruşşovun Stalin şəxsiyyətinə pərəstişi ifşa etməsinədək Pekin Sovet İttifaqının sadiq müttəfiqi kimi qalırdı və bütövlükdə Moskvanın iradəsinə itaət göstərirdi.

**“Putin Çar və ya Sovet imperiyasını yeni formatda bərpa eləmək kimi özünün sayıqlama-ideyası ilə böyük ”islam xilafəti" yaratmaq kimi irreal ideya ilə yaşayan İŞİD liderlərini xatırladır..."**



Olaydı o zaman hakimiyyətdə Putin, əlbəttə ki, Stalin şəxsiyyətinə pərəstişin heç bir ifşası baş verməzdi, əksinə, Stalin kursunu o, yeni energetika ilə zənginləşdirərdi, Çinlə də münasibətlər pozulmazdı. Üstəgəl, Kreml dost Çinin köməyi ilə Uzaq Şərqdə geosiyasi və hətta hərbi müdaxiləni genişləndirərdi.

Digər mühüm oyunçu, müasir anlamda nüfuzlu faktor olan Avropa Birliyi isə o halda heç yerli-dibli olmaya bilərdi. Avropa o zaman dağıdıcı müharibədən sonra təzə-təzə özünə gəlirdi və üstəlik, o, olduqca dağınıq idi - Şərqi (sosialist) və Qərbi Avropa, həmçinin, neytral ölkələr qrupuna bölünmüşdü.

Bir sözlə, Putin üçün, onun Dublindən Vladivostokadək vahid və Moskvanın tabeçiliyində olacaq Avrasiya yaradılmasına yönəlik təmtəraqlı ideyası üçün öz niyyətini sınaqdan çıxarmaq baxımından tam bir zəmin mövcud idi. O vaxt ona bu səylərində Karib böhranı ilə qorxudulan və Vyetnam müharibəsinə cəlb olunan ABŞ çətin ki, mane ola biləydi.

Bundan əlavə, həmin dövrdə Putin Rusiya imperiyasının başında dursaydı, öz hədəflərinə çatmaq yolunda qara işlərin çoxundan azad olardı. Belə ki, Kiyevi, Bakını, Tiflisi və s. ümumi işdə iştiraka məcbur və sövq eləmək lazım olmazdı - onlar onsuz da Moskvanın əlinin altında idilər. Krımı zəbt etməyə və ya Dağlıq Qarabağda, Dnestryanı bölgədə, Abxaziya və Cənubi Osetiyada separatçı oyunlar təşkil eləməyə vaxt və güc sərfinə də gərək qalmazdı - çünki bütün bu ərazilər vahid və Moskvadan idarə olunan coğrafiyanın tərkib hissələri olacaqdı. Həmçinin, sanksiyalara görə əsəbiləşməyə və Qərbi onların tətbiqindən imtinaya təşviq etməyə də lüzum qalmazdı.

***

“Dəmir pərdə” ilə qorunan SSRİ xeyli dərəcədə muxtar və müstəqil xüsusi dünya idi. O, özü özü üçün yaşayırdı və faktiki surətdə kənardan hər hansı sanksiyaya iradəvi deyildi. Neft, qaz, silah və ideologiya ticarəti həmin dövrdə stabil inkişaf və başqa ərazilərə ekspansiyanı genişləndirməkdən ötrü Moskva üçün möhkəm baza rolu oynayırdı.

O illər bir qədər sonra SSRİ-nin çöküşünə gətirmiş enerjidaşıyıcılarının qiymətləri ilə qlobal manipulyasiya kimi effektli alət böyük siyasətdə hələ tətbiq olunmurdu və Xəzər və Sibirin nəhəng enerji resurslarına malik Moskvanın özü bu alətdən bir çox ölkələrə qarşı yararlanırdı.

***

Bəli, həmin dönəmdə sovet “qırmızı imperiyası” və “qırmızı ideologiyası”nın imici dünyada hələ Stalin repressiyalarının miqyası haqda ifşaedici faktlarla qəti şəkildə korlanmamışdı. Moskvanın ərəb dünyasında (Nacep və s.), Afrikada, Latın Amerikasında, Yaxın və Uzaq Şərqdə hələ çoxlu dost-müttəfiqi var idi. Bir sıra inkişaf etməkdə olan ölkələrdə, hətta Avropanın özündə abh-havanı solçu qüvvələr müəyyən edirdi. Bax, Rusiyanın velikoderjav imperiya ambisiyaları üçün Putin tipli yeni bir Stalin məhz onda gərək idi.

**Bu gün isə belə bir “marka” artıq işləmir: zira, zaman və dünya kəskin şəkildə dəyişib. Rusiyanın özü də daha həmənki deyil, bütünlüklə xarici dünyadan asılıdır və sanksiyalara qarşı olduqca həssasdır. Bu gün Putin özünün neoimperiya kursu ilə - bir anaxronizmdir və uğurlu perspektivdən məhrumdur. Əgər Rusiyanın imperiya tarixinə ikinci dəfə təkrarlanmaq qisməti varsa, onda bu, əzəmətli faciə yox, artıq fars, komediya şəklində olacaq.**

YENİ MÜSAVAT
N 263 (5972) 25 oktyabr 2014

# "Siyasətə müharibə kimi baxmaq qeyri-peşəkarlıq və savadsızlıqdır"

## Ramin Hacılı: "Demokratik prinsipləri özümüzə çətir seçmişik, bu çətirin altında insanlıq meyarını qəbul edən bütün ideoloji daşıyıcıları ola bilər"

**Ümid Partiyası sədrinin Beynəlxalq əlaqələr və strateji məsələlər üzrə sədr müavini, Avropa Azərbaycan Hərəkatının prezidenti Ramin Hacılı suallarımızı cavablandırıb. R.Hacılı ilə söhbətimizi oxuculara təqdim edirik.**

***- Demokratik İslahatlar Partiyasından Ümid Partiyasına gəldiniz. Ümid Partiyasında sizi nə cəlb etdi ki, bir müddətlik müstəqil fəaliyyətdən sonra orda təmsil olunmaq qərarını verdiniz?***

- Azərbaycan vətəndaşları və media quruluşları ilə münasibətlərdə, müzakirələrdə həmişə səmimi olmaq vacibdir. Çünki insanın gələcək planları, iddiası varsa, yalan danışmaq haqqı yoxdur. Buna görə də hər şeyi olduğu kimi deyəcəyəm. Demokratik İslahatlar Partiyasındakı yeddi illik fəaliyyətim zamanı çox böyük uğurlar qazandım. Buna səbəb partiyanın sədri Asim Mollazadə ilə aramızda olan yaxşı və doğma münasibətlər olub. Lakin sonradan ölkəmizdə baş verən proseslər onu göstərdi ki, həm ictimai, həm də siyasi fəaliyyətlə məşğul olmaq çətindir. Belə qərara gəldim ki, müstəqil fəaliyyət göstərim. Bu baxımdan Azərbaycan Avropa Hərəkatının prezidenti kimi ictimai fəaliyyətlə özümü ifadə etməyə çalışdım. Biz bunu Asim Mollazadə ilə müzakirə də etdik. O, qərarıma hörmətlə yanaşdı. Mən on ay müstəqil fəaliyyət göstərdim. Bu bir sınaq oldu və aydınlaşdırdım ki, Azərbaycandakı mövcud vəziyyətdə hər hansı siyasi institutsuz aktiv fəaliyyət göstərmək mümkünsüzdür. Hər bir mövqe nümayiş etdirən şəxs tək ictimai yox, həm də siyasi və digər mövzulara toxunmaq azadlığını özündə saxlamaq istəyir. Mən də öz bilik və bacarıqlarımdan çıxış edərək ölkəmin həyatında, həm iqtisadi, həm siyasi, həm mədəni, həm də ictimai mövzularda fikirlərimi açıqlamaqdan heç zaman çəkinməmişəm. Eyni zamanda gənc yaşlarımdan marağım və sonradan aldığım təhsil siyasi sahə üzrə olduğu üçün cəmiyyətimiz üçün bu sahədə daha çox faydalı ola biləcəyimi düşünürəm.

Ona görə də hər hansı bir siyasi partiya seçmək - imkanlarımı başqaları ilə birləşdirmək qərarına gəldim. Həmişə Azərbaycanda yeniliklərə can atan, cəmiyyətdə barış mövqeyi nümayiş etdirib dəyişikliklərə islahatlar yolu ilə nail olmaq istəyən Ümid Partiyasını seçmək qərarını verdim. Partiyanın sədri, hörmətli İqbal Ağazadə ilə bu istiqamətdə müzakirələrimiz oldu. Nəticədə mən Ümid Partiyası sədrinin Beynəlxalq əlaqələr və strateji məsələlər üzrə müavini oldum.

***- Partiyaya hansı yeniliklər gətirmisiniz və bundan sonra hansı addımlar atacaqsınız?***

- Ümid Partiyasına gəldiyim dörd ay ərzində fəaliyyət istiqamətimizdə planlar hazırlamışıq. Azərbaycanda fəaliyyət göstərən beynəlxalq təşkilatlar, demokratik dəyərləri, vətəndaş cəmiyyətini, siyasi partiyaların inkişafını dəstəkləyən səfirliklərlə əlaqələri sıxlaşdırmaq və gücləndirməyi planlaşdırırıq. Bu istiqamətdə görüşlər planı tərtib etmişik. Ümid Partiyası ilə xarici ölkələrdə fəaliyyət göstərən partiyalar arasında əməkdaşlığı genişləndirməkdəyik.

***- Konkret olaraq adlar deyə bilərsinizmi?***

- Əsasən Qərb ölkələrindəki partiyalarla ikitərəfli əlaqələri gücləndiririk. Bu istiqamətdə



ABŞ konqresmenləri və senatorları ilə danışıqlar gedir. Avropa Xalq Partiyası və digər Avropa dövlətlərində fəaliyyət göstərən partiyalarla ikitərəfli sazişlər imzalanması üçün işlər aparırıq. O cümlədən Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası, CHP və MHP ilə əlaqələrimizin gücləndirilməsi və bundan sonrakı birgə fəaliyyətlərlə bağlı müzakirələrə başlamışıq. Çoxtərəfli və ikitərəfli əməkdaşlıqlar istiqamətində hazırladığımız təkliflər sentyabr ayından reallaşamağa başlayıb.

***- Ümid Partiyası ideologiyasız bir siyasi qurumdur. Siz isə siyasi sistemlər və ideologiyalar nəzəriyyəsi üzrə mütəxəssis hesab olunursunuz. Ümid Partiyasına hansı ideoloji çalarlar qatmaq istəyirsiniz?***

- Bəli, Ümid Partiyası klassik ideologiyalardan imtina edib. Bunu belə desək daha doğru olar. Bu tendensiya Qərbdə illər əvvəldən başlayıb. Hər kəs anlayır ki, istənilən qurumun özünə xas baxışı, ideyası, konsepsiyası olmalıdır. Qərbdə hər bir siyasi qurum bu əsasla özünə ideologiya seçirdi. İdeologiya insanları bir dəyərlər sistemi ətrafında toplamaq üçün labüddür. Lakin dünya muharibələri onu göstərdi ki, sırf ideoloji əsasla yanaşma, digərlərini inkarla nəticələnir ki, bu da müharibələrə, düşmənçiliklərə səbəb olur. Ona görə sivil ölkələrdə də demək olar bütün partiyalar klassik ideologiyalardan imtina edirlər. Avropa partiyaları demokratik dəyərləri əsas alıb, klassik ideolojini iqtisadi, mədəni, sosial konsepsiya kimi qəbul edirlər. Siyasi olaraq əsas tezis - demokratik idarəçiliyin diktə etdiyi dəyərlər - dözümlülük, ədalətli seçkilər, hüququn aliliyi, müasir demokratiyanın gətirdiyi azlığı belə qorumaq məqsədi güdən vətəndaş cəmiyyəti anlayışı, söz azadlığı və s. bu kimi prinsiplər əsas alınmağa başlandı.

Buna bənzər bir misalı okeanın o tərəfindən də çəkmək istərdim, liberalizmin beşiyi sayılan ABŞ-da liberal dəyərləri müdafiə edən Demokrat Partiyası hakimiyyətdədir. Onların nümayəndəsi prezident Barak Obamanın irəli sürdüyü tezislər daha çox sosial səpkidədir. Bu onu göstərir ki, demokratik seçimdə ABŞ-da vətəndaşların sosial istəklərini qabardıb və nəticədə partiyalar ideolojisində buna uyğunlaşmaya gedir.

Ümid Partiyası çalışır ki, Avropada uzun zaman kəsiyində keçilən yoldan hasil olan nəticəni, qazanılan dəyərləri, qısa bir zamanda Azərbaycana daşısın. İnanıram ki, bu istiqamətdə cəhdlər öz bəhrəsini verəcək. Bizim ideoloji olaraq qorumaq istədiyimiz ənənələr var. Bura demokratiya, dövlətçilik, insanlar arasındakı qarşılıqlı hörmət ənənələri daxildir. Biz müasir anlamda bütün dəyərləri, ideologiyaları bəşəriyyətin çatmış olduğu ən böyük dəyərlər əsasında tətbiq etməyin tərəfdarıyıq. Demokratik prinsipləri özümüzə çətir seçmişik, bu çətirin altında insanlıq meyarını qəbul edən bütün ideoloji daşıyıcıları ola bilər. Bu çağdaş yanaşmadır. Çox təəssüf ki, klassik ideologiyalarda ilişib qalmış insanlar bunu anlamaqda çətinlik çəkir. Ona görə də bu istiqamətdə maarifləndirici tədbirlər və seminarlar həyata keçirməyi planlaşdırırıq.

***- Bəzən Ümid Partiyası sədrinin və sizin hakimiyyətlə isti münasibətlərinizin olması haqqında ittihamlar səsləndirilir. Bu haqda nə deyə bilərsiniz?***

- Mən peşəkarlığın tərəfdarıyam və siyasətə bir elm kimi yanaşıram. Siyasət müharibə meydanı deyil. Siyasətə müharibə kimi baxmaq qeyri-peşəkarlıq və savadsızlıqdır. Hər bir partiyanın məqsədi hakimiyyətə gəlməkdir. Ancaq partiya mövcud hakimiyyətlə müharibə etməməlidir. Partiyalar insanların üzərinə qartal kimi şığıyıb onlardan qəhrəmanlıq tələb etməməli, digərlərini ittiham etməməlidir. Dünyada artıq "rəqibdən partnyora" prinsipi qabaqcıldı. Qərbin hər addımda, hər bəyanatda nümayiş etdirmək istədiyi dialoq tərəfdarı olmasıdır. Çox təəssüf ki, Avropa bayraqlarını başları üzərinə qaldıranlar ümumi prinsiplərdən hali deyil. Bu səbəbdən tez-tez klassik ideoloji ilə üğur qazanmaları üçün Qərbdən dəstək istəyib yox cavabı alırlar. Anlamaq vacibdir ki, siyasi partiyalar insanların qəlbini, dəstəyini almaq və vətəndaşların güvəni ilə hakimiyyəti formalaşdırıb vətənə xidmət etmək missiyasını daşımalıdır. Bunun üçün açılım, barış, hətta düşmənlə belə dialoqa hazır olacaq qədər sivil olmaq əsas şərtdir. Biz partiya olaraq bu xəttin tərəfdarıyıq. Partiyamızın sədri hər kəslə isti münasibətə can atır, müxalifətlə də, iqtidarla da. Bu prinsiplərin, bəşəri dəyərlərin, xoş görünün, dözümlülüyün göstəricisidir.

Çox təəssüf edirəm ki, Azərbaycanda bəzi müxalifət partiyaları və onun təbliğatının qurbanına çevrilmiş insanlar üçün siyasət xalq hərəkatı psixologiyasından kənara çıxa bilmir. 1988-92-ci illərin Xalq hərəkatı hakimiyyət uğurunda mübarizə siyasətindən daha çox bir xalqın azadlığ naminə ayağa qalxıb öz müstəqil dövlətində yaşamaq arzusu idi.

***- Dediyiniz peşəkar siyasət kontekstində 2015-ci il parlament seçkisində deputatlığa namizədliyinizi verməyi düşünürsünüzmü?***

- Bəli, hazırda bələdiyyə seçkiləri ilə bağlı intensiv hazırlıqlarımız davam edir. İstəyimiz odur ki, partiya kimi bu seçkilərə qatılaq və uğur qazanaq. Bizim seçkidə partiya kimi iştirakımız özü belə Azərbaycan üçün böyük uğurdur. O mənada ki, ölkəmizdə seçki mühitinin yaşaması, vətəndaşların mövcud, seçkisiz dəyişim yoluna - terror təşkilatları kimi davranışlara deyil, sivil seçki yolu ilə özünü ifadənin mümükünlüyünə inamı həmin ölkənin sabitlik qarantıdır. Seçki kimi sivil ənənənin və vərdişlərin yaşaması, insanlara öz hüquqlarından istifadə haqqının verilməsi cəmiyyətdəki radikalizmi azaldan əsas amildir.

Bütün bu qeyd etdiklərim bizim partiya kimi vətənimizə, dövlətimizə xidmətin formulasıdır. Nəinki bələdiyyə, parlament, hətta bütün seçki və referendumlarda iştirak bizim üçün prinsip məsələsidir. İştrakçılıq demokratiyanın əsas qayələrindəndir. O cümlədən vətəndaşların haqqının verilməsi üçün mühitin yaradılması prosesi siyasi institutların, aydınların, vətəndaş cəmiyyətinin əsas hədəflərindən olmalıdır. Sabitlik və sivil cəmiyyət arzusunda olan dövlətimiz gərək vətəndaşların institutlaşmasına, dinc vasitələrlə dövlət quruculuğu prosesində maraqlı olsun.

## Ümid Partiyası bələdiyyə seçkilərində iştiraka qərar verdi

**Oktyabrın 24-də Ümid Partiyası bələdiyyə seçkilərində iştirakla bağlı qərar qəbul etdi. Oktyabrın 25-də Partiyanın mərkəzi strukturları seçkidə iştirakla bağlı sənədləri MSK-ya təqdim edəcək**

ÜMİD PARTİYASI
UMİD PARTY

Partiyanın hədəfi seçkidə minimum 900 bələdiyyə subyekt üzrə namizədlərlə iştirak etmək və Seçki Məcəlləsinə uyğun olaraq pulsuz efir vaxtı almaqdır. Buna partiyanın potensialı çatır.

Qeyd edək ki, bu ilin əvvəlindən etibarən bələdiyyə seçkilərinə hazırlıqlarla bağlı partiya müxtəlif tədbirlər həyata keçirib. Partiya funksionerləri dəfələrlə rayonlara səfərlər ediblər, yerli təşkilatlar tərəfindən ilkin namizədlər siyahısı hazırlanıb, bələdiyyə subyektləri üzrə yeni özəklər və seçki qərargahları yaradılıb, regional müşavirələr və namizəd olacaq şəxslərlə görüşlər təşkil olunub, yerlərdə partiya fəallarına və namizəd olacaq şəxslərə partiyanın seçkilərə qatılmasının səbəbi və əhəmiyyəti izah olunub.

## Ümid funsioneri Gürcüstanda seminar keçəcək

**Oktyabrın 26-da Gürcüstan parlamentinin önündə yerləşən Tiflis Dövlət Kitabxanasında Gürcüstan Gənclərinin Azad Fikir Universitetinin 6-cı mühazirəsi keçiriləcək.**

Spiker qismində Azərbaycan Avropa Hərəkatının prezidenti, Ümid Partiyası sədrinin müavini Ramin Hacılı çıxış edəcək.

R.Hacılının mühazirəsi "Cənubi Qafqazın Avropadakı yeri" mövzusunda olacaq.

Yüz gəncin qatılacağı tədbirdə Azərbaycan, Ermənistan və Gürcüstanla bağlı Avropanın həyata keçirdiyi fərqli və oxşar layihələr barədə məruzəçi tərəfindən ətraflı məlumat veriləcək.

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**



# Transformerlər

Zamin HACI
zaminhaci@gmail.com

(Yazını 5 yaşlı Oğuza həsr edirəm)

**Yayda belə bir xəbər verilmişdi ki, Qafqaz Müsəlmanları İdarəsi Milli Təhlükəsizlik Nazirliyinin arxivində araşdırmalar aparır. Məqsəd QMİ-nin tarixini öyrənmək imiş.**

Düzü, mən bilmirəm keçmiş NKVD-KQB sovet dövründə nə qədər din xadiminə divan tutub, neçə məscid dağıdıblar, idarələr arasında indiki funksional əməkdaşlıq hansı səviyyədədir, hər halda mollaların çekistləri araşdırması mənfi nəticələr verəcəkdi. Necə deyərlər, cavab atəşi olmalı idi. Mən hökumətin ehsan sahəsində islahat cəhdlərinə məhz bu nöqtədən baxıram.

Prinsipcə, fağır Azərbaycan mollalarının (siz bunların dünyadakı alternativlərinə baxsanız mənim nə qədər haqlı olduğumu görərsiniz) əlində bir ehsan qazanı qalmışdı, hökumətin həmin qazana göz dikməsi mənfi haldır. Bunun nəticələri heç yaxşı olmayacaqdır, belə işlər görənlərin tarixən əlləri quruyub, gözləri tökülübdür.

Məni ziyalı-miyalılarımız da xeyli dərəcədə narahat edir. Sanarsan bölgənin lider dövləti olan respublikamızda ehsan və toy süfrələrində israfçılıqdan başqa problemli mövzu yoxdur, hamı ancaq bunu müzakirə eləyir. Şairlər, yazıçılar, manıslar, mühəndis və həkimlərimiz, müəllim və prokurorlarımız - hər kəs süfrələrdə bolluqdan danışır. Deyirlər yemək çox idi, süfrədə artıq qaldı, xarab oldu. Hökuməti bu cür mənfi hallarla mübarizəyə çağırırlar. Guya hökumət bildirçin kababını çox verən şəxsi tutub dama salmalıdır.

Hələlik toy sahəsinə elə bir ciddi müdaxilə qeydə alınmayıb, ancaq gələn siqnallara görə ehsan qazanlarının hökumət tərəfindən müsadirə edilib hərbi hissələrə aparılması, bəzi yerlərdə isə icra hakiminə rüşvət verib ehsan süfrəsi açmaq halları olmuşdur. QMİ bu cür zorakılığa etiraz edir, mən də şəxsən şeyxin idarəsini dəstəkləyirəm. "Hər kəsin istədiyi formada süfrə açmaq hüququ vardır" - bu müddəa Birləşmiş Millətlər Təşkilatının İnsan Haqları Konvensiyasında açıq-aydın yazılmışdır.

Yuxarıda qeyd elədiyim kimi, əslində bizi başqa problemlər narahat etməlidir. Misal üçün, dünən internetdə avtoxuliqanlıq edən bir sürücü, onun eyni nömrəni taxdığı müxtəlif maşınlar haqda video var idi. Yazmışdılar ki, bunun nömrəsi yol polisinin qeydiyyat sənədlərindən çıxmırmış. Bir növ, gözəgörünməz avtomobildir. Bəlkə elə bu avtomobildə hansısa müqəddəs insan, qurbanolduğumuz zühur edibdir, gedib nömrəsini öpməliyik? MTN və QMİ belə sirli, paranormal hadisələri birgə araşdırmaq yerinə normal məclislərə niyə qarışıqlıq salır? Hələ kimsə ehsan yeyib, partlamaya düşüb ölməmişdir. Bəs bunun nəyi israfçılıqdır? O cümlədən, toyda da yeməkdən ölən yoxdur, hamısı əfsanə söhbətdir.

Milli Ekoloji Proqnozlaşdırma Mərkəzi adlı bir qurum var, rəhbəri də hörmətli alimlərimizdən Telman Zeynalov adlı şəxsiyyətdir. Respublikamızda güclü külək əsəndə Telman müəllim görün onu necə izah edir: "Amerikalıların əlində qasırğa yaradan silah var. Onlar Azərbaycandakı uğurları, inkişafı gözləri götürmədiyi üçün ölkəmizdə qasırğalar yaradırlar". Sən də elə bilirsən ağacın qırılıb Məhərrəmin "Prado"sunu yastılaması təsadüfdür... Amerika ilə mübarizə aparmaq, onun qasırğa silahını həmyerlimiz, Həmid Herisçinin dostu olan alimin tektonik silahı ilə vurmaq yerinə bizə yaraşarmı ehsan-süfrə-halva-bozbaş-menyü davası aparaq? Halbuki, tektonik silahımızla qasırğa silahını küllənküf edə bilərdik bu müddətdə. Allahın lənəti olsun başımızı xırda işlərə qatanlara! Hare Krişna!

**Sözgəlişi, bələdiyyə seçkilərinin də vaxtı çatıb, ancaq bir telekanalizasiya, bir qəzet, bir qurum bunu müzakirə eləmir. Seçki, hakimiyyət məsələsi sanki xalqa aid deyil. Mən buna etirazımı bildirir, əlaqədar orqanlara çatdırıram ki, özlərini düzəltsinlər, yoxsa transformerlərə deyərəm, gəlib ağzınızı cırar.**

# Şeyxə qarşı gizli hücum - Paşazadəni bitirmək istəyirlər

## Ölkənin baş ruhanisinin mövqeləri zəiflədilir, Şeyxülislama qarşı hücumun arxasında biznes maraqları da var

**Son illərdə baş verənlər göstərir ki, Azərbaycan hakimiyyətində Şeyxülislam Allahşükür Paşazadənin ciddi rəqibləri var. Son dövrlərdə QMİ sədrinin sıxışdırılması müşahidə olunur. Şeyx isə müqavimət göstərir. Qəzetimizi bilgiləndirən mənbənin sözlərinə görə, hakimiyyətin birinci şəxsi səviyyəsində dəstəyi olduğundan Şeyx hələ də ona qarşı olan hücumları dəf edə bilir.**

Lakin buna baxmayaraq, QMİ sədrinin mövqelərinin zəiflədilməsinə cəhdlər heç zaman dayanmır və hazırda da davam edir. Xüsusən də son olaraq ölkədə ehsan qadağası, o cümlədən dini maarifçilik işinə DQİDK-nin cəlb olunması faktiki olaraq , bu günə qədər ölkədə din sahəsində əsas avtoritet kimi qəbul olunan, dini fəaliyyətlərə rəhbərlik edən Şeyxülislamın fəaliyyət sahələrinə müdaxilədir. Hansı ki, bu günə qədər bu sahələr birbaşa QMİ sədrinin nəzarətində olub, hətta keçmiş komitə sədrləri də Şeyxlə hesablaşıblar. Ancaq indi durum dəyişib. DQİDK Şeyxin başı üzərindən ehsan məclisləri qadağan edir, ardınca isə dini maarifçilik fəaliyyəti istiqamətində layihələr başladır və komitə yanında dinşünaslardan ibarət komissiya yaradılmasına start verilir.

Gələn məlumatlara görə, hökumətin din sahəsində bu cür addımları atması ilə bağlı qərar bu ilin əvvəlində məlum hadisələrdən sonra verilib. Belə ki, həmin vaxt aydın oldu ki, Azərbaycanda İslam adına xeyli sayda radikal dini qruplar formalaşıb və QMİ faktiki olaraq bu qurumlara qarşı mübarizə aparmaq gücündə deyil. Doğrudur, Şeyxin zəif olması haradasa hakimiyyətin də marağında olmayıb, çünki müsəlman ölkəsində nüfuzlu din xa-



Allahşükür Paşazadə

diminin Şeyxülislam olması hökumət üçün başağrısı ola bilərdi. Ancaq QMİ-nin həddən artıq passiv və təsir gücünün az olması hökuməti narahat edib. Bu səbəbdən də kompensasiya üçün yeni dövlət müşavirliyi yaradıldı və DQİDK-ə əlavə səlahiyyətlər verildi.

**Lakin gələn məlumatlara göstərir ki, Şeyxin sıxışdırılmasının arxasında dayanan səbəb heç də onun din sahəsindəki passivliyi ilə bağlı deyil.** Daha ciddi səbəb Şeyxülislamın biznes imperiyası və ətrafında formalaşdırdığı gücdür. Hansı ki, hakimiyyət içərisində ona qarşı ciddi rəqiblərin yaranmasına səbəb olub. Bildirilir ki, Şeyxin ölkə ərazisində böyük biznes şəbəkələrinin olması, Bakıda və cənub bölgəsində böyük vəsaitlərlə ölçülən əmlakının, şirkətlərinin mövcudluğu hökumət qurumlarında, Milli Məclisdə adamlarını yerləşdirməsi iqtidardaxili qruplan narazı salır. Bu səbəbdən də Şeyxi hər fürsətdə , aşkar ya da gizli şəkildə vururlar.

**Qeyd edək ki, yerli mətbuatda Şeyxin tikinti şirkətlərindən tutmuş, yeyinti, yükdaşıma, ticarət şəbəkəsinə qədər, müxtəlif sahələri əhatə edən biznesinin olması haqda məlumatlar gedib.** Bu məlumatların arasında o da var ki, Şeyx İrandan şüşə məmulatlarının idxalına nəzarət edir. Bundan başqa İrandan əsasən gətirilən xurma və kişmiş məhsullarının da Şeyxə yaxın deputatlardan birinin idarə etdiyi bildirilir. Əlavə olaraq, ölkə ərazisində bir neçə pirlərin, nəzir qutularının QMİ-nin gəlir mənbələri sırasına daxil olduğu iddialar arasIndadır. QMİ sədrinin ən böyük gəlir sahələrindən biri isə heç şübhəsiz ki, Həcc ziyarəti və il ərzində davam edən ümrə ziyarətləridir. Həcc ziyarəti il ərzində bir dəfə - Zilhiccə ayında baş verir və son məlumatlara görə, Azərbaycandan Həcc ziyarətinə hər il 3600 nəfər zəvvar gedir. Həcc qiymətləri isə 3250 manat və 4100 manatdır. Ümrə ziyarəti isə il ərzində davam edir. Müşahidəçilərə görə, Azərbaycanda Həcc qiymətləri digər ölkələrdəki qiymət və şərtlərlə müqayisədə bahadır.

**Mənbəmiz bildirir ki, Şeyx hər zaman dövlət qurumları ilə yaxşı yola getməyə çalışıb.** QMİ ilə əməkdaşlıq edən qurumlar hər zaman Şeyxdən razı qalıblar. Ancaq indi görünən odur ki, hakimiyyətin yuxarı eşalonunda QMİ sədrini sevməyənlərin sayı çoxalıb. Bu səbəbdən də Şeyxi sıxışdırmaq, nəzarət etdiyi biznes sahələrini əlindən almağa çalışırlar.

**Gələn məlumatlarda o da bildirilir ki, Şeyx özü də ona qarşı olan hücumlardan narahatdır.** Uzun illər siyasi hakimiyyətlərlə iş təcrübəsi olan Şeyxülislam ona qarşı hücumlardan narahatdır və neytrallaşdırmağa çalışır. O da bildirilir ki, Şeyx daim hakimiyyətin birinci şəxsi ilə olan münasibətləri səbəbindən özünə qarşı hücumları dəf edə bilib. Şeyxi güclü edən də məhz ölkə başçısına birbaşa çıxışı və yaxşı münasibətlərinin olmasıdır. Ancaq indi rəqiblər xeyli dərəcədə güclüdür və Şeyxin zəif olması, təsir gücünün zəif olması imici yaradılır, bu isə Şeyx üçün ciddi zərbədir. Bu səbəbdən QMİ sədri son aylarda əl-ayağa düşərək nüfuzlu ruhaniləri öz ətrafına cəlb etmək, dini sahədə nüfuzunu artırmaq, bu sahədə əvəzedilməz şəxs olduğu obrazını yaratmağa çalışır. Buna nə qədər nail olduğunu, imicini bərpa edə bilib-bilməyəcəyini isə zaman göstərəcək.

❑ Hüseyn DƏMİRÇİ

# Toylara "yox" deyək, yoxsa seçki saxtakarlığına?

**Azərbaycan ziyalısı qeyri-adidir. Elə buna görə də qeyri-adi aksiyalara müəlliflik edir. Ölkədə korrupsiya, məmur özbaşınalığı, seçki saxtakarlığı, sosial ədalətsizlik əsas göstəricilər olduğu bir zamanda Azərbaycanın bir qrup ziyalısı "Toylara yox deyək" şüarı ilə vətəndaşlara müraciət edir.**

Azər RƏŞİDOĞLU



**Şübhəsiz ki, Azərbaycanda keçirilən toy və yas mərasimləri o dərəcədə eybəcər hal alıb ki, ciddi dəyişikliklərə ehtiyac yaranır. Azərbaycan bir qrup "palatka mollası"nın və "palatka müğənnisi"nin ictimai rəyi formalaşdırdığı ölkəyə çevrilib. Ziyalıların bu absurd tendensiyaya qarşı çıxması anlaşılan və təqdir olunandır.**

Lakin ölkədə bütün problemlərin əsas baiskarı olan saxta seçkilərə münasibət nədənsə ziyalılarımızı o qədər də narahat etmir.

Bu gün şadlıq evlərindən tutmuş mərasim zallarına qədər, mətbuatdan tutmuş məzarlığa qədər hər bir şey ayrı-ayrı məmurların inhisarındadır. Bunun təməlində elə seçki saxtakarlığının yaratdığı imkanlar dayanır.

Toy məclislərində vətəndaşlara məcburi qaydada sırınan menyular istehlakçı hüquqlarına olunan hörmətsizlikdir. Azad və demokratik ölkələrdə belə rüsvayçılıqlar baş verə bilməz.

Toy və yasları boykot etməyə çağırmaq asandır. Lakin israfçılığın, bir neçə möhtəkirin əlində cəmləşən sahədə nizam yaratmaq üçün azad seçkilər keçirilməsini tələb etmək olduqca çətindir. Bu, əsl ziyalılıq tələb edir.

Yas və toyları tənqid etmək artıq şou-biznes xəbərlərinə aid edilir. Bu isə əlavə oxucu deməkdir. Populyarlıq qazanmağa yardımdır. Bu, asan yolla tanınmağa, məşhurlaşmağa şərait yaradır. Saxta seçkiləri tənqid etmək isə risklidir.

Gerçək ziyalılıq imitasiya ilə bir araya sığmır. "Toylara yox deyək" şüarı "Saxta seçkiyə yox deyək" şüarı ilə müqayisədə uşaq oyununa bənzəyir. Özündən əvvəlki nəsli asıb-kəsən bir təbəqənin saxta seçkilərə münasibət belə bildirməməsi acınacaqlıdır.

**Toy və yaslara münasibət aktualdır. Lakin demokratik seçkilər qədər vacib məsələ deyil. Demokratik cəmiyyətlərdə belə problemlər daha tez öz həllini tapır.**

Əslində, "yaslarda israfçılıq" və "toylara yox deyək" müzakirələri ictimai rəyi seçki, insan haqları, demokratiyanın vəziyyətindən diqqəti yayındırmağa xidmət edir. Bu müzakirələrdə həvəslə iştirak edənlər seçkilərə və insan haqlarına da bu qədər həvəs göstərsə idilər, indi yas və toylarımız bir-neçə dəllalın inhisarında olmazdı.

Daha bir önəmli məqam ondan ibarətdir ki, dəbdəbəli toy və yaxud yas mərasimlərində daha çox məmurların adları hallanır. Orta və kasıb təbəqə istəsə belə, nə şad günündə, nə də ki yasında israfçılığa yol verməK iqtidarında deyil.

Mərasimlərində milyonları göyə sovuranlar sadə vətəndaşlar deyil. Doğmasının yasında sıradan bir süfrə açan kasıb təbəqənin ehsanını dağıtmaq, məmurların bütün əndazələri keçən israfçılığa isə göz yummaq yumşaq desək, ədalətsizlikdir.

Toy və yasların keçirilməsini tənzimləyən qanunun qəbul edilməsinə də münasibət birmənalı ola bilməz.

Heç bir demokratik dövlətlərdə yas və toy məclislərinə məhdudiyyət qoyulmur.

Odur ki, yeganə çıxış yolu maarifçiliyə qalır. Bu gün hakimiyyətin yas və ehsan qadağasından sonra bülbül kimi ötməyə başlayan ziyalılar digər israfçılıqları görmək istəmirlər. Bu isə artıq riyakarlıqdır.

Azərbaycan telekanallarında normal maarifləndirmə ilə bağlı demək olar heç bir veriliş yoxdur. Yas və toylarda israfın qarşısını isə maarifçilik olmadan almaq mümkün olmayacaq.

Dövlət vətəndaşların geyiminə, gülməyinə, ağlamağına müdaxilə edə bilməz. Hətta amansız Sovet rejimi dövründə də yas və toy mərasimlərinin qarşısı inzibati üsullarla alına bilmədi. Elə bu amil onu deməyə əsas verir ki, heç bir inzibati üsul bu sahədə irəliləyişə apara bilməz.

**Toy və yas mərasimləri xalqın mədəniyyətinin tərkib hissəsidir. Bu barədə istənilən düşünülməmiş addım əks effekt verə bilər. Odur ki, "toylara yox deyək" aksiyası, "saxtakarlığa yox deyək"lə əvəzlənsə daha yaxşı olardı...**

# Kremldən Bakıya qondarma qurumu tanıma hədəsi

**Kremlin Azərbaycana qarşı ən ciddi şantaj vasitələrindən biri və birincisi heç şübhəsiz, SSRİ-nin çöküşü ərəfəsində onun özü tərəfindən məqsədli şəkildə qızışdırılan Dağlıq Qarabağ problemidir. Krımın zorla ilhaqından sonra Rusiya üçün bu problemin əhəmiyyəti ölkəmizi Avrasiya layihələrinə qoşmağa sövq eləmək baxımından xüsusilə artıb.**



# Moskvada Qarabağ ermənilərinə saxta pasportlar paylanır

## Separatçı bölgə sakinləri Rusiyanın rəsmi qurumlarından "Dağlıq Qarabağ dövləti" adına asanca kimlik sənədi - sürücülük vəsiqəsi və s. ala bilirlər; ilginc olayın şok təfərrüatları bu yazıda; Bakı Moskvaya nota təqdim edəcəkmi?..

Bir ara hətta Rusiyanın eyni ssenarini - "referendum oyunu"nu sözügedən separatçı bölgədə təkrarlamaq niyyətində olduğu barədə informasiyalar yayılmışdı. Ardınca xəbər gəldi ki, Kreml emissarları real hərəkətə keçib və artıq Qarabağ ermənilərinə Abxaziya, Cənubi Osetiya, Dnestryanı bölgə və Krımdakı kimi Rusiya vətəndaşlığına keçmək təklif etməyə başlayıblar. Bundan ötrü ən müxtəlif şirnikləndirici vədlərin verildiyi də o zaman gələn həmin xəbərlər sırasında idi.

Bu günlər isə Moskvanın Dağlıq Qarabağ məsələsində satellit ermənilərin "ayağını tapdamadığına" dair şok fakt ortaya çıxıb. Sən demə, Moskvada cəmi 800 dollara "Dağlıq Qarabağ vətəndaşlığı" haqda "pasport" almaq olar. Vesti.az portalının üzə çıxardığı məlumata görə, üstəlik, bunu leqal şəkildə əldə eləmək mümkündür.

Daha doğrusu, fotodan da göründüyü kimi, Moskvada bütün bu, qeyri-legitim məlumatların əks olunduğu sürücülük vəsiqəsini asanca əldə eləmək olar. Fotoda Arzanqulyan Emil Benyaminoviçin adına verilmiş sürücülük vəsiqəsi əks olunub. Rus və ingilis dillərində olan "sənəd"də doğulduğu ölkə qrafasında "Dağlıq Qarabağ" ifadəsi göstərilib. Belə çıxır, bu adda müstəqil dövlət varmış və Rusiya da onu çoxdan tanıyırmış.

Qeyd edək ki, adı çəkilən şəxs heç də mifik yox, real adamdır. O, 27 iyul 1973-cü ildə, keçmiş Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin Martuni rayonunda doğulub. Hazırda Moskvada yaşayır və "Ekoqaz" MMC-nin baş direktoru vəzifəsində çalışır. Arzanqulyan üstəgəl, qatı separatçı və anti-Azərbaycançı kimi tanınır, özünün facebook səhifəsində vaxtaşırı azərbaycanlıları təhqir edir.

Bəli, haqqında danışılan erməni separatçısının yaxşı pulu var. Ancaq bu, əsla əsas vermir ki, Moskvanın Baş Yol Polisi İdarəsinə Arzanqulyana Dağlıq Qarabağın müstəqil dövlət kimi göstərildiyi möhürlü-imzalı sürücülük vəsiqəsi versin. Çünki söhbət artıq siyasidir və beynəlxalq hüquqa gedib dirənir.

Təbii ki, Arzanqulyan "qanuni yolla" belə qanunsuz sənəd alıbsa, separatçı bölgədən olan digər ermənilərə də bu, nəsib ola bilər. Mümkündür ki, Moskvanın uyğun qurumları rüşvət və ya qeyri-rüşvətin müqabilində Qarabağ ermənilərinə qondarma pasportlar da paylayır.

Buyurun, bu da sübut: sayt çətinliklə də olsa araşdırıb və Moskva Yol Polisində dəqiqləşdirib ki, Rusiya qanunları yeni sürücülük vəsiqəsinin yalnız pasport və ya onu əvəzləyən hüquqi sənəd əsasında verildiyini nəzərdə tutur. "Onun (Arzanqulyanın - red.) pasportunda doğum yeri kimi Dağlıq Qarabağ göstərilmişdi. Ona görə sürücülük vəsiqəsində də doğum yeri Dağlıq Qarabağ göstərilib", - deyə idarənin adının çəkilməsini istəməyən məmuru portala bildirib. Ayrı sözlə, Qarabağ ermənisi Moskvada nəinki qanunsuz sürücülük vəsiqəsi, qanunsuz pasport da ala bilər...

***

**Aydındır ki, "yuxarıların" rüsxəti olmadan hansısa oskva "QAİ"si rüşvət qarşılı - ğında belə, bu miqyaslı siyasi özbaşınalığa getməz.** Belə çıxır, Rusiya yeri gələndə Dağlıq Qarabağı de-yure Azərbaycanın tərkib hissəsi saymaya da bilər. Bu, şübhəsiz, Minsk Qrupunun əsas həmsədr ölkəsi olaraq Rusiyanın Azərbaycana qarşı növbəti şantajıdır. Odur ki, məsələyə ilk növbədə Azərbaycan Xarici İşlər Nazirliyi operativ şəkildə müdaxilə edib Rusiyanın müvafiq strukturlarından izahat tələb etməlidir. Gərək varsa, Rusiya tərəfinə nota da təqdim eləmək olar. Əgər Orxan Zeynalov məsələsində etiraz notası verildisə, Qarabağla bağlı niyə də olmasın?

Olayın prezidentlərin Paris görüşü ərəfəsinə təsadüf etməsi də diqqət çəkir.

**Mövzunu diqqətdə saxlayacağıq.**

❑ **Siyasət şöbəsi**

# Yaxın tarixdəki parlament qətliamları - deputat mandatı qurğuşundan qorumur

## Dünyanın müxtəlif ölkələrində parlamentə edilən hücumlar onlarla insanın həyatına son qoyub

**Xəbər verdiyimiz kimi, oktyabrın 22-də silahlı şəxs Kanadanın Ottava şəhərində parlament binasına hücum edib. Hücum nəticəsində bir hərbçi həlak olub, 3 nəfər isə yaralanıb. Sonradan məlum olub ki, hücumu törədən şəxsin ruhi xəstəliyi olub.**

32 yaşlı Mixail Zehaf-Bibeau 1982-ci ildə Kanadada doğulub. İndiyə qədər elə bir kriminal cinayət törətməyib. Əslən Liviyadan olan Mixailin atası Belqasem Zehaf Liviyada Müəmmar Qəzzafiyə qarşı silahlı mübarizədə iştirak edib.

İndi Kanada hökuməti hücumu həyata keçirən hücumçunun İŞİD terror təşkilatına bağlı olub-olmadığını araşdırır. Bu barədə isə ciddi iddialar var.

Qeyd edək ki, bu hadisə dünyada təhlükəsizlik məsələlərini yenidən gündəmə gətirib. Son aylarda bir neçə dəfə Vaşinqtonda, Ağ evə də terror təhlükəsinin üzə çıxması Qərb paytaxtlarında təhlükəsizlik məsələlərini yenidən gündəmə gətirib.

Bu hadisə eyni zamanda dünyada baş verən parlament hücumları sırasına aid edildi. Məsələ burasındadır ki, təkcə son 20 ildə dünya ölkələrində dövlətlərin əsas qanunverici orqanlarına bir çox hücumlar qeydə alınıb. Bu hücumların bir çoxu böyük qırğınlarla müşahidə olunub və böyük şok yaradıb. Yeri gəlmişkən, 1992-ci il mayın 15-də Azərbaycanda AXC xalqı Milli Məclis qarşısına çağırıb və dinc etirazlardan sonra parlamentdə prezidentin istefaya getməsi qərarı elan olunub.

### Rusiyada parlamentə qoşun yeridilməsi 2 min nəfərin ölümünə səbəb olub

Ancaq dünyada heç də bütün parlament hücumları bu şəkildə, yaxşı sonluqla nəticələnməyib. Bir çox hallarda qanunverici orqanlara hücumlar böyük insan tələfatları ilə nəticələnib. Son 20 ildə ən qanlı parlament qətliamlarından biri də dünyanın ən böyük dövlətlərindən olan Rusiyada baş verib. 1993-cü ildə Rusiyada Konstitusiya böhranı baş verib. Prezident hakimiyyəti ilə parlament arasında baş verən gərginlik 1993-cü il sentyabrın 21-də Yeltsinin parlamentin hər iki qanadını buraxmaq qərarı verməsi ilə nəticələnib. Buna cavab olaraq parlament Yeltsini vəzifəsindən çıxararaq, onun yerinə vitse-prezident Aleksandr Rutskoyu təyin edib.

Oktyabrın 3-də etirazçıların parlament binası qarşısında polis kardonunu yararaq, meriya binasını və mərkəzi televiziya binasını ələ keçirməsindən sonra Yeltsinin əmri ilə ordu parlament binasına hücum edib. Rəsmi məlumata görə, hadisələr zamanı 187 nəfər ölüb, 437 nəfər isə yaralanıb. Kommunist Partiyası isə ölənlərin sayının 2 min olduğunu bəyan edib. Hökumət qüvvələri xeyli sayda siyasətçini həbs edib.

### Ermənistanda parlament gülləboranı

Başqa bir qanlı parlament basqını Ermənistanda baş verib. 1999-cu il oktyabrın 27-də Ermənistan parlamentinə basqın edən silahlı qrup iclasın gedişində içəridəkiləri atəşə tutub. Avtomatlardan atəşlər nəticəsində həmin vaxt zalda olan baş nazir Vazgen Sərkisyan və parlament sədri Karen Dəmirçiyan da daxil olmaqla, 8 nəfər öldürülüb.

Sonradan məlum olub ki, silahlı qrupa jurnalist Nairi Unanyan rəhbərlik edib. Hücumçular 50 nəfər deputatı girov saxlayaraq bəzi tələblər irəli sürsələr də, sonradan təslim olmağa razılaşıblar. Hücumda iştirak edənlər sonradan ömürlük həbs cəzası alıb. Bu hadisə Ermənistanda rusmeyilli qüvvələrin tam qələbəsinə şərait yaratdı. Bundan sonra prezident Robert Köçəryanın hakimiyyəti daha da möhkəmləndi.

### İsveçrə parlamentinə qanlı hücum

2001-ci il sentyabrın 27-də İsveçrənin Zug kantonunun mərkəzi olan Zug şəhərinin yerli parlament binasına silahlı hücum baş verib. Polis forması geyinmiş terrorçu parlament binasına daxil olaraq, qarşısına çıxanlara atəş açıb, daha sonra bir əl qumbarası atıb. Nəticədə 14 nəfər öldürülüb. Ölənlərdən 3-ü yerli hökumətin nümayəndəsi olub.

### Çeçenistanda parlament basqını

2010-cu il oktyabrın 19-da 4 kamikadze Çeçenistan parlamentinə hücum təşkil edib. Hücum nəticəsində 6 nəfər ölüb, 17 nəfər, o cümlədən 6 polis yaralanıb. Rusiya mətbuatının məlumatına görə, həmin vaxt terrorçulardan biri avtomobillə parlamentin parkına daxil olaraq, özünü və avtomobilini partladıb. Maşında olan 3 terrorçu isə parlament binasına girərək, qətliam törədib.

❑ **Kənan RÖVŞƏNOĞLU**

# Zirvələrdə ölmək istəyənlər varsa...



**Hüseynbala SƏLİMOV**

**Məndə yüksəklik hissi və yüksəklik qarşısında dəhşətli qorxu çulğalaşmış şəkildədir. Dağlara qarşı həmişə həvəs duymuşam. Təbiətin bu möcüzəsi məni həmişə maqnit kimi çəkib. Amma daim yüksəklikdən qorxmuşam...**

Belə qorxulu məqamlardan biri hələ də yadımdan çıxmır. Uşaqlıqda bibim qızı ilə dağın ətəyində oynayırdıq. Birdən ona dedim ki, gəl, dağa dırmaşaq və o vaxt bu həvəsin məni hansı vəziyyətə salacağı heç ağlıma da gəlmirdi...

Bibim qızı bir də gördüm ki, dağın başındadır. Kənd uşaqları hamısı belə olur, dağa az qala keçi kimi dırmaşırlar. Axır mən də bir təhər, yerdən tuta-tuta dırmaşdım...

Dağın başından kəndi bir qədər seyr edəndən sonra qərara gəldik ki, düşək. Bibim qızı yenə də bir neçə dəqiqənin içində aşağı düşdü və məni də səsləməyə başladı. Mən aşağı baxdım, başım gicəlləndi. Özümü ağlamaqdan zorla saxlaya-saxlaya, daşdan-kəsəkdən tuta-tuta, az qala iməkləyə-iməkləyə dağdan düşə bildim...

Bir dəfə də, özü də sonuncu dəfə mənim dağ həvəsim Krımda tutdu. Orada Qara dənizin sahilində bir dağ vardı. Adına da Koşka deyirdilər. O dağa dırmaşmaq qərarına gəldim. Yenə də eyni şey təkrar oldu. Güclə aşağı düşə-düşə özümü lənətləyirdim...

Sonradan özümdəki dağlara həvəsi çox başa düşməyə cəhd etdim. Nə idi məndə dağlara həvəs yaradan? Mənə elə gəlirdi ki, dağlardan ətrafa çox gözəl mənzərə açılır və mən mütləq bu mənzərəni görməli idim...

Amma dəhşətli yüksəklik qorxusu da məni tərk etmirdi. Ona görə də məndə alpinistlərə qarşı həmişə bir qibtə hissi vardı.

Sovet vaxtı bizim alpinistlərin Everestə yürüşünü böyük maraqla izləyirdim. Onlar zirvəyə gecə qalxmalı oldular. O vaxt mən başa düşdüm ki, alpinistləri dağlara çəkən başqa bir hiss də var və bu, mən düşündüyüm kimi təkcə mənzərə seyr etmək həvəsi deyildi.

Axı 8000 metr hündürlükdə hansı mənzərə ola bilərdi? Orada qarlı zirvələrdən başqa heç nə olmur...

Bir dəfə oxudum ki, alpinistlərdən biri "Dağlara niyə gedirsiniz?" sualına "Elə bu sualı eşitməmək üçün!" -deyə cavab veribmiş...

Həqiqətən də düşünməli məqamdır. Bir yapon səyyahının da kitabını oxumuşdum. Bu adam Everestə tək qalxmış, Şimal Qütbünü tək fəth etmişdi və bunu öz kitablarında yazmışdı...

Bəs nədən mən birdən-birə dağları, alpinistləri xatırladım? Bu günlərdə bir azərbaycanlı alpinist həlak oldu. Bu adam sən demə, Eversti də fəth edibmiş və mən bundan yalnız indi xəbər tutdum...

Mən onu tanımırdım. Amma tanımalı idim. Belələrini, belə cəsur insanları tanımaq lazımdır. Azərbaycanlılar hədsiz dərəcədə "praqmatik" olurlar. Əminəm ki, orta statistik azərbaycanlı bilsə ki, Eversti fəth etməkdə böyük fayda və gəlir var, o, bu zirvəni mütləq fəth edər. Amma elə-belə romantizm xatirinə bunu heç vaxt etməz...

İndi çox maraqlıdır ki, bizdə romantizm xatirinə də dağlara yollananlar olur. Belə insanlarla fəxr etməyə dəyər. Mənim üçün həm də o əlamətdardır ki, bu insanlarda yüksəklik qorxusu yoxdur...

Həm də nədənsə yadıma alpinsitlər haqqında bir film düşdü. Deməli, filmin qəhrəmanı bələdçi-alpinist idi. Özü də bir az qocalmış...

Yürüşlərdən birində artıq aşağı enərkən filmin qəhrəmanı görür ki, o, öz kəndirini kəsməsə digərləri də həlak olacaq. Beləcə, qoca alpinist öz kəndirini kəsməli olur...

Ən maraqlısı nədir? Mənim üçün dağa dırmaşmaq dağdan düşməkdən həmişə asan olub. Xüsusən də o maraqlıdır ki, alpinistlərin başına nə gəlirsə, elə aşağı düşərkən gəlir...

Bizim həmyerlimiz, qəhrəman alpinist də məhz düşərkən həlak olmuşdu. İndi bu adama qeyri-adi görünür. Bəzən mənə elə gəlir ki, bu şəhərdə meyvə-tərəvəz satanlardan başqa heç kim yaşamır...

Amma sən demə, oğullar varmış! Hətta alpinizm federasiyası da fəaliyyət göstərirmiş. Bunu düşünəndə adam qürur hissi duyur. Ona görə ki, meşşanlar heç vaxt dağlara can atmazlar. Onlar bunu heç vaxt başa düşməz... Onlar üçün şəhərin tünlük yerindəki bir kafedə "yüz atmaq" Everestə çıxmaqdan daha maraqlıdır...

**Amma bu dünyada dağlar var. Əgər dağlar varsa, ora gedənlər də olacaq. Hətta bu yolda ölüm olsa belə. Ona görə ki, zirvələrdə ölmək istəyənlər də var və beləlari həmişə olacaq...**



# Bulanıq suyun durulması...

Mahal İSMAYILOĞLU
mahal57@mail.ru

**Son günlər müxalifət partiyalarında həm dişarıya, həm də içəriyə ittihamların yeni düzəni ilə qarşılaşırıq. Kimin haqlı, kimin haqsız olduğunu ayırd etmək həmişəki kimi müşkülə dönüb. Amma hər kəs də bu labirintdən istədiyi kimi yol arayır. Daha çox da bir tələb səslənir: kimi öz partiyasında təftiş, kimi də müxalifət sıralarına süpürgə çəkilib, təmizlik aparılmasını tələb edir... Amma kimin hakim statusunda dayanıb, seçim edəcəyi də bir sirr olaraq qalır...**

Amma onu da danmaq olmaz ki, bu 25 il ərzində müxalifət içindən növlərə, çeşidlərə bölünə-bölünə yol gəlib. İstisnasız olaraq bütün partiyalar AXC-nin, bir az da dərinə baş vursaq, kommunist partiyasının köynəyindən çıxıb. İndi arayıb-axtarsan, ölkədə nə qədər siyasi partiya olduğunu doğru-düzgün bilən də yoxdur. Bircə o bəllidir ki, "mən də siyasət meydanında öz partiyamla varam" demək üçün üç nəfər də bəs edir...

Bu illər ərzində partiyaların sırası seyrəlib, amma siyasi çəkisinə bir zərrə də xələl toxunmayıb. Gör neçə ildir ki, əsil müxalifət kimdir savaşı bir zərrə də səngimir. Atalıq iddiasından əl üzsələr də, "analıq" olmaq uğrunda savaş daim qızışıb. Elə "ana müxalifət" olmaq da özünü əbədi iqtidar elan edənlərin dövran sürdüyü bir zəmanədə böyük hünər sayılıb. Amma bu da daimi olmayıb, bizim cəmiyyətdə siyasi analıq bir neçə patiyaya qismət olub, atalıq isə təkdir, yekdir... 2010-cu ildən bəri isə yetim, kimsəsiz, binəsib allah bəndəsiyik - bu toplumun ortaq atası var, anası isə yoxdur... Görünür, indən sonra olmayacaq da. Ən azından iqtidar razı olsa da, müxalifət öz arasında razılığa gələ bilməyəcək...

Belə durumla barışmayan, müxalifətin öz sıralarını ələyib, xəlbirdən keçirməyi tələb edənlər, küsüb gedənlər, bir partiyadan o birisinə köçənlər gündən-günə artır. Gedəni də, gələni də, qalanı da qınamaq olmur... Bu da bizim şakərimizdir və öz aramızda adına durulmaq deyirik...

Bax, AXCP ondan qopanları, hakimiyyətin qoltuğu altına sığınanları, deputat mandatı ilə yuxarı başa keçənləri böyük ideallara xilaf çıxmaqda ittiham edir. Amma səsi parlamentdən gələn "müxalifət" isə özünü tamam haqlı sayır və bütün ittihamları qatı müxalifətin özünə qaytarır. Heç bizim ölkəyə gəlib-gedənlər, bizə demokratiyadan dərs verənlərin isə eyninə də deyil ki, bunun hansı gerçək, hansı qondarma müxalifətdir...

Amma indi, illər ötəndən sonra öz sıralarında təftiş aparılmasını tələb edənləri də qınamaq olmur. Daha iqtidara əl yetmir. Onun qulluğunda duran sadiq müxalifət isə öz tarixi missiyasını uğurla yerinə yetirir. Əl ətəkdən uzun olandan sonra, qalır qəzəbi özünə qarşı yönəldib, təftişçilik tələb etmək...

İndi hər kəs sual verə bilər ki, niyə müxalifətdə olan partiyalarının liderləri addım-addım geri çəkilib, iqtidarla xəlvət separat danışıqlara gedəndə bunun səbəblərini ayırd etmək yada düşmədi, amma illər ötəndən, siyasi mübarizə yox, mövcudluğunu təmin etmək gündəmə gələndə yada düşür ki, kim xəyanət edib, kim öz əqidəsinə xilaf çıxıb...

Nəhayət, əbədi və əzəli sual da səslənir: Bəs hakim kimdir? İndi kimin gerçək, kimin qondarma müxalifət olduğunu müəyyən edən şəxsi necə müəyyənləşdirib, kürsüyə qaldıracaqlar... Və hökm veriləndən, pisi-yaxşısı sayıb-seçiləndən sonra biz meydanda daha güclü, qətiyyətli müxalifət görəcəyikmi. Ən nəhayət, sayılıb, seçilmiş müxalifəti camaat sevib başa çəkəcəkmi?

Az qala hər gün eşidirik ki, kimlərsə ya Müsavat, ya da AXCP sıralarından küsüb gedir. Özü də gedənlər qalanları ittiham edirlər. Qalanlar isə gedənlərin qarasınca deyinib, onları kiminsə göstərişinə əməl etməkdə günahlandırırlar.

Ötən prezident seçkisindən sonra Milli Şuraya üzv olan partiyalar elə küsdülər, biri-birinin ünvanına elə ağır ittihamlar yağdırdılar ki, bundan sonra hamı elə bildi ki, müxalifət küçədə üz-üzə gəlsə belə özünü görməzliyə vuracaq. Onda bütün seçkilərdən "qalibiyyətlə" çıxa YAP-ın necə toy-bayram etdiyi də yadınızdadırmı? Əslində pislikləri unutmamaq da bir şakərimizdir. İndi baş qarışıb gedənlərlə qalanların davasına - düz bir ildən sonra isə yenə parlament seçkiləri keçiriləcək. Müxalifətin durumuna baxanda onun da sonu indidən bəlli olur...

**Bütün hallarda bulanıq suların durulmağı üçün arada dörd fəsillik bir zaman var... Sular durulana qədər!**

---

**Məşhur "toy" qalmaqalından sonra, bədbəxt ölkəmizin halına bir daha, dərindən acıdım. Bu fani dünyada gününü xoş keçirmək, istədiyi insanların əhatəsində arzuladığı kimi əylənmək, şənlik qurmaq istəyən adama hücuma keçmək üçün çox arsız, abırsız və sinik olmaq lazımdır. Toya, yasa kim gəldi; toyda kim oxudu; kimlər yan-yana oturdu kimi debil-debil sualların, dartışmaların kökündə hakimiyyət aclığı dayanır. Ona görə də hücumun gerçək motivi olan banal paxıllığı hansısa mücərrəd "ideya"larla, "prinsip"lərlə, "dava" ilə pərdələmək cəhdləri ürəkbulandırıcıdır. Bir tərəf "Nazpəri orda niyə oxudu?" deyir və debil olduğunu təsdiq edir, bu biri tərəf də "Filankəs toya niyə gəldi?" deyir və "double" debil olduğunun altını cızır.**

Əli ƏKBƏR



# "Müxalifətin qaraçı taborunu dağıdaq..."

## "Məhsul" stadionunda kabab çəkin, araq vurun - Əli Əkbərdən hadisə yaradan yazı

**Hökumət üzvünün, hökumət üzvü olmayan adamın məclisində iştirakını, ən azından toplumun ehtiyac duyduğu (ölkəmizin reallığında nə qədər şit səslənsə də) barışığın, qardaşlığın zəmini kimi görmək olar(dı). Amma onlar belə görmək istəmədilər. Onları narahat edən sual budur: "Görəsən bunlar hakimiyyətlə dil tapıb, 2015-də parlamentə gedəcəklər?"**

Dərd bunun dərdidir. Bu adamlar, 2000-ci ilin bunlar üçün bir daha heç vaxt təkrarlanmayacağını yaxşı bilirlər. "Gənc prezident, gənc müxalifət lideri" ideyasını qəzetindən tirajlayanlar, sonra da xəyanət yolunu seçənlər, indi gənc prezidentin amansızlığı ilə üz-üzə qalıblar. "Gənc prezident" alındı, "gənc müxalifət lideri" isə yox. Səbəb? Həmin acgözlük, hərislik və vədə xəyanət. İlham Əliyev belə şeyləri bağışlamır. Xasiyyəti ağırdır.

Bu acı düşüncələr məni "demokratiya", "azadlıq", "etiraz hüququ", "avtoritarizm" kimi anlayışları bir daha nəzərdən keçirməyə sövq etdi. Ümumiyyətlə "haqq" nədir, necə olur, kimin "haqqa" haqqı çatır və "haqq" kimə verilməlidir?" sualları beynimdə dolaşdı durdu.

Siyasətşünas deyiləm, amma bildiklərimi, oxuduqlarımı, təcrübəmi bir yerə cəmləyib, Azərbaycanın bu günü ilə qarşılaşdıranda, gəldiyim qənaət bu olur ki, toplumda həqiqi bərabərliyin, haqqın və ədalətin bərqərar olması, hər bir fərdin cəmiyyət içində öz yerini tapması, potensialını aşkarlaması və onu reallaşdırması ilə mümkündür. Hər kəsə, öz qabındakını üzə çıxarmağa fürsət tanınmalıdır. Hökumət buna nail olsa, zatən məsələ qalmaz. Bir daha təkrar edirəm - problemlərimizin çözümünə "demokratiya", "liberalizm", "avtoritarizm" kimi çeynənmiş ifadələr üzərindən yox, kimin "öz yerində" olub-olmadığı prinsipindən yola çıxaraq getməliyik. Yəni, Karl Popperə iman etməyə məcbur deyilik.

Bizim ölkə bu baxımdan "Həsənsoxdu dəyirmanıdır". Hakimiyyətdən başlayası olsaq, zənnimcə bunlar öz yerində deyil. Ən azından ona görə ki, bu hakimiyyət mənə simpatik deyil. Məmnuniyyətlə bu iqtidarı başqası ilə əvəzləyərdim. Əvəzləyərdim ki, sonra yenisindən narazı olum və bu səfər onun getməsini, devrilməsini arzulayım. Yəni mən doğuşdan müxalifəm, heç bir iqtidardan razı qalan deyiləm. Bunlar, necə deyərlər, mənim naçizanə səbəblərimdir.

Lakin bu hakimiyyət layiq olduğu yerdə deyilsə, orada haqsız yerə oturubsa, bizim müxalifət, daha dəqiq olsaq, bizim müxalifətin qaraçılar qanadı, dünəndən öz yerində deyil. Bunlar müxalifət məfhumuna təhqirdir. Hakimiyyəti "işğalçı rejim" adlandıran adamlar unudurlar ki, bu "işğalçıları" iş başına bunların liderləri, yəni özləri çağırıb. Ortada işğalçı olan varsa, özləridir. Müxalifət adına iddia edərək səs kirliliyi yaratdıqları, efiri məşğul etdikləri və "demokratik mübarizə"ni imitasiya etdikləri üçün. Doğrudur, zaman hər şeyi öz yerinə qoyur, amma bəzən zamana da kömək etmək lazım gəlir. Odur ki, bu hakimiyyəti devirməzdən əvvəl, bu qaraçı taborunu dağıtmaq lazımdır. Çünki mən bunlardan iyrənirəm, başa düşürsünüz, iyrənirəm.

Yox, adamın Allahı var, hakimiyyət əslində bu istiqamətdə iş aparır, - gənclərin başına öz adamını qoyur, müavin postunda öz adamını əyləşdirir; kameralar, qurğular, müxtəlif manipulyasiyalarla bu qaraçı taborunun iyrənc obrazını uğurla yaradır, babat məzələnir. Yəni belə baxanda, nə lazımdırsa edir. Amma məndən olsaydı, bu qədər məzələnməzdim. Bu çuşkaları darmadağın etməyin vaxtı yetişib artıq. İçəridəki serjant, leytenantlara də savad və profillərinə uyğun başqa iş tapmaq olar. Məmləkətdə işmi yox?

Bu qaraçıların sifətini görəndə, səslərini eşidəndə, səmimi sözümdür ətim tökülür. Baxın, ölkədə həyat davam edir - borulardan neft axır, fermerlər mal-qarasını sağır, təyyarələr enir-qalxır, banklarda milyonluq tranzaksiyalar keçirilir, uşaqlar dərsə gedir, toylar çalınır, bayramlar edilir, bu tərəfdə də bir ovuc adam, "Məhsul" stadionunda nəsə qışqırır. Özü də stadiona gələnlər həndəsi reqressiya ilə azalırlar. Əlbəttə azalmalıdırlar, ağlı başında adamın orda nə işi var?

Siyasi məhbusların azadlığı nə ABŞ-ın, nə Avropanın, nə Şərqin və nə də Qərbin əlində deyilsə, bir neçə yüz adamın orda şüar qışqırmağı nəyi dəyişməyə qadirdir? Hələ də aydın deyilmi ki, kimisə içəridən buraxıb buraxmamaq İlham Əliyevin müstəsna hüququdur? Hə, müxalifətəm ona görə də arada-bir mitinq keçirməliyəm ki, formda qalım deyirsənsə, bu başqa məsələ. O zaman xalqın adından danışma.

Bunlar, iqtidarın xalqa apellyasiya etməyindən tez-tez danışırlar, narazılıq bildirirlər. Halbuki iqtidarla bunlar arasında heç bir fərq yoxdur. Bir yanda "Xalq bizi dəstəkləyir, siyasətimizi bəyənir, ətrafımızda sıx birləşib" deyənlər, bir tərəfdə də "Xalq bu hakimiyyətə nifrət edir, devirməyə hazırdır" deyənlər. Həqiqət isə nəinki ortada deyil, heç bu diskursda iştirak etmir. Həqiqət öz işində, gücündədir. Həqiqət budur ki, xalq ikisindən də bezib, ikisindən də zəhləsi gedir. Xalq özünü düşünür, yaşamaq mücadiləsi verir. Bu ikisinin arasında qalmamaqdan, bu qarşıdurmadan minimum zərərlə çıxmaqdan ötrü sivişib qaçır, gizlənir. Deyir "Allah hər ikinizin bəlasını versin". Vallah deyir.

Nə isə ki, iqtidar da ağıllanıb. Əvvəl "mitinq keçirə bilmirik" bəhanəsini əlində bayraq edənlərin əlindən bu bəhanəni də alaraq, şəhərin mərkəzində "Məhsul" stadionunu ixtiyarlarına verib. Bilmirəm Rusiyanın, İsrailin, yoxsa Avropa ya ABŞ-ın texnoloqlarından eşidiblər, kim bunlara başa salıb, yol göstərib? Amma məndə əminlik var ki, "Məhsul"a getməyə icazə verməmək, özlərinin qərarı deyil. Bizim görməmiş hökumətin bu qədər ağıllı və uzaqgörən olduğuna inana bilmərəm. Amma siz "Xədicəyə yox, nəticəyə bax"ın. Artıq hər kəs, istədiyi zaman "Məhsul" stadionunda mitinq keçirə bilir, ya yox? Əlbəttə bu, biznesdir və bu biznesin azadlıqla, demokratiya ilə heç bir əlaqəsi yoxdur. Baxın tribunaya və əlinizi vicdanınıza qoyun - bu acgözlərmi Azərbaycanı idarə edəcək?

Yox, lazım deyil!

Eşitmişəm Müsavat da "Məhsul" stadionuna gedib orda nəsə qışqırmaq istəyir. Təklif edirəm hər kəs ora öz çörəyi, pendiri, kolbasası, butulkası, termosu ilə gəlsin, açıq havada iki saatlıq yeyib-içmək, əyləncə qurulsun. Payızda piknikin ləzzəti ayrı olur. Kolonkalar da var, musiqi qoymaq olar. Siz belə edin, görün ora beş min adam toplanır, ya toplanmır. Onsuz da 88-dən bəri eyni şüarları qışqırırsınız, heç olmasa bir dəfə imkan verin camaat əylənsin.

Bütün hallarda etiraz azadlığı bir illüziyadır və insanları bu haqqdan, etiraz illüziyasından məhrum etmək olmaz. Edəndə fəsadlar yaranır. Azərbaycan şəraitində etiraz və kütləvilik illüziyasının reallaşdığı məkan kimi "Məhsul" stadionu seçilib. Yaxşı seçimdir, hakimiyyətin "ASAN" xidmətindən sonra, ən böyük uğurlarından biridir.

***

İnsan yetişdirmək lazımdır, insan! Müxalifət partiyaları göstərdi ki, onlar insan yetişdirməyə qadir deyillər. Müxalifət partiyalarının gənclər siyasəti, "yeni insan" siyasəti iflas etmişdir. Əl-Fatihə!

Akademik Rafiq Əliyev auditoriyaya girəndə tələbələrinə deyirmiş ki, "Ayağa qalxmayın, içinizdəki köləni boğub öldürün". Bu söz, yeni Azərbaycanın qurulması yolunda, "Məhsul"da keçirilən əlli mitinqdən daha təsirli, faydalıdır. Mənə, "içindəki köləni boğan", stadionda futbol oynayan gənclər lazımdır, stadionda qışqıran gənclər yox.

**Mən də Seymur Baycana qoşulub gənclərimizi, insanlarımızı "Məhsul" stadionuna getməməyə çağırıram. Yeyib-içmək olmayacaqsa heç getməyin! Boş sözlərdən, boş şüarlardan qarnınız tox deyilmi sizin?**

# "Ermənistanın bütün gedişləri danışıqları nəticəsiz etməyə hesablanıb"

## Ekspertlər prezidentlərin Fransa görüşünün gözləntilərindən danışdılar; XİN rəsmisi Hikmət Hacıyev: "Azərbaycanın mövqeyi budur ki, artıq danışıqlar prosesi danışıqlar naminə deyil, konkret müstəvidə aparılmalıdır"

**Azərbaycan, Ermənistan və Fransa prezidentlərinin görüşü oktyabrın 27-də Yelisey sarayında baş tutacaq. APA-nın "Frans Press" Agentliyinə istinadən yaydığı məlumata görə, sammitin məqsədi iki ay əvvəl vəziyyətin ağırlaşmasından sonra Dağlıq Qarabağ münaqişəsi tərəfləri arasında dialoqu təmin etməkdir.**

Məlumatda bildirilir ki, üçtərəfli görüşdən sonra prezident Fransua Olland Azərbaycan və Ermənistan prezidentləri İlham Əliyev və Serj Sarkisyanla təkbətək görüşlər keçirəcək. Sammit çərçivəsində prezidentlərin ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşləri də olacaq. Prezidentlərin şərəfinə veriləcək rəsmi şam yeməyində Qafqazın gələcəyi ilə bağlı daha dərin mövzuların müzakirəsi gözlənilir.

Hər halda Rusiyanın uzun müddət üzərində dominantlıq etdiyi danışıqlar prosesinə bu dəfə rəsmi Parisin arbitrliyinin hansı məntiqi sonluqla bitəcəyi əsas müzakirə mövzularındandır. Yaxın tariximizdə baş verənlərin acı təcrübəsindən çıxış edərək vurğulaya bilərik ki, Moskvanın iradəsindən kənarda aparılan Qarabağ danışıqları hansısa sürprizlərlə müşayiət olunub. 1991-ci ilin 20 noyabrında böyük bir heyətlə Xankəndinə uçan azərbaycanlı dövlət rəsmilərinin təyyarədə məhv edilməsi, 1992-ci ilin 8 mayında Tehranın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan rəhbərliyinin İranda danışıqlar apardığı zaman Şuşanın işğal edilməsi, 1999-cu ilin payızında İstanbul sammitində münaqişənin tənzimlənməsi istiqamətində ciddi irəliləyişlərlə bağlı gözləntilər olduğu halda Ermənistan parlamenti gülləbaran edildi. Siyahını uzatmaq da olar. Elə yay aylarında cəbhə xəttində qarşılıqlı itkilərlə müşayiət olunan gərginliyin də arxasında Kremlin barmağının dayandığını hətta erməni ekspertlər də təsdiqləyib. Ancaq indiki məqamda, Putinin Ukrayna böhranı ilə bağlı sıxışdırıldığı, ölkənin böyük itkilərlə üzləşdiyi bir ərəfədə Ollandın təşəbbüsünü pozmaq üçün sürpriz hazırlayacağı daha az inandırıcı görünür. Amma şübhə yoxdur ki, daxildə hakimiyyəti xeyli laxlayan Sərkisyan Putinin iradəsindən kənar hansısa anlaşmaya gedən deyil.

**Qeyd edək ki, Fransanın Ermənistandakı səfiri Anri Reno Paris görüşündən dolayı gözləntiləri şərh edərkən deyib:** "Diplomatik təfərrüatlara varmadan qeyd edim ki, görüş nizamlama prosesinə konfliktin həllinə yönəlik yeni impuls verəcək. Vacib olan odur ki, hər iki tərəf etimad atmosferi yarada bilsin". Ancaq səfirin ardınca dedikləri təhlükənin anosu sayıla bilər. Onun sözlərinə görə, müzakirələrin əsasında üç prinsip duracaq: "Ərazi bütövlüyü, millətlərin öz müqəddəratını təyinetmə haqqı və güc tətbiqindən imtina".

**"Aykakan Jamanax" qəzetinin (Ermənistan) diplomatik qaynaqlara istinadən yaydığı xəbərdə "Azərbaycan və Ermənistan prezidentlərinin yaxın günlərdə Parisdə baş tutacaq danışıqlarında Dağlıq Qarabağ münaqişəsinə dair birgə bəyanatın imzalanması gözlənilir"** - deyə qeyd edilir. Erməni mətbuatına istinad edən virtualaz.org-un məlumatına görə, Fransa prezidenti Əliyevlə Sərkisyanın birgə bəyannamə imzalamasına nail olmağa çalışır. Qəzetimizin yazdığı kimi, Qərb tədricən Azərbaycanı həmin 3 prinsip əsasında "şotland variantı"na hazırlamaq istəyir. "Yəni Qərb problemi Rusiyanın nəzarətindən çıxarmaq üçün Azərbaycanın köklü maraqları hesabına da olsa, öz ssenarisini işə salmaqda israrlı görünür. Buradaca əlavə edək ki, amerikalı həmsədr Ceyms Uorlikin bu ilin yayında irəli sürdüyü 6 bəndlik həll təklifi də özündə çox incə və hiyləgər şəkildə "şotland ssenarisi"ni ehtiva edir". Nəzərlərin Parisə dikildiyi günlərdə bütün bu gözləntilər və ehtimallarla bağlı rəsmi və qeyri-rəsmi mövqeləri öyrənməyə çalışdıq.

**Sabiq dövlət müşaviri, politoloq Vəfa Quluzadə** isə bildirdi ki, danışıqların predmetini təşkil edəcəyi məsələlərin hər üçü mücərrəddir: "Ərazi bütövlüyü hamı tərəfindən etiraf edilib. Üstəlik, millətlərin haqqı məsələsinə də etiraz edən yoxdur. Həmçinin güc yolu ilə məsələni həll etməməklə bağlı prinsipə qarşı çıxan da yoxdur. Elə isə Parisdə dəfələrlə müzakirə olunan məsələləri müzakirə etməyə ehtiyac varmı?"


Vəfa Quluzadə


Elxan Mehdiyev


Hikmət Hacıyev

V.Quluzadə Kazimirovun üç planından sonuncusunu, ümumi dövlət modeli planını xatırlatdı: "Bu planların hamısında ərazi bütövlüyü, millətlərin öz müqəddəratını təyinetmə hüququ və gücdən imtina məsələləri var. Amma nə olsun, ortalıqda heç bir irəliləyiş yoxdur, torpaqlar işğal altında qalıb. Məsələlər belə müzakirə olunmamalıdır, konkret qoyulmalıdır. Ermənilərə Dağlıq Qarabağın statusu lazımdır. Bizim və beynəlxalq hüququn bu məsələdə mövqeyimiz məlumdur. Beynəlxalq hüquq Dağlıq Qarabağı bizim ərazi hesab edir. Elə isə Parisdə müzakirə açmaq olar ki, Ermənistan nə etmək istəyir? Yenədəmi beynəlxalq hüquqa, BMT-nin nizamnaməsinə məhəl qoymadan işğalı davam etdirmək fikrindədir? Ondan sonra öz müqəddəratını təyinetmə ilə bağlı konkret aydınlıq yaradılmalıdır. Məlumdur ki, hər bir ölkədə kiçik azlıqlar var, amma ölkələrin ərazi bütövlüyünü pozmurlar. Yəni məsələlər konkretləşdirilməlidir. Biz əgər müzakirələrə prinsiplərdən başlayırıqsa, deməli, heç nəyə nail olmayacağıq".

Sabiq müşavir deyir ki, əgər müzakirələr yuxarıda bəhs olunan məsələlərə həsr olunsa, Ollandın təşəbbüsü də fiaskoya uğrayacaq: "Gərək Ollandın ermənilərlə razılığı olsun ki, onlar Rusiyanın diktəsindən çıxsınlar və beynəlxalq hüquqa məhəl qoysunlar. Onda Azərbaycanla sülh mümkündür. Yoxsa ki, ermənilər Rusiyanın əsgəri müttəfiqi kimi qalırlar, üstəlik, Gömrük İttifaqına da daxil olur, bundan sonra büynəlxalq aləm istəyir ki, Azərbaycanla Ermənistan arasında irəliləyiş olsun".

**V.Quluzadənin fikrincə, Rusiya yüz faiz əmindir ki, Parisdə heç bir irəliləyiş olmayacaq:** "Əgər Sərkisyan Ollandın bütün təkliflərinə "hə" desə, sülhə razılaşsa, onda ölkəsinə qayıda bilməyəcək, Rusiyanın tapşırığı ilə ermənilər onu hakimiyyətdən qovacaq". Ekspert deyir ki, Parisdə böyük bir sabun köpüyü şişirdiləcək: "Fransa bu sabun köpüyünü böyük irəliləyiş kimi qələbə verməyə çalışacaq. Ancaq həmin 3 əsas prinsipin razılaşdırılması söhbəti o anlamı verir ki, 2 dəfə 2 dörd edir".

**"Azərbaycan və Ermənistan prezidentlərinin gələn həftə Parisdə Fransanın dövlət başçısı Fransua Olandın vasitəçiliyi ilə keçirəcəyi görüş Dağlıq Qarabağ danışıqlarında irəliləyişə gətirə bilərmi"**- sualına cavabında politoloqlar Elman Nəsirli və Elxan Mehdiyev də "Media forum"a münasibət bildirib. E.Nəsirov deyib ki, danışıqlara bəri başdan kölgə salan hadisələr baş verir: "Ermənistan öz ampluasındadır. Danışıqlar prosesini pozmaq üçün İrəvan hər zaman ya atəşkəs rejimini kəskin şəkildə pozur, ya da prezident, xarici işlər naziri, müdafiə naziri hərbi ritorikaya söykənən bəyanatlar verir, görüş mənasız olur. Bu dəfə əsir götürülmüş azərbaycanlılara qondarma məhkəmə prosesi qurmaq istəyirlər. Oktyabrın 27-də prezidentlərin görüşü təşkil olunur, həmin gün Xankəndidə girov azərbaycanlılara qeyri-qanuni məhkəmə qurulursa, deməli, Ermənistan narazılıq üçün yeni əsaslar yaradır.

Ermənistanın bütün gedişləri danışıqları nəticəsiz etmək və status-kvonu qoruyub saxlamağa hesablanıb. Ona görə bu hadisələr fonunda danışıqların pozitiv nəticələrinə xüsusi bir ümid yoxdur. Dünya, o cümlədən Rusiya mətbuatı bir fikri önə çəkir ki, Vladimir Putin avqustda prezidentlərin görüşünü təşkil edərkən prosesin payızda davam edəcəyini bəyan edib. Bu baxımdan daha çox maraq doğuran Rusiya prezidentinin yeni görüş təşkil edəcəyi, hansısa nəticələrin əldə olunacağıdır".

**Elxan Mehdiyev isə deyib ki, Paris görüşü haqda daha çox erməni tərəfə baxaraq fikir söyləyə bilir:** "Qarşı tərəf üçün bu görüş sadəcə danışıqları, işğalı uzatmaq, vaxt qazanmaq, məsələni 2015-ci ilə keçirmək üçün yeni mərhələdir. Gələn il qondarma erməni genosidinin 100 illiyidir, niyyət dünyanın bütün liderlərini İrəvana yığmaq və ermənilərin tarixdə genosidə məruz qaldıqlarını göstərmək, rəğbət qazanmaqdır. Növbəti ildə də onlar danışıqlar mərhələsini daha asan aşmağa çalışacaq, prosesi 2016-cı ilə keçirəcəklər.

Ermənistanın strategiyası məsələni uzatmaqdır. Fransa tərəflər arasında inam yaratmağa çalışacağını deyir. İşğal kənarda qalıb, vasitəçilərin, Fransanın təşəbbüsü ona yönəlib ki, işğalı uzatmaq üçün təmas xəttində inam yaradan tədbirlər görülsün. Bu kimə lazımdır: Azərbaycan xalqına? Bizə torpaqları işğaldan azad etmək lazımdır, yoxsa təmas xəttində ermənilərə sakitlik yaratmaq? Paradoksal vəziyyət yaranıb".

Hazırda Dağlıq Qarabağ danışıqları Madrid prinsipləri üzrə aparılır. Madrid sənədinə görə, Ermənistan qoşunları ilk mərhələdə Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilandan çıxmalı, Laçın və Kəlbəcər ikinci mərhələdə boşaldılmalıdır. Prinsiplər Ermənistanla Dağlıq Qarabağı birləşdirən dəhlizin yaradılmasını, Dağlıq Qarabağın yekun statusunu həmin bölgədə keçiriləcək referendumda müəyyən etməyi də nəzərdə tutur.

**XİN-in mətbuat katibi Hikmət Hacıyev** isə "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, söhbət ölkə prezidentinin görüşündən getdiyi üçün nazirlik hadisələri qabaqlayıb hansısa fikir bildirə bilməz: "Hansısa yenilik olsa, prezidentin mətbuat xidməti məlumat verəcək. İndiki halda isə biz prosesləri qabaqlamaq istəməzdik".

**XİN başçısı Elmar Məmmədyarovun Böyük Sülh Sazişi ilə bağlı anonsuna gəldikdə, H.Hacıyev bunları bildirdi:** "Cənab Məmmədyarov tərəfindən qeyd edilib ki, danışıqlar prosesində artıq Böyük Sülh Sazişi üzərində iş aparmaq lazımdır. Ermənistan tərəfi münaqişənin sülh yolu həll edilməsi istiqamətində müəyyən fikirlər söyləsə də, konkret müstəviyə gəldikdə, biz görürük ki, Ermənistan müxtəlif bəhanələrlə, o cümlədən təxribatçı əməlləri ilə prosesin əsl mahiyyətindən yayınmağa çalışır. Ona görə də Azərbaycanın mövqeyi budur ki, artıq danışıqlar prosesi danışıqlar naminə deyil, konkret müstəvidə aparılmalıdır. Bizim tərəfimizdən artıq hərtərəfli sülh sazişi üzərində iş aparılması nəzərdə tutulur. Xarici işlər naziri Elmar Məmmədyarov onu da qeyd edib ki, hərtərəfli sülh sazişi bir çox elementlərdən ibarət ola bilər. Odur ki, artıq onun alt elementləri və strukturları üzrə bir strukturlaşmış danışıqlara başlamağın vaxtıdır. Amma təəssüf ki, Ermənistan tərəfi yenə də ənənəsinə sadiq qalaraq bu müstəvidə danışıqları davam etditmək əvəzinə, müxtəlif bəhanələri, mahiyyətə aid olmayan məsələləri gündəmə gətirməklə əsl mövzudan, danışıqların predmetli və praktiki müstəvidə aparılmasından yayınmağa çalışır". H.Hacıyev "şotland variantı" barədə iddialara da münasibət bildirdi: "Danışıqlar prosesində Azərbaycanın mövqeyi qətidir. Bu, bütün səviyyələrdə dəfələrlə bəyan olunub. Danışıqlar prosesinin əsas mahiyyəti ondan ibarətdir ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi təmin olunmalıdır".

# 9 ayda Ermənistanı daha 113 min nəfər tərk edib

**Ermənistan parlamentinin deputatı, müxalifətdəki Erməni Milli Konqresinin üzvü Aram Manukyan ölkəni tərk edənlərin sayının artmasından narahatlığını bildirib. Modern.az Ermənistan mətbuatına istinadən xəbər verir ki, parlementin brifinq zalında jurnalistlərin qarşısına çıxan Manukyan hər il ölkəni 110-120 min insanın tərk etdiyini və buna görə Sərkisyan hakimiyyətinin günahkar olduğunu deyib: "Ermənistan ciddi təhlükə ilə - mühacirətlə üzləşib. Bunda günahkar indiki ölkə rəhbərliyidir".**

Manukyan bildirib ki, bu ilin 9 ayında ölkəni 113 min insan tərk edib. Deputatın fikrincə, onların 60 mini daimi əsasda ölkədən gedənlərdir.

Erməni Milli Konqresinin üzvü sadə xalqın Sərksiyan hakimiyyətinin dəyişməsini arzuladığını vurğulayıb: "Xalq arasında elə insan yoxdur ki, hakimiyyətin dəyişməsini istəməsin. Bunu yalnız dövlət orqanlarında vəzifəsi olan şəxslər istəmir".

BMT hesabatlarında 3 milyon əhalisi olan Ermənistan yüksək mühacirət, aşağı doğum faizi və bu səbəblərdən əhali tərkibinin sürətlə qocaldığı ölkələr sırasındadır.



YENİ MÜSAVAT
N 263 (5972) 25 oktyabr 2014


Kamran Məhərrəmli

# Cinayəti törədən azadlıqda, iştirakçı isə həbsdə

## Kamran Məhərrəmli: "Prezidentə müraciət edirik ki, bu işin ədalətli araşdırılmasına göstəriş versin"

**"Yusif Məhərrəmov deyir ki, qatil mənəm, siz günahsız adamı həbs edirsiniz. Amma məhkəmə onu açıb buraxır və günahsız olan 17 yaşlı Knyaz Knyazlıya cəza verir. Biz Knyazın ailə üzvləri olaraq ölkə prezidentinə müraciət edirik ki, bu işin ədalətli araşdırılmasına göstəriş versin və öz nəzarətinə götürsün". Bu sözləri "Yeni Müsavat"a müraciət edən K.Knyazlının əmisi Kamran Məhərrəmli deyib.**

O, hüquq-mühafizə orqanlarının, Xətai rayon Prokurorluğunun qardaşı oğluna qarşı aqressiv münasibət sərgilədiyini bildirib. Bu məsələnin kökündə nəyin dayanmasından isə məlumatsız olduqlarını bildirdi: "İttihama görə 2013-cü il avqustun 30-da Knyaz Knyazlı Bakı sakini Ceyhun Məqsədovu bıçaqlayıb. Hadisə metronun "Xətai" stansiyası yaxınlığında baş verib. Yetkinlik yaşına çatmayan Ceyhun Maqsudov xəstəxanaya yerləşdirisə də, hadisədən üç gün sonra ölüb. Yusif Məhərrəmov isə guya hadisənin iştirakçısı olub. Əslində isə istintaq cinayəti törədənlə hadisə iştirakçısının yerini dəyişib. İstintaq əvvəlcə düzgün aparılırdı. Sonradan isə qəfil dəyişiklik oldu. Knyazı qətli törədən, Yusif Məhərrəmovu isə iştirakçı elan etdilər. Biz Knyazın ailə üzvləri bu dəyişikliyin nədən baş verdiyini anlamırıq. Sadəcə istintaqın Knyaza qarşı bu cür aqressiv, qeyri-adekvat olmasının səbəbini bilmirik".

**K.Məhərrəmli deyir ki, məhkəmə istintaqı zamanı Yusif Məhərrəmov dönə-dönə cinayəti törətdiyini hakimlərin diqqətinə çatdırıb. Lakin ibtidai istintaqda olduğu kimi məhkəmədə də ona qulaq asan olmayıb:** "Yusif məhkəmədə özünü ülgüclə doğradı. Hakimlər də sanki sifariş yerinə yetirirmişlər kimi onun dediklərinə əhəmiyyət vermədilər. Sonda Yusifi məhkəmə zalından azad etdilər, Knyaza isə 10 il azadlıqdan məhrumetmə cəzası verildi".

**K.Məhərəmovun sözlərinə görə məhkəmə zalında azad olunan Y.Məhərrəmov məhkəmə inasından çıxandan sonra tutularaq Xətai Rayon Polis İdarəsinə aparılıb:** "Onu 2 gün saxladılar. Dedilər ki, güya hansısa başqa cinayətdə adı keçir. Sonra da açıb buraxdılar. Biz ədalətli istintaq, məhkəmə araşdırıması tələb edirik".

❑ E.MƏMMƏDƏLİYEV



# Dəhşətli qətllərin baiskarı kim və ya nədir?

## Ailədaxili münaqişə zəminində tükürpədici cinayətlərin ardı-arası kəsilmir, "Goranboy qətliamı" unudulub; Həmid Herisçi: "Bir televiziyanı açın - xəyanət, boşanma, gərginlik; bu, insanların psixikasına təsir edir, günah telekanallardadır"

**Ölkədə film kimi cinayətlərin statistikası və rəngləri dəyişməkdə davam edir. Goranboyda 7 nəfəri qətlə yetirən Səfikürd kənd sakini Rafiq Hüseynovun qətliamı da artıq unudulmaq üzrədir. Bu da səbəbsiz deyil. Çünki oktyabrın 22 və 23-də baş verən qətllər Goranboy hadisəsini arxa planda qoyub. Beləliklə, Markesin "Gözlənilən qətlin tarixçəsi" Azərbaycanda real motivlərlə təzahür tapmaqdadır.**

Söhbət bacısının boğazını kəsərək qətlə yetirən Pərvanə Nuriyevadan gedir. Bir mənzildə yaşayan üç tələbə bacıdan biri məzara, biri məhbəsə getdi. Qatil isə bacısının cinsi azlıq nümayəndəsi olmasından qəzəblənərək bu addımı atdığını bildirib. Azərbaycan nümunəsində 20 yaşlı gənc qızın bacısını belə amansızlıqla qətlə yetirməsi yeni faktdır.

Ardınca Xırdalanda Fatimə Qurbanova oğlu Elşən Nağızadə tərəfindən boğularaq öldürüldü. H.Nağızadə ilkin istintaq zamanı deyib ki, anasını başqa kişilərlə oturub-durmaqda şübhələndiyi üçün öldürüb. Lakin qatil şübhəsinin təsdiqlənmədiyini də vurğulayıb.

O deyib ki, anası günahsız olduğunu bildirib. Buna baxmayaraq, gənc oğlan anasını boğaraq qətlə yetirib. Və qətllər bununla bitmir. Artıq böyük bir statistika yaranıb. Bir növ Götenin "Gənc Verterin iztirabları" Azərbaycansayağı üslubda realizə olunmaqdadır.

**Yazıçı - konspiroloq, bir neçə telelayihənin müəllifi Həmid Herisçi** qətllərin əsas leytmotivini efirdə görür. Onun fikrincə, televiziya ailələrin bir üzvünə çevrilib və insanların psixikasını pozmaqla məşğuldur.

"Bu silsilə qətllərin əsas günahkarı mass-mediadır. Telekanallar göz yaşları içində ailə-məişət mövzusunda verilişlər hazırlayır. Siz bir televiziyanı açın - xəyanət, boşanma, gərginlik, göz yaşı, dramatik musiqi tərtibatı, itirdiyi doğmalarını axtaranlar, ərini aldadanlar və bu, insanların psixikasına təsir edir. Efirdən ictimai-siyasi verilişlər azaldıldı və yerini ailə-məişət mövzusunda mənasız proqramlar doldurdu. Ona görə də birbaşa günahı televiziyada görürəm. Efir ya insanın həyatının aynası olur, ya da həyatına təsiri ,"- deyə H.Herisçi belə düşünür.

**H.Herisçi bu səpkidə verilişlərin bağlanmasının tərəfdarıdır:** "Sovet vaxtında ailə-məişət zəminində qətl hadisəsi xəbər verilmirdi. Bu, onun şəxsi həyatıdır. Amma indi bütün efiri zəbt edib. Mən yazılarımda da deyirdim ki, bunu belə etmək olmaz, axırı pis olacaq.

**Baxın, bu gün nəticələr göz qabağındadır. Hələ bundan sonra silsilə qətllər daha da artacaq. Çünki efirdə ictimai, mədəni, tarixi verilişlər yoxdur. Mən yeni telelayihəyə başlayıram və tamaşaçıya da bunu çatdırmaq istəyirəm ki, Çingiz xan var, Əmir Teymur var, tarixi mövzuları müzakirə etmək lazımdır.** Yoxsa dramatik musiqi ilə ailə xəyanətlərini təqdim edirlər, seksual xarakterli məsələləri ortaya çıxarırlar. Ədəbiyyatda da bu baş verir. Nəticəsini də görürük. Əsasən də rayonlarda qətllər olur. Əyalətlərdə televiziya insanların bir ailə üzvüdür, bütün günü açıq qoyub baxır. Nə qəzet, nə kitabla bu qədər maraqlanır. Yəni, Qərbin 200 ilə keçdiyi yolu biz 1 ilə keçmək istəyəndə ortaya silsilə qətllər çıxacaq. Qeyri-ənənəvi təriqətlər, oriyentasiyalar ikinci dərəcəli problemdir. Mən əsas baiskar televiziyanı görürəm. Verilişlər sırf ailə-məişətdən qırağa çıxa bilmir. Aparıcıların səsləri, nitqi efirə ziddir, tarixi, ictimai-siyasi verilişlər hazırlaya bilmirlər. Ona görə ən rahat yolu tapıblar - ailədaxili problemləri camaata göstərirlər".

❑ E.SALAMOĞLU

# İŞİD-ə Azərbaycanın şimal bölgəsindən qoşulanlar niyə çoxdur?

## Ölkənin şimal və şimal-qərb zonasından daha çox radikal təriqət üzvləri Suriya döyüşlərində iştiraka gedir; İlham İsmayıl: "Rusiya faktoruna görə bu zonada həmişə fəallıq olub"



**Suriya və İraq torpaqlarında döyüşən azərbaycanlıların ölüm xəbərlərinin ardı-arası kəsilmir. "İslam Dövləti" terror təşkilatına qoşulan həmyerlilərimizin sayı dəqiq bilinmir. Suriyadakı "Qafqaz ordusu"nda azərbaycanlıların sayca az olmadığı göz qabağındadır. Lakin diqqət çəkən məqam "cihad"a qoşulanların əsasən şimal və şimal-qərb bölgələrindən olmasıdır.**

Ölkənin qərb, cənub zonalarından İŞİD, Əl-Nusra terrorçularına qoşulan demək olar ki, yoxdur. Aran bölgəsində isə Salyan, Neftçala və Şirvandan döyüşməyə gedənlər olub. Ancaq Suriyada döyüşən azərbaycanlıların çox hissəsi şimal bölgəsi rayonlarından olanlardır.

Qeyri-rəsmi məlumatlara görə, təkcə Şəki və Zaqatala bölgəsindən Suriyaya gedənlərin sayı 250 nəfəri ötüb. Xaçmaz rayonundan son dövrdə təxminən 30-a yaxın sakin döyüşmək üçün gedib. Ümumiyyətlə, Azərbaycanın şimal bölgəsindən 100-ə yaxın adamın Suriyada vuruşduğu bildirilir.

Gedənlər arasında ailəvi azərbaycanlıların daha çox üstünlük təşkil etdiyi bildirilir. Eyni zamanda, Quba, Qusar, Zaqatala-Balakən, İsmayıllıdan İŞİD-ə qatılanlar olub. Elə son olaraq İsmayıllıda güləş üzrə ölkə çempionu Rəşad Baxşəliyevin adını çəkmək mümkündür. Onun döyüşlərdə öldürüldüyü xəbəri yayılıb.

**Təhlükəsizlik Araşdırmaları Mərkəzinin rəhbəri, Milli Təhlükəsizlik Nazirliyinin sabiq polkovniki İlham İsmayıl hesab edir ki, şimal zonasından Suriyaya gedənlərin çox olmasının səbəbi var. Sabiq polkovnikin sözlərinə görə, Rusiyanın Şimali Qafqazda hər zamanda ərəb ölkələrindən gələn terror aktlarına, milli azadlıq hərəkatı adlanan hadisələrə təsiri olub:** "Eyni zamanda, Azərbaycan tranzit ölkə kimi istifadə olunub. Bu gün də əsasən Zaqatala, Qusar və digər bölgələrdən daha çox radikal təriqətlərə qoşulanlar var. Ancaq təkcə şimal zonasını hesab etmək olmaz. Bakı, Sumqayıt və başqa şəhərlərdən də İŞİD qruplaşmalarına qatılanlar var. Sadəcə, Rusiya faktoruna görə həmişə şimal zonasından daha çox fəallıq olub".

**İ.İsmayılın fikrincə, Yaxın Şərqdə döyüşlərdə iştirak edib geri qayıdan azərbaycanlıları potensial terrorçulardır:** "Onların arasında qayıdanlar da var. Bu yaxınlarda Milli Təhlükəsizlik Nazirliyi əməliyyat keçirdi və şübhəli şəxs qismində 26 nəfəri həbs etdi. Radikal qruplar bizim üçün o zaman təhlükəli olardı ki, nəzarətsiz buraxılardılar. Azərbaycanda nəzarət var və nümunələrinin şahidiyik".

**Ekspert Qafqaz Müsəlmanlar İdarəsi (QMİ) və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin keçirdiyi müşavirədə radikalizmlə bağlı narahatlıqların dilə gətirilməsini təbii hal sayır:** "Əgər söhbət radikallıqdan gedirsə, narahat olmağa əsas var. Yaxşı haldır ki, dini komitə də, QMİ də narahatlıqlarını bildirirlər. Deməli, nəzarət var. Çünki hər iki qurumun üzərinə məsuliyyət düşür. İlk növbədə dini maarifçilik olmalıdır".

**Müsahibimiz Azərbaycan tərəfinin radikal qrupların güclənməsində hansı boşluqlar buraxdığını açıqladı:** "Əslində radikalizmin güclənməsi Azərbaycanın yox, bəşəriyyətin problemidir. Azərbaycan da xəritədə müsəlman ölkəsidir. İdeoloji cəhətdən hazırlanmış adamlarla mübarizə çətin olur. Ən inkişaf etmiş müsəlman ölkələrində belə bu problemlər meydana gəlir. Azərbaycan tərəfinin buraxdığı boşluq onda olub ki, dini maarifçiliyin səviyyəsi aşağıdır. Yəni radikalizm iqtisadi problemlərdən doğmayıb. Ancaq bu boşluqlar maariflənmə ilə doldurula bilər, kompleks proqramla problem aradan qaldırıla bilər".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu** isə axar.az-a deyib ki, Azərbaycanda vəziyyət başqadır: "Nə Rusiya dövlət səviyyəsində, nə də Şimali Qafqazda yaranmış problem təbii yolla ölkədə çaxnaşma yarada bilməz. Birincisi, inanmıram ki, Rusiya Azərbaycanda din faktorundan istifadə etsin. Çünki bu, Rusiya üçün bumeranq effekt göstərə bilər.

İkincisi isə Azərbaycanda vəziyyətin nəzarət altında olmasıdır. Dini radikalizm çərçivəsində nəzarət çox güclüdür. Buna görə də yaxın zamanlarda Suriya hadisələrini Azərbaycanda yox, Şimali Qafqazda görə bilərik".

❑ E.SALAMOĞLU

YENİ MÜSAVAT
N 263 (5972) 25 oktyabr 2014

**Müsavat Partiyasının keçmiş MNTK üzvü Əlövsət Talışxanlı bu günlərdə müsahibələrinin birində Məclis üzvü Osman Kazımov barəsində ağır ittihamlar səsləndirib. Ə.Talışxanlı musavat.com-a demişdi ki, 1993-cü ilin yayında İsa Qəmbər həbsdə olanda Osman Kazımov Surət Hüseynovun qiyamçılarını Füzuli rayonunda təntənə ilə qarşılamağa hazırlaşırmış.**

# Osman Kazımovdan Əlövsət Talışxanlıya sərt cavab

## "Ləyaqətsiz, əxlaqsız ifadələr işlədən insanlara Müsavatda yer yoxdur"

O, partiyadaşı O.Kazımov haqda başqa ittihamlar da səsləndirmişdi. Kazımovun partiyada təmizləmə aparmaq təklifinə özünəməxsus formada reaksiya verən Talışxanlı bunları demişdi: "Səxavət Əlisoyun bu barədə yazdıqları ilə tanışam. Osman Kazımovun dilindən səslənib ki, "37-ci ilin Stalin repressiyaları"nın dalğası kimi, Müsavatı təmizləmək lazımdır. Həmin Osman Kazımov eşitdiyimə görə, Surət Hüseynovun Gəncə qiyamı zamanı onu təntənə ilə qarşılayıb. Bizi partiyadan xaric etmək istəklərinə məhz 37-ci ilin repressiya dalğası kimi baxıram. Tənqidə görə, təşkilatda partiyadan çıxarmaq məsələsi yoxdur. Hazırda Osman Kazımovun bu çağırışı bir növ Xəlil Rzanın "davam edir 37, daha kəskin, daha ciddi" şerində deyilənlərə bənzəyir. Osman Kazımov da həmin sistemin yetirməsidir. Onun üçün nə nizamnamə, nə qanun var".

**Osman Kazımov isə "Yeni Müsavat"a açıqlamasında barəsində səslənən ittihamlara belə cavab verib:** "Əlövsət Talışxanlı tamamilə yanlış fikirlər səsləndirir. Bunun haradan qaynaqlandığını bilmirəm. Mən icra hakimiyyətində heç vaxt hüquq şöbəsinin müdiri olmamışam. Onun dedikləri böhtan xarakterlidir. Həqiqətə uyğun olmayan yalanlar danışır. Surət Hüseynov məsələsinə gəldikdə isə, bu, bir dövlət çevrilişidir. Təəssüf ki, hazırda bunun acısını yaşayırıq. 1993-cü il hadisələri ilə əlaqədar Qubadlıda o ərazidə yerləşən icra nümayəndələri və cəbhəçilərlə görüşümüz olub. Həmin görüşdə baş verən hadisə qiyam kimi qiymətləndirilib. Bu bəyanatın əsas müəlliflərindən biri mənəm. Həmin dövrdə Füzuli rayon İcra Hakimiyyətində 1-ci müavin olmuşam. Bakıya gələrək Prezident Aparatında Əliməmməd Nuriyevlə görüşərək, Füzulidəki batalyonun qiyamı yatırmağa hazır olduğunu bildirmişəm. O da Əli Kərimliyə məlumat verdi. Bildirdilər ki, Elçibəy qan tökülməsini istəmir. Əlövsət Talışxanlı bunları bilsə daha yaxşı olar. Onun dedikləri absurd iddiadır. Qaldı ki, İsa bəy həbsdə olanda guya mənim gözləmə mövqeyi tutmağıma... Sadəcə onu deyə bilərəm ki, Əlövsət bəy çox fantaziya quran insandır. Onun ən yaxın insanının müdafiəsində iştirak etmişəm. Çox təəssüf ki, təmənnasız. Buna indi təəssüflənirəm. Hər bir halda haqqımı onun qohumuna halal edirəm".


Osman Kazımov

**Osman Kazımov Əlövsət Talışxanlının onun çağırışını "davam edir 37" cümləsi ilə ifadə etməsinə də aydınlıq gətirib:** "Neçə gündür belə çağırış etdiyimi axtarıram, özüm də tapa bilmirəm. Statusumda yazmışdım ki, nizamnaməni pozanlar barədə tədbirlər görülməlidir. Şəhid ailəsi haqqında elə ifadələr işlədirlər ki, insanı dəhşət bürüyür. Belələri haqqında tədbir görülməməlidir? Müsavatın adına ləkə gətirən, böhtan xarakterli kampaniya aparanlar cəzalandırılmamalıdır? Nizamnamə nə üçündür? Ellada Məmmədli deyir ki, guya mən 2005-dən Qubad bəylə kin saxlayıram. Həmin dövrdə seçicilərə müraciətim var. Onu müdafiə etmişəm. Kifayət qədər Qubad bəyin seçkisinə təsirim olub. Onlar yalan danışırlar. Qurultaydan sonra gərginliyi artırmaq üçün siyahı ortaya atılıb. Bunlardan xəbərim belə yoxdur. Kimsə bir söz deyəndə vicdanını başının üzərində hiss etməlidir. Əlövsət Talışxanlı o adamdır ki, qurultayda hesabat verəndə heç bir saxtakarlığın olmadığını bildirib. Qubad bəy məğlub olandan sonra pozuntular üzə çıxdı? Bu sualı ona verin. O zaman onun səmimiyyətinin nə yerdə olduğunu görəcəksiniz. Müsavat qanunlarla idarə olunan partiyadır. Hər bir üzv ləyaqəti yüksək tutmalıdır. Deyirlər ki, Müsavat bitib. O zaman bitmiş partiyada nə işiniz var? Ləyaqətsiz, əxlaqsız ifadələr işlədən insanlara Müsavatda yer yoxdur. Arif bəyin adamları belə nizamnaməni pozurlarsa, cəzalandırılmalıdır. Fikir versəniz o insanların haraya müsahibə verdiklərini görərsiniz. Müsavatı bəyənməyən mətbuat orqanları və kanallar indi həvəslə partiyanı gözdən salmaq üçün hər şey edirlər. Bu insanlar da həmin KİV-nə müsahibə verirlər".

**O.Kazımov Səxavət Əlisoyun onu Beriya, Arif Hacılını isə Stalinlə müqayisə etməsinə də münasibət bildirdi:** "Nizamnaməyə əməl olunmasını bildirirəm, məni Beriya ilə müqayisə edirlər. Çox gülməli fikirlərdir. Bu narazılıqların nəticəsi olmayacaq. Müsavatı dağıtmaq mümkün deyil. Ola bilsin ki, 5-3 nəfər getsin. Bunların bəziləri yorulmuş insanlardır. İndiki situasiyanı bəhanə gətirərək, partiyadan gedirlər. İndiyə qədər rayon təşkilatlarından istefa ərizəsi təqdim edən olmayıb. Bilmirəm bu tənqidlər niyə məhz mənə ünvanlanır. Nə başqan müaviniyəm, nə Divan üzvü. Sadəcə bunlar Məclisə namizədliyimin hallanmasından sonra başladı. Bütün problemlər səngiyəcək. Müsavat yenə bir olacaq. Hər kəs də etdiyi hərəkətə görə vicdan əzabı çəkəcək".

**O.Kazımov Qubad İbadoğlu barədə də danışıb:** "Qubad bəy deyir ki, partiyada qalıb fəaliyyətini davam etdirəcək. Amma tərəfdarları istefa verirlər. O zaman bir sual meydana çıxır. Qubad bəy, partiyada qalıb kiminlə mübarizə aparacaqsan? Seçkili orqanlarda tərəfdarın yoxdusa, iştirak etmirsənsə, mübarizən necə olacaq? Mənim üçün maraqlı olan budur. Qubad bəy daha çox tərəfdarlarının Müsavatda qalmasına can atmalıdır. Mövqelərini möhkəmləndirməlidir. Yersiz bəyanatların mənası yoxdur".

❑ **Cavanşir ABBASLI**

# Asilər yeni başqanın "təmizləmə aparmayacam" vədinə inanırmı?


**Ellada Məmmədli:** "Arif Hacılının dediklərinə inanmaq istərdim, amma..."


**Əlövsət Talışxanlı:** "Onun dedikləri uşaqaldatma oyunundan başqa bir şeyə yaramır"


**Səxavət Əlisoy:** "O, ilk öncə özünün və qardaşının danışıqlarına qiymət versin..."


**Hüseyn Məlik:** "Mən Arif bəyin heç bir vədinə inanmıram"

**Müsavat Partiyasında başqanlıq seçkisi ilə müşayiət olunan son qurultaydan 1 aya yaxın vaxt keçsə də gərginlik səngimir. Qarşılıqlı ittihamlar, tənqidlər, hətta təhqirlər müsavatçılar arasında bir neçə cəbhənin yaranmasına səbəb olub. Partiya rəhbərliyi isə hələ ki, narazılarla görüşməyib.**

Ümumi rəy belədir ki, Nəzarət Təftiş Komissiyası tam formalaşana kimi partiyada təmizləmə başlayacaq və narazılar partiyadan çıxarılacaq. Hətta yeni başqanın tərəfdarlarından olan Osman Kazımov da bununla bağlı təklif səsləndirib. Onun bu təklifi anons kimi qəbul edilir və bildirilir ki, hələlik təkcə bir nəfərin dilindən səslənsə də, bu cür təkliflər yetərincədir. Ancaq **yeni başqan Arif Hacılı** "Yeni Müsavat"a müsahibəsində bildirib ki, təmizləmə əməliyyatı olmayacaq: "Mən insanların öz fikirlərini açıq surətdə ifadə edə bilməsini azad cəmiyyətin qurulması üçün vacib şərt sayıram. Plüralizmi, ictimai diskussiyaları demokratiyanın, təşkilatın inkişafı baxımından həmişə əhəmiyyətli hesab etmişəm. Təbii ki, heç bir partiya üzvü fərqli mövqeyinə, fərqli düşüncəsinə görə cəzalandırıla bilməz. Müsavatda buna heç vaxt yol verilməyəcək. Əksinə, biz diskussiyalar şəraitini, plüralizmi, fikirlərin açıq şəkildə ifadə edilməsinə həmişə şərait yaratmağa çalışmışıq. Bu cür davranış qaydaları daha da inkişaf etdiriləcək".

**O, bildirib ki, Nəzarət Təftiş Komissiyası partiya içində olan narazılıqlarla bağlı şikayət ərizələrinə baxacaq və müvafiq qərarlar qəbul edəcək:** "Bizim MNTK-ya hər hansı göstəriş vermək səlahiyyətimiz yoxdur. MNTK-nın üzvləri də bizim partiyada silahdaşlarımızdır, onlardan da xahiş edəcəyik ki, heç kəsə fikirlərinə, işlətdiyi ifadələrə görə ağır cəza verməsinlər. Təmizləmə siyasəti aparılmayacaq. Belə bir siyasətin Müsavat Partiyasında aparılması qeyri-mümkündür". Yeni başqan vəd də verib: "Mən Müsavat Partiyasının başqanı kimi çalışacağam ki, cəzalar ağır olmasın. Müsavat Partiyasında ən ağır cəza partiya sıralarından çıxarılmaq cəzasıdır".

Maraqlıdır, qurultayın nəticələrindən narazı qalanlar yeni başqanın vədinə inanırlarmı?

Bu haqda rəyini öyrəndiyimiz müsavatçılar fərqli münasibət sərgilədilər. **Müsavat Qadınlar Birliyinin sədri Ellada Məmmədli** bildirir ki, deyilən fikirlərin nəticəsi olmalıdır: "Deyirlər ki, ziyan vuranlar partiyadan çıxarılmalıdır. Tənqid etmək ziyan vurmaq deməkdir? İstəyirlər ki, hamı bir şəxsə tabe olsun? Hər kəsin öz fikri var və hər kəs öz fikrini söyləməkdə azaddır. Düşünürəm ki, Arif Hacılının dedikləri kağız üzərində qalmamalıdır, əməli nəticəsi olmalıdır. Çox təəssüf ki, hələ ki, nəticəsini görmürəm".

**Əlövsət Talışxanlı** isə qeyd edib ki, partiyanın nizamnaməsi var və onlar bunun əsasında hərəkət edirlər. "Qurultayla bağlı fikirlərimizi bildirmişik, onların araşdırılması ilə məşğul olsunlar. Arif Hacılının "ağır cəzalar olmayacaq" deməsi uşağa "qorxma, səninlə işim yoxdur",- deməyə bənzəyir. Partiya rəhbəri məsələlərə tamamilə fərqli yanaşmalıdır. Biz onlardan cavab gözləyirik, mövcud nizamnamə çərçivəsində müraciət etmişik və o çərçivədə də cavab gözləyirik. Buyurub araşdırsınlar, baxsınlar, narazı dedikləri adamların cavablarını versinlər".

**Dünyaxanım Cərullayeva** isə deyib ki, yeni başqanın vədinə əməl edəcəyinə ümidlidir: "Biz heç hara getmirik. Biz Müsavata bu gün gəlməmişik, illərimizi qoymuşuq. İndi təmizləmələrin aparılması təklif edilir, bunu nəyə görə deyirlər? Hamısı sosial şəbəkədəki o gizli qrupun aşkarlanmasından sonra başladı, orada Arif bəyin tərəfdarları təhqir yazmışdı. Arif bəy öz tərəfdarlarına təpki göstərsəydi, onlar bunu etməzdilər. Yaxud, təmizləmə barədə bəyanatlar verməzdilər. Ancaq düşünürəm ki, vəziyyət belə qalmayacaq, Arif bəy vədini yerinə yetirəcək. Biz nə ediriksə Müsavat üçün edirik".

**Narazılardan Səxavət Əlisoy** isə bu cür fikirlərin nəticəsinin olacağına inanmır: "Birincisi, Arif Hacılı seçkidən sonra ardıcıl olaraq yazdıqlarını bir yerə yığıb oxusun, gərəkirsə, yazıları psixoloji ekspertizaya göndərək. Adam bir gün qucaqlaşmaqdan danışır, sonra xəyanətdən. Yaxşı ki, əllərində digər resurslar yoxdur, həbsə atmaq, ac saxlamaq, susuz saxlamaq. Nizamnamə dəyişikliyi barədə söhbətlər var, yəqin bunları da edəcəklər. Onlar eyforiya yaşayırlar, düşünmə qabiliyyətindən məhrum olublar. Onun kuliminasiyasını Arif Hacılı yaşayır. Onun hələ beynində oturmayıb ki, başqan olmaqla insanlara qarşı münasibəti köküdən dəyişməlidir. Ayıbdır. O, özünün və qardaşının danışıqlarına qiymət versin, sonra digər müsavatçılara ağıl verə bilər".

**Hüseyn Məlik isə deyib ki, Arif Hacılının bu bəyanatı da sadəcə söz xatirinə deyilib:** "Vədin yerinə yetiriləcəyinə inanmıram. Bir tərəfdən partiya üzvləri arasında qucaqlaşmaqdan danışır, ancaq qardaşı Mustafa feysbukda Vurğun Əyyubu aşağılayır Buna görə Arif bəyin səmimiyyətinə inanmıram, dediyi sözlərin də heç birinə inanmıram".

Yeri gəlmişkən, iki gün əvvəl Müsavatın Qubadlı rayon təşkilatının üzvü Məhəbbət Muradov partiyadan qovulub. **Qubadlı rayon təşkilatının sədri Nazim Əliyev** bildirib ki, M.Muradov partiyanın nizamnaməsini pozduğu üçün Müsavatdan xaric edilib: "Onun yetərincə qanun və nizamnamə pozuntuları var. O, islah olunan birisi olmadığı üçün yekdilliklə partiyadan çıxarılmasına qərar verilib".

**Narazılardan olan Rahib Mirələmov** isə Moderator.az-a bildirib ki, onu ən çox Arif Hacılının tərəfini tutmayanların partiyadan sıxışdırılması narahat edir: "Mətbuatda öz fikirlərini, iradlarını dilə gətirən üzvlərə bu münasibət başadüşülən deyil... Bu gün Müsavat Partiyasının yeni rəhbərliyi hələ müxalifətdə olmasına rəğmən öz sıravi üzvləri ilə repressiv dillə danışır, başqanı bəyənməyənləri hədəfə alır, müxtəlif yollarla təşkilatdan uzaqlaşdırır. Bu, əlbəttə, demokratik bir qurumun edəcəyi bir iş deyil". Müsavatçı fəal partiya yetkililərinin ədalətsizliyi ucbatından çox adamların bu təşkilatdan üz döndərdiyini deyir və üzv olduğu Suraxanı rayon təşkilatında yaşananları bunun ən bariz nümunəsi kimi göstərir.

**Qeyd edək ki, oktyabrın 25-də Müsavat Məclisinin növbəti iclası keçiriləcək. İclasda Məclisə və MNTK-ya boş qalmış yerlərə növbəti seçkinin keçirilməsi gözlənilir. Həmçinin, narazı namizəd Qubad İbadoğlunun seçki pozuntuları barədə müraciətindən 15 günə yaxın vaxt keçir. Partiya uzağı bir ay müddətinə narazılara cavab verməlidir. Bu iki hadisədən sonra partiya daxilində narazılıqların və təlatümlərin daha da artacağı istisna deyil.**

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 263 (5972) 25 oktyabr 2014

# Kommunikasiya sistemləri qışa hazırdırmı?

## Aidiyyəti qurumların cavabı müsbət oldu

**Bakının qış hazırlıqlarında həmişə problemlər olub. Yağışlar və ilk qar yağan kimi ortaya çıxan problemlər Bakının və ümumiyyətlə, ölkənin payız və qış mövsümünə hazır olmadığını üzə çıxarır. Bu mövsümlərdə qaza, işığa və suya tələbat daha da artır. Maraqlıdır, bəs bu il qış mövsümünə hazırlığın ümumi vəziyyəti necədir? Şaxtalı qış günlərində kommunikasiya sistemləri ilə bağlı hər hansı problem yaşanacaqmı?**



**“Azəristiliktəchizat” ASC-nın sədr müavini İlham Mirzəliyev** istər texniki cəhətdən, istərsə də başqa tərəfdən qışa tam hazır olduqlarını dedi. Onun sözlərinə görə, “Azəristiliktəchizat”da kifayt qədər işlər görülür: “Bizim xidmət zonasında olan istehlakçıların təminatında heç bir problem olmayacaq. Təbii ki, fors-major vəziyyətlər istisna olmaqla. Hər tərəfdən qışa tam hazırıq. ”Azəristiliktəchizat"ın vəzifəsi ondan ibarətdir ki, enerjini istehsal edib istehlakçıya çatdırsın. İstehlakçı isə yaşayış binası, mənzil, məktəb və digər obyektlər hesab edilir. Biz mənzilin içinə girmirik. Biz binanın girişinə qədər istiliyi çatdırırıq. Mənzilin daxilinə isə mənzil mülkiyyətçiləri cavabdehdir. Yaxud da ki, məktəbin içinə isə balans saxlayıcısı cavabdehdir. Əgər onun radiatorlarında, yəni istilik cihazlarında bir problem və ya axıntı olarsa, bu artıq “Azəristiliktəchizat”ın problemi deyil. Hər bir təşkilat, insan mövsümə, qışa hazırlaşmalıdır. Elə ancaq təchizat müəssisələrinin hazırlığı haqda soruşulur. Amma istehlakçının özünün mövsümə necə hazırlaşdığı barədə heç kim danışmaq istəmir. Əgər bir binanın blokunun qapısı, pəncərəsi yoxdusa, damı, zirzəmisi pis gündədirsə, görün burada nə qədər enerji itkisi olur. Digər ölkələrin təcrübəsinə baxsaq görərik ki, insanların özləri soyuq havalara necə hazırlaşırlar. Pəncərələrini, qapılarını bərkidir, müəyyən tədbirlər görürlər. Yəni yalnız kommunikasiya sistemlərinin qışa hazırlaşması ilə məsələ bitmir. Biz “Azəristiliktəchizat” olaraq texniki cəhətdən bütün tədbirlərimizi görmüşük. 30-dan çox yeni qazanxana tikilib. 200-dən artıq binanın istilik sistemi bərpa olunub. Ümumilikdə bu il 300-dən artıq layihə işlənib. Bunun effektiv nəticəsinin olması üçün həmin istiliyi alan da müəyyən addım atmalı və tədbirlər görməlidir. Bununla bağlı maarifləndirmə işi aparılmalıdır".

**“Azəriqaz”ın mətbuat xidmətinin rəhbəri Araz Ağayev** qışa tam hazır olduqlarını dedi: “Azəriqaz” İstehsalat Birliyində yaz aylarında hər il daha əvvəlki payız-qış mövsümünün yekunları müzakirə edilir. Bu il də belə olub. Aprel ayında 2014-2015-ci illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar birliyin əmri ilə tədbirlər planı təsdiqlənib. Tədbirlər planı 347 bənddən ibarətdir və may ayından etibarən “Azəriqaz” İstehsalat Birliyinin müvafiq struktur bölmələri və rayon qaz istismarı tərəfindən həmin tədbirlər planına müvafiq olaraq tədbirlərin həyata keçirilməsinə başlanılıb. Yəni ümumilikdə may sentyabr ayları ərzində 30 min metrdən artıq qaz kəməri təmir olunub, yeni qaz xətləri çəkilib. 5550 metr qaz kəməri dayaqlar üzərinə qaldırılıb. Ümumilikdə 200-dən çox qaz tənzimləyici və siyirtmə quraşdırılıb. Bundan başqa qaz avadanlıqları təftiş olunub. Eyni zamanda “Azəriqaz”ın qəbul nöqtələrində yerləşən ölçü qovşaqlarının yenidən qurulması istiqamətində də işlər aparılıb. Köməkçi xətlər quraşdırılıb, sərfiyyata uyğun qurğular yenilənib, əvəzlənmə işləri aparılıb. Bütün bu tədbirlər planı ilə nəzərdə tutulan bütün tədbirlər yerinə yetirilib".

**“Bakıelektrikşəbəkə”nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayev** də qışa tam hazır olduqlarını bildirdi: “Qış yaxınlaşır deyə, biz hazırlıqlarımızı görmüşük. Biz istər yay ayları olsun, istərsə də qış ayları çox ciddi yenidənqurma işləri aparırıq. Son bir neçə il ərzində elektriklə bağlı fasilələr yaranan yerləri də nəzərə alaraq çox yüksək səviyyədə yenidənqurma işləri həyata keçirmişik. Bunlara misal olaraq 23 ədəd 110 kilovoltluq, 62 ədəd 35 kilovoltluq yarımstansiya qurmuşuq. Bilirsiniz ki, Bakı küləklər şəhəridir. Ətraf kənd qəsəbələrində özünü izolyasiya edən və müdaxilə olunmayan kabel xətləri çəkilib. Yəni ən son texnologiyalı avadanlıqlarla təmin olunub. Əvvəlki aşağı səviyyəli transfarmatorlar yeniləri ilə əvəz olunması və ilk dəfə olaraq Bakı şəhərində yarımstansiyalar arası dairəvi sxem istifadəyə verilib. Bütün bunların nəticəsi olaraq deyə bilərəm ki, biz qışa tam hazırıq. Ümumiyyətlə qış aylarında cari hazırlıqlar başlanır. Cari hazırlıqlar nədir? Hər bir rayonda transformatorlara baxış keçirilir ki, görək onların ağlarının dəyişdirilməsinə ehtiyac varmı. Baxış keçiririk görək ki, müəyyən avadanlıqları sıradan çıxıbmı, köhnəlibmi. Bütün bu cari işlərə təftiş deyirlər. Bəzi vaxtlarda bunun nəticəsi olaraq ayda bir dəfə müəyyən vaxtlarda elektrikin verilməsində fasilələr yaranır. Biz çalışırıq ki, bu fasilələrin arası çox olmasın. Ancaq qışa hazırlıqla əlaqədar olaraq bu fasilələr labüddür. Son olaraq da onu qeyd edim ki, elektriklə bağlı haradasa hansısa problem yaranarsa, vətəndaşlar 199 saylı telefon nömrəsinə 24 saat boyunca zəng edib məlumat verə bilərlər. Həmin problem operativ olaraq aradan qaldırılacaq. Elektrik enerjisinə nə qədər tələbat varsa, hamısı yerinə yetiriləcək. Əgər borcu olan abonent varsa, həmin abonentlərin elektrik enerjisi hansısa problem yarana bilər. Buna görə də onlar vaxtında borclarını ödəməlidirlər”.

❑ **Günel MANAFLI**


# Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com “doktor Vaiz Səmədov”.**



*Əyləncəli, sürətli, asan!*



Speak English

*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

- ✓ *İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!*
- ✓ *Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!*
- ✓ *Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!*
- ✓ *Əla tələffüz və güvənlə danışmaq*
- ✓ *Real ingiliscə söhbətlər*

BONUS english EXPLOSION
*dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!*

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*



## Beynəlxalq Təhsil Mərkəzi

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

< *Kiyev Dövlət Texniki Universiteti*
< *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
< *Kremençuk Dövlət Universiteti*
< *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
< *Kiyev Dövlət Dəniz Akademiyası*
< *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
< *Tbilisi Dövlət Tibb Universiteti*
< *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
< *Minsk Dövlət Universiteti*
< *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
< *Qrodno Dövlət Universiteti*
< *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
< *Volqoqrad Dövlət Aqrar Universiteti.*
< *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A «Nərimanov» m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**



ORİJİNAL AKSESUARLAR

Ucuz qiymətlərə, gözəl, keyfiyyətli hədiyyələr və ev üçün bəzək əşyaları



ünvan “SƏDƏRƏK” TİCARƏT MƏRKƏZİ
3-cü zona, 15-ci sıra, 40 nömrəli mağaza



**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 263 (5972) 25 oktyabr 2014

**Göyçay rayonunda baş verən qanunsuzluqlar, korrupsiya faktları ilə bağlı dəfələrlə yazmışıq. Bakıdan 216 kilometr aralıda yerləşən bu rayonda icra başçısı olan Mansur Məmmədov nəqliyyat naziri Ziya Məmmədovun əmisi oğludur. Rayondakı mənbələr müxbirimizə deyirlər ki, M. Məmmədov nazir əmisi oğlunun nüfuzunu qaldırmaq əvəzinə, fəaliyyəti ilə onun nüfuzun zərbə vurmağı sanki qarşısına məqsəd qoyub.**

# Göyçayda tüğyan edən korrupsiyanın şok təfərrüatları

## Nazirin əmisi oğlu olan icra başçısı artıq rüşvəti natura şəklində də yığmağa başlayıb; Mansur Məmmədov Hüngütlüdə özünə dəbdəbəli malikanəni hansı pullarla tikdirib?

Göyçaylıların başçının əmisi oğlunun birbaşa səlahiyyətlərinə aid sahədən giley-güzarı da bitib-tükənmir. Redaksiyamıza bir qrup Göyçay sakini adından daxil olan məktubda yazılır:

"Səkkiz ildir ki, Mansur Məmmədov Göyçayı viran edir. İcra başçısı təyin olunduğu gündən satmadığı yer qalmayıb. İnsanlar şəxsi mülklərinin də satışa çıxarılacağından qorxur. Bir neçə il qabaq rayonda su və kanalizasiya sisteminin yenidən qurulması üçün 40 milyondan artıq vəsait ayrıldı. Bundan sonra rayonun acınacaqlı günləri başladı. Rayon yollarının asfalt örtüyü tamamən sıradan çıxdı. İşlər yekunlaşandan sonra dağılmış asfalt örtüyünü bərpa etməli olan Türkiyə şirkəti bu işləri görməkdən imtina etdi. Səbəbi də gizlətmədi - görüləcək işin pulunu icra başçısı alıb və deyib ki, qalan iş sizlik deyil. Mansur Məmmədov da xəbər yayır ki, türklər yalan deyir. Ancaq biz göyçaylılar icra başçısına inanmırıq. Heç ola bilər ki, rayonu viran edən başçı türklərin əlində aciz qalsın? Yağışlar başlayanda sevindik ki, küçələrdən toz-torpaq çəkilər. İndi də gölməçələr əmələ gəlib. Yollardan keçmək olmur. Elə yollar var ki, kənarlarında camışçılıq üçün münbit şərait yaranıb. Biryolluq rayonu camışçılıq kolxozu elan etsinlər, başçı postu da baş çoban postu ilə əvəz olunsun".

**Sakinlər yazır ki, Göyçay şəhərinin cəmi 5-6 kilometri asfaltla örtülüb:** "Həmin yoldan ölkə prezidenti və yüksək rütbəli məmurlar keçməsəydilər, yəqin ki, oraların asfaltının pulunu da mənimsəyəcəkdilər. Cənab prezidentə çatdırırıq ki, bizlər də insanıq. Biz də rahat, səliqəli yol istəyirik".

**Sakinlər rayon sahibkarlarından kütləvi pul yığıldığını da yazırlar:** "Cənab prezident, Mansur Məmmədov sizin keçəcəyiniz yolun kənarında obyekti olan sahibkarlardan pul yığır. Bu işi şəhər üzrə nümayəndəsi Rəşad Məmmədov vasitəsi ilə edir. Güya obyektlərin dam örtüyünü dəyişəcəklər. 10 manatlıq işə görə sahibkarlardan 100 manat alırlar. Verməyənləri vergi ilə qorxudub alırlar. Binaların yola baxan hissələrini təmir etməklə işlərini bitmiş sayırlar. Sabir adına bağda 50-dən yuxarı ağacla birlikdə kəsdirib yerində 2 mərtəbəli mağaza tikdirib".

**Sakinlər icra başçısının özünə rayonun Hüngütlü kəndində dəbdəbəli malikanə inşa etdirdiyini, bu işə rayon idarə təşkilatlarının işçilərinin cəlb olunduğunu yazırlar:** "Hüngütlüdə hektarlarla ərazini zəbt edərək özünə 2 il ərzində malikanə tikdirdi. Təkcə malikanənin qarşısındakı gölün tikintisinə yüzlərlə dövlət qurumlarına aid maşın cəlb olunmuşdu. Oradakı işıqlandırma sisteminin quraşdırılmasına 50-yə yaxın usta cəlb etmişdi. Hamı bilir ki, ora Mansur Məmmədovundur. O isə əvvəlcə şayiə yaydırdı ki, malikanə Ziya Məmmədovundur. Ancaq heç kim buna inanmadı. Ona görə ki, Ziya Məmmədovun rayonun Potu kəndində 100 hektar ərazini əhatə edən torpağı var. Həmin torpaqda 2 malikanə, oğlu Anara məxsus hissədə hətta vertolyot meydançası və böyük süni göl var. Ona görə də bu yalanı keçmədikdə Mansur Məmmədov belə bir şayiə yaydırdı ki, guya malikanə Prezident Adminstrasiyasının rəhbərliyində təmsil olunan bir məmura məxsusdur. Bu yalana da rayonda heç kim inanmadı. Hamı dedi k, o məmur hara, Göyçayın kəndi hara? Hazırda malikanə Araz Ağalarovun oğlu Emin Ağalarovun "ayağına yazılıb". Mansur Məmmədov deyir ki, malikanəni tikdirib hədiyyə edib və daha ona heç kim, heç nə edə bilməz".



Mansur Məmmədov

**Sakinlər yazır ki, M.Məmmədov başçı təyin olunandan sonra rayonda intiharların sayı durmadan artır:** "Artıq sadə vətəndaşlar deyil, məmurlar da intihar etməyə başlayıb. Ötən ay rayonun ən böyük bələdiyyələrindən sayılan Çayarxı bələdiyyəsinin sədri Mahmud Şıxməmmədov intihar etdi. Onun cibindən tapılan məktubda icra başçısının ondan pul istəməsi və buna görə intihar etdiyi yazılmışdı".

**Məktub müəllifləri M.Məmmədovun nar bayramından istifadə edərək maddi imkanlarını artırdığını da yazırlar:** "Noyabrın əvvəlində nar bayramı olacaq. Artıq rüşvətin natura - yəni nar şəklində yığımına göstəriş verilib. İdarələrdən, müəssələrdən, sahibkarlardan və kənd bələdiyyələrindən yığılan pullara nar töycüsü də əlavə olunub. Guya qonaqlara paylamaq üçün hər kənd bələdiyyəsinin boynuna 2-3 ton nar verməsi qoyulub. Özü də başçıya veriləcək nar seçmə olmalıdır. Bu yolla 50 tondan yuxarı seçilmiş narı soyuducular vurublar. Artıq indidən Mansur Məmmədov həmin narı əvvəllər alver etdiyi Moskva bazarına yola salır".

❑ **E.HÜSEYNOV**

**P.S.** *Yazıda adı hallanan hər kəsi dinləməyə hazırıq.*

# Bacısının öldürdüyü qızın məktəb yoldaşları "Yeni Müsavat"a danışdılar





## Qətldən bir gün qabaq rayondan gələn anaları qızlara baş çəkib; ana və övladı arasında mübahisə yaşanıb; Günel Nuriyevanın qətlinin təfərrüatları

**Oktyabrın 22-də, Bakının Xətai rayonunda 20 yaşlı Günel Nuriyevanın öz doğma bacısı tərəfindən öldürülməsi faktı ölkə mətbuatında şok effekti yaratdı. Qətlin Pərvanə Nuriyeva tərəfindən törədilməsi hüquq-mühafizə orqanları tərəfindən təsdiqləndi. Hadisənin təfərrüatları artıq məlumdur. Pərvanə polisə ifadəsində mərhum bacısının cinsi azlıq nümayəndəsi olduğunu və onun hərəkətlərindən bezərək belə bir addım atdığını söyləyib.**

Günəl Nuriyevanın necə bir qız olduğunu və onun haqqında yayılan şayiələrin həqiqətə uyğun olub-olmadığını öyrənmək üçün onun təhsil aldığı Üzeyir Hacıbəyov adına Musiqi Akademiyasına üz tutduq.

Öncə qeyd edək ki, Günel mətbuatda yazıldığı kimi, II yox, III kurs tələbəsi imiş. Universitetin fortopiano qrupunda təhsil alan Günel Nuriyevanın qrup yoldaşları jurnalist olduğumuzu biləndə söhbətə onun haqqında yayılan şayiələrə etiraz edərək başladılar.

**Mərhumun qrup yoldaşı və rəfiqəsi olmuş Türkan Allahverdiyeva onun çox saf, sadəlövh, sakit təbiətli bir qız olduğunu dedi:** "Saytlar onun cinsi azlıq nümayəndəsi olduğunu yazırlar, bu çox iyrənc iftiradır. Ölən bir qız haqqında bu yazılanlar, sosial şəbəkələrdə gedən müzakirələr insanlığa sığmır. Ən azı həqiqəti öyrənmək üçün gəlib bizdən soruşa bilərdilər. Biz 3 il bir yerdə oxumuşuq və qrupda hamımız qızıq. Əgər o saytlarda yazıldı kimi cinsi azlıq olsa idi, ən azından bunu biz hiss edərdik. Günel həddən artıq tərbiyəli idi. Heç vaxt açıq-saçıq geyinməzdi, onun facebook hesabı belə yox idi. Sözünün əvvəlində də, sonunda da "Allah qoysa, İnşallah" ifadələrini işlədirdi. Bizimlə gəzməyə belə gəlmirdi. Böyük bacı olduğu üçün bacılarına qarşı çox qayğıkeş idi, onlara yemək hazırlamaq üçün həmişə evə tələsirdi".



**Türkan Allahverdiyevanın sözlərini təsdiqləyən digər qrup yoldaşları da adlarının çəkilməməsi şərtilə dostları haqqında xatirələrini bölüşdülər. Tələbələrdən birinin sözlərinə görə, onun qatil bacısı Pərvanəni burada tez-tez görürmüşlər:** "Pərvanənin təhsil aldığı Asəf Zeynallı adına Musiqi Kolleci buraya yaxın olduğu üçün dərsdən çıxıb bura gəlir, bacısını gözləyirdi və bir yerdə evə gedirdilər. Münasibətləri normal idi, onları heç vaxt mübahisə edən yerdə görməmişik. İndi Pərvanənin özünə bəraət qazandırmaq üçün bacısına böhtan atması çox alçaq hərəkətdir. Onun cəzası mütləq ağır olmalıdır".

Bacılar arasında mübahisənin qısqanclıq zəminində olması ehtimalı əsassız adlandıran qrup yoldaşları deyir ki, Günelin sevgilisi yox idi, o ümumiyyətlə, bu cür söhbətlərdən uzaq, çəkingən, utancaq birisi olub. Dərslərə çox az gəlirmiş, əsasən ixtisas fənninə üstünlük verdiyi üçün onu yalnız o dərslərdə görürmüşlər. Dərsdən çıxan kimi isə evinə tələsirmiş.

Rəfiqləri deyir ki, bəd xəbəri eşidəndə əvvəlcə inanmayıblar, daha sonra isə Günelin telefonuna zəng çatmadığını görüb onların evinə gediblər. Onlardan biri bildirdi ki, həmin hadisədən bir neçə saat sonra Pərvanə ilə danışıb və ondan Günelin harada olduğunu soruşub: "Günelin ölüm xəbərini eşidən kimi bacısı Pərvanəyə zəng elədim, təxminən axşam saat 19:00 radələri idi. O pis olar deyə bacısının ölümündən xəbərdar olduğumu demədim. Pərvanədən Günelin necə olduğunu və niyə dərs gəlmədiyini soruşdum. O isə mənə evdə olmadığını və Günelin yaxşı olduğunu dedi. Elə soyuqqanlı və sərbəst danışırdı ki, fikirləşdim yəqin xəbəri yoxdur. Mənə Günelin nömrəsini göndərdi və dedi ki, evdən çıxanda bacısı evdə deyilmiş. Zəng vurdum, Günelin nömrəsi bağlı idi, ev telefonu da cavab vermirdi. Səhər Günelin qatilinin Pərvanə olduğunu eşidəndə şoka düşdüm".

G.Nuriyevanın digər tələbə yoldaşı onun magistraturaya hazırlaşdığını və ən böyük arzusunun təhsilini davam etdirmək olduğunu deyir. Mərhumun dostları "Yeni Müsavat" vasitəsilə mediaya müraciət edərək ölən rəfiqələri haqqında əsassız şayiələr yazmamağa və etik normaları gözləməyə çağırdılar.

Bu arada mərhumun təhsil aldığı akademiyanın dekan müavini də mediaya açıqlamasında deyib ki, G. Nuriyevin cinsi azlıq nümayəndəsi olması barədə yayılan məlumatların heç bir əsası yoxdur: "Çox yaxşı tələbə olub. Çox sakit biri idi. Biz onda hər hansı dəyişiklik müşahidə etməmişik. Gənc bir qız haqqında elə sözlər yazmaq olmaz. Onun haqqında yazılanlar yanlışdır. Həmin xanım çox yaxşı bir ailənin övladı olub. Bu ailəyə vurulan zərbə idi. İnternetdə bəziləri qızlara ləkə yaxır".

**Pərvanə Nuriyeva haqqında məlumat toplamaq üçün onun təhsil aldığı Asəf Zeynallı adına Musiqi Kollecinə də baş çəkdik. Məktəb müəllimləri mətbuata danışmamaqla bağlı tapşırıq aldıqlarını deyərək açıqlama verməkdən imtina etdilər.**

**Nuriyevlər ailəsinin Şəkidə yaşayan və adının açıqlanmasını istəməyən yaxın qohumu da onların yaxşı bir ailə kimi tanındıqlarını bildirdi:** "Qızlar heç bir təriqətin üzvü olmayıb, sakit təbiətli, normal, mədəni tərbiyəli idilər. Ataları gecə-gündüz çalışıb, götürdüyü həyətyanı sahədə cənnət kimi bir şərait yaratmışdı. Bir əli qızlarının üstündə idi. Saytlarda yazırlar ki, iş adamı biznesmendir, ancaq yalan söhbətdir. Öz həyətində balıq yetişdirirdi, cins quşlar saxlayırdı, həyətində botanika bağı kimi bir mühit yaratmışdı. Çox gözəl insandır atası. İndi ailə şok vəziyyətindədir, Allah kimsəyə belə facie yaşatmasın. Atası qızının bacısını öldürdüyünə inanmaq istəmir".

**Qeyd edək ki, ötən gün İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri, hüquq müdafiəçisi Elçin Behbudov Xətai rayon Polis İdarəsində olarkən bacısının qətlə yetirməkdə təqsirləndirilən Pərvanə Nuriyeva ilə görüşüb:** "Hazırda saxlanılan şəxsin vəziyyəti normaldır. Ona heç bir fiziki, mənəvi təzyiqlər olmayıb. Pərvanə Nuriyeva törətdiyi əməldən peşman olduğunu bildirir. Danışdıqca onun psixi sarsıntı keçirdiyi hiss olunur".

Hüquq-mühafizə orqanları isə Pərvanə İbrahimovanın psixoloji problemlərinin olması ehtimalı ilə bağlı ekspertiza aparır. publika.az-ın verdiyi xəbərə görə, artıq G. Nuriyevanın meyiti ilkin ekspertizadan keçirilib. Polisin açıqlamasında deyilir ki, qızın üzərində heç bir zorakılıq əlaməti qeydə alınmayıb: "Bakirəliyin pozulması faktı yoxdur. Günel Nuriyevanın lesbiyan olması ilə bağlı deyilənlər yalandır".

**Qonşular da qızlardan heç bir pis hərəkət görmədiklərini, evə kənar şəxslərin gətirilməsinin şahidi olmadıqlarını söyləyiblər. Mətbuatda isə qətlin səbəbləri ilə bağlı müxtəlif versiyalar səslənir. Teleqraf.com əldə etdiyi məlumata görə qətl pul mübahisəsi üstündə baş verib:** "Nuriyevaların anası oktyabrın 21-də Şəkidən Bakıya gəlib. Ana qızlarının kirayə yaşadığı evdə olan zaman mübahisə yaranıb. Onların arasında mübahisənin pul üstündə yarandığı bildirilir. Günel Nuriyeva kiçik bacısından anasına şikayət edib, deyib ki, bacısı bədxərclik edir. Şikayətdən sonra qadın Pərvanə Nuriyevanı tənbeh edib. Pərvanə də bacısının hərəkətlərindən əsəbiləşib. Oktyabrın 22-də Pərvanə anasını yola salmaq üçün avtovağzala aparıb. Yola salandan sonra Pərvanə bacısından qisas almaq qərarına gəlib. Evə daxil olan Pərvanə Günellə mübahisə edib. Mübahisə zamanı Pərvanə Nuriyeva bacısına 22 bıçaq zərbəsi vurub və daha sonra boğazını kəsib".

**Bu məsələ Türkiyənin aparıcı mətbuat orqanlarının manşetində də yer alıb. Orada Pərvanənin yuxuda ikən bacısını öldürməsi ilə bağlı vəhy aldığı yazılır.**

❑ **Nərgiz LİFTİYEVA**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT

Son səhifə

N 263 (5972) 25 oktyabr 2014



## Savadlı qadınlar arasında gəlin-qayınana problemi olmur

Qayınanaların öz gəlinləri ilə niyə yola getməməsinin səbəbləri araşdırılıb. Dünyanın müxtəlif ölkələrində bu problem özünü müxtəlif cür göstərir. Psixoloqlar müəyyənləşdirib ki, qayınana öz oğlunu - gəlinin ərini çox sevir. Gəlindən öncə onun öz oğlu ilə öz dünyası, öz prinsipləri, öz qayğıları olur. Gəlin bu sevginin çoxşaxəliliyini, dərinliyini duya bilmir. Gəlin özünü ərinə daha yaxın hesab edir. Gəlinin də ərinə qarşı öz dünyası, öz prinsipləri, öz qayğısı var. İntellekt və mənəvi səviyyə yüksək olanda gəlinlə qayınana öz maraqlarını bölüşə bilirlər. Təəssüf ki, bu, əksər hallarda mümkün olmur, maraqlar toqquşur. Əslində, biz uşaqlıqdan qızlarımızı bu münasibətləri tənzimləməyə hazırlamalıyıq. Amma əksər hallarda qızın anası, nənəsi bu alovu daha da qızışdırır.



## Nənələr uşaqları kökəldir

Nənəsi tərəfindən baxılan uşaqlarda xəstəlik dərəcəsində kökəlmə riski böyükdür. London universiteti akademiklərinin 3 yaşlı 12 min uşaq üzərində apardığı araşdırmalara görə, bütün gün nənələrinin yanında olan uşaqlarda bu risk 34 faizdir. Uşaq bağçasına gedən və ya dayə nəzarətində böyüyən uşaqlarda isə belə bir risk olmadığı aşkarlanıb.

Araşdırma nəticəsində təhsil almış anaların uşaqlarının da risk qrupuna daxil olduğu müəyyən olunub. Mütəxəssislər bildirib ki, nənələrin və anaların uşaqların qidalanması və bədən tərbiyəsi ilə məşğul olması barədə məlumatlandırılması lazımdır.

Qeyd edək ki, amerikalı mütəxəssislərin keçirdiyi araşdırmalar nəticəsində məlum olmuşdu ki, xəstəlik dərəcəsində çox kökəlmək insanda körpə yaşlarda başlayır.

# Qızların yaşlı kişilərdən niyə xoşlandığı məlum oldu

Gənc qızların özündən bir neçə dəfə böyük olan kişilərə meyl etməsi geniş hal alıb. Portuqaliyalı alimlər araşdırıb ki, bunun ilkin səbəbi həmin qızların ilk növbədə ata qayğısından məhrum olmasının nəticəsidir. Xoşbəxt uşaqlıq keçirə bilməyən, atasız böyüyən qızlar yetkinlik yaşına çatan kimi ilk növbədə ataları yaşda olan kişilərə maraq göstərir, onların qayğısından, müdrikliyindən həzz alır. Bundan başqa, yaşlı kişilərin daha xarizmatik olması, cavanlardan fərqli olaraq problemləri tez həll etməsi, qadın ruhunu anlaması, sevdiklərinə fərqli hədiyyələr alması da bu seçimdə mühüm rol oynayır. Bundan başqa, gənc qızlar bilirlər ki, yaşlı kişi ilə münasibət xəyanət riskini də azaldır. Çünki yaşlılar üçün ikinci, üçüncü qadın çox da böyük rol oynamır.



# Bu ev Marsda tikiləcək

**ABŞ-ın Milli Aviasiya və Kosmik Tədqiqatlar Agentliyinin (NASA) yeni proqramı olan "Hi-Seas" layihəsi çərçivəsində Marsda astronavtlar üçün yaşam məkanı hazırlanır. Marsda tikiləcək modulun imitasiyası hazırda Havay adalarında inşa olunub.**

6 astronavt üçün nəzərdə tutulmuş modul 6 yataq otağı, mətbəx, qonaq və yemək otaqlarından ibarətdir. Modulun sınaqlarına cəlb olunmuş könüllülər Marsdakı situasiyanı təkrarlayan durumda yaşayırlar. Milli.az-ın yazdığına görə, sınaqların ilk mərhələsi 4 ay, 2-ci mərhələ 8 ay olub. 3-cü mərhələ isə artıq 3 ildir ki, davam edir. Yarımdairəvi, qübbəli yaşam modulunun hündürlüyü 11 metrdir. Modul müəlliflərinin dediklərinə görə, bu minvalla onlar modulda yaşayacaq şəxslərdə klaustrofobiyanın yaranmamasına çalışırlar.

Havay arxipelaqının Mauna-Loa adasındakı böyük qubbə modulun diametri də 11 metrdir. 1000 m2 sahəyə malik modeldəki sınaqların nə zaman başa çatacağı barədə məlumat verilməyib.






## Facebooka uşağınızla birgə girin

Günümüzdə uşaq və yeniyetmələrin facebook sosial şəbəkəsinə meyli pedaqoqların narazılığına səbəb olur. Onlar hesab edir ki, uşağa bunu yasaqlamaq mümkün deyil. Amma bunun zərərli vərdiş halına keçməməsi üçün valideynlər uşaqların sosial şəbəkədə müşayiəti etməlidir. Belə ki, valideynlər uşaqları ilə facebookda da dost olmalı, onların gün ərzində nə etdiyi, nə kimi statuslar paylaşdığını izləməlidir. Amma pedaqoqlar düşünür ki, valideynlər kəskin şəkildə uşaqlarının sosial şəbəkədəki ünvanına icazəsiz girməməli, parolunu hansısa yolla ələ keçirməməlidir. Onların fikrincə, bu, uşağın güvən hisslərinin zədələnməsinə səbəb ola bilər. Bu günlərdə alman müəllifləri Tobias Albers-Heinemann və Björn Friedrichin "Valideynlər üçün Facebook kitabı" adlı nəşri işıq üzü görüb və məhz bu məqsədlə yazılıb.




QOÇ - Dualarınızın sayını artırın, ziyarətgahlara gedin. Çalışın ki, Tanrıya zidd olan hərəkətlərə yol verməyəsiniz. Belə etsəniz, ağrı-acılarınız da sovuşub gedəcək. Uzaq yola çıxmayın.

BUĞA - Çox maraqlı bir gün yaşayacaqsınız. Bir tərəfdən hadisələrin zövqünüzlə uyğunlaşması, digər tərəfdənsə maraqlı insanlarla rastlaşmağınız ovqatınızı yüksəldəcək.

ƏKİZLƏR - Yeni görüşlər üçün səmərəli vaxtdır. Yaxşı olar ki, əvvəlcədən təyin edilmiş işgüzar sövdələşmələri təxirə salmayasınız. Məhəbbətdə səmimi olun və kənar təsirlərə baş qoşmayın.

XƏRÇƏNG - Bir qədər təzadlı məqamlar yaşayacağınız gözlənilir. Buna baxmayaraq, yeni işgüzar əlaqələrə başlamağınız daxili nikbinliyinizi artıracaq. Təcrübəli adamlardan yararlanın.

ŞİR - Yaxşı olar ki, ixtiyarınızda olan bu təqvimdə özünüzü çox da üzməyəsiniz. Əks təqdirdə səhhətinizlə bağlı xoşagəlməzliklər mümkündür. İstənilən mübahisədən uzaq olun. Əsasən istirahət edin.

QIZ - Astroloji göstəricilər gün ərzində səhhətinizlə bağlı problemlərin artacağını bildirir. Yaxşı olar ki, fiziki işləri təxirə salıb istirahətə üstünlük verəsiniz. Ac qalmayın.

TƏRƏZİ - Qeyri-adi heç nə gözlənilməsə də, gününüzü maraqlı etmək üçün canfəşanlığınızı artırmalısınız. Darıxdığınız adamların əhatəsində olun. Keçmiş problemlərdən danışıb özünüzü yormayın.

ƏQRƏB - Deyirlər insanın hər şeydən əli üzüləndə məhəbbət budağından yapışır. Ulduzlar da bu təqvim üçün sizə məhz həmin tövsiyələri təlqin edir. Qəlbinizi sevgisiz qoymayın, mərhəmət göstərin.

OXATAN - Bir qayda olaraq bu ərəfə şəxsi işlərinizdə əsaslı dönüş yaradır. Lakin bu, saat 14-dən sonra mümkün ola bilər. O vaxta qədərsə istənilən mübahisədən yayınmalı, ölçülü-biçili danışmalısınız.

OĞLAQ - Təxminən saat 15-ə qədər özünüzü təmkinli apara bilsəniz, gözlənilən tələtümlərdən qurtulacaqsınız. Sonrakı ərəfədə isə iki sürprizlə qarşılaşacaqsınız. Onların biri pulla bağlıdır.

SUTÖKƏN - Ola bilsin ki, çoxdan görmədiyiniz xeyirxah adamlarla rastlaşasınız. Belə olarsa, öz problemləriniz haqqında onlara danışmaq olar. Bu gün savab işlərinizin sayını artırın.

BALIQLAR - Kifayət qədər uğurlu gündür. İstər qarşılıqlı münasibətlərdə, istər perspektivli sövdələşmələrdə, istərsə də maliyyə uğurlarına yetişməkdə ulduzlar sizə yaxından yardımçı olacaq.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Bütün şəhərin qarşısında arvadından üzr istədi



Türkiyənin Şanlıurfa şəhərində maraqlı bir hadisə baş verib. Həyat yoldaşı tərəfindən bağışlanmaq istəyən adam bunun üçün şəhərin mərkəzi küçələrindən birindəki billboardu icarəyə götürüb və onun üzərinə "Bütün Şanlıurfa şahidim olsun ki, səndən üzr istəyirəm" yazdırıb. Adını "M. Ak" olaraq yazdıran bu şəxs billboarda aşağıdakıları yazıb: "Sevimli həyat yoldaşım Şərmin. Mən eşqimi çirkləndirəcək qədər qürurlu, səndən üzr istəməyəcək qədər də kinli deyiləm. Bütün dərdi, kədəri və kini arxama atdım və bütün Şanlıurfa şahidim olsun ki, səndən min dəfə üzr istəyirəm. Sevgilim, məni bağışlayarsanmı?" Elanı görən əksər vətəndaşlar isə bu adamın öz həyat yoldaşına xəyanət etdiyini düşünərək, "qadın onu bağışlamamalıdır" deyib.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zabil MÜQABİLOĞLU

Lisenziya N: B 114
SAYI: 5.600

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.